AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU

**ƏHMƏD ANATOLLU**

# ÖZ ARAMIZDA QALSIN

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun 1 may 2015-ci il 3 saylı iclasının qərarı ilə nəşr olunur*

**BAKI-2015**

*Kitab Əhməd Anatollunun*
*120 illik yubileyinə ithaf olunur*


Nəşrə hazırlayan
və ön söz müəllifi:
**SONA XƏYAL**

Redaktorlar:
**MAARİF TEYMUR**
filologiya üzrə fəlsəfə doktoru
**ƏZİZAĞA NƏCƏFZADƏ**
filologiya üzrə fəlsəfə doktoru

Rəyçilər:
**TAHİRƏ HƏSƏNZADƏ**
tarix üzrə elmlər doktoru
**QUTİYERA CƏFƏROVA**



Əhməd Anatollu. Öz aramızda qalsın.
Bakı-“MBM”-2015, 256 səh.


Kitabda respublikanın əməkdar artisti, tanınmış aktyor və şair Əhməd Anatollunun sağlığında çap olunmuş “Kupletlər” (1925), “Acı həqiqət” (1925), “Şapalaq” (1927) və “Çuvalduz” (1930) kitablarındakı şeirlərlə yanaşı ilk dəfə işıq üzü görən şeirləri də yer alır.


ISBN 978-9952-29-091-8



© S.Xəyal
Bakı, “MBM”

## USTADIM SABİR DEMİŞKƏN

Əhməd Anatollu Məşədi Muxtar oğlu Səfərov (1894-1973) Bakının Maştağa kəndindəndir. Atası Muxtar Bisavad öz dövründə sənətkar şair kimi tanınmışdı. O, Bakıda fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisinin üzvü olmuş, əsasən lirik qəzəllər və növhələr yazmışdır. Onun evində də şeir məclisləri keçirilər və bu yığıncaqlarda o dövrün klassik şeirin bütün janrlarında qələmini sınamış məşhur şairləri iştirak edərmiş. Əhməd Anatollu belə bir ailədə dünyaya göz açmış və belə bir ədəbi mühitdə böyümüşdür.

Balaca Əhməd evlərində keçirilən yığıncaqlarda böyük şairlərin şeirləşmələrinə diqqət kəsilər, gizlində öz fikirlərini misralayardı. Bunu bilən Azər Buzovnalı yığıncaqların birində ona şeir oxumasını təklif edir. Onun şeiri məclis iştirakçılarının xoşuna gəlir və Əhməd bundan sonra daha çox yazmağa başlayır. Əvvəlcə lirik şeirlər yazan Əhməd, sonralar qələmini satirada sınayır və bu sahədə daha böyük uğur qazanır.

Öz yazdığı tərcümeyi-halından məlum olur ki, Əhməd molla yanında Quranı üzündən oxumağı öyrənmişdir. Ərəb-fars-türk dilində lüğət kitabından istifadə edərək, oxuduqlarını anlamağa çalışmışdır. Bir il oxuduqdan sonra atası: "Kifayətdir oxudun, Quranı bilirsən, ölənlərimizə yasin oxuyarsan" demiş və onu özü ilə fəhləliyə aparmışdır.

Əhməd Anatollu 1973-cü ildə Bakıda vəfat etmişdir.

Haşiyə: Əhməd Anatollunun nəvəsi Qorxmaz Səfərov öz evində saxlanılan bir neçə qovluğu Əlyazmalar İnstitutuna gətirdi, və babasının kitabını çap etdirmək istədiyini bildirdi. Materiallar içərisində müəllifin özü haqqında verdiyi məlumatlara əsasən axtarışa başladıq. Məlum oldu ki, Əhməd Anatollunun şəxsi arxivi əvvəllər Əlyazmalar İnstitutunda olmuş, sonralar Azərbaycan Dövlət Milli Arxiv İdarəsinin Ədəbiyyat və İncəsənət arxivinə verilmişdir və hal-hazırda orada 462 saylı fondda, 3 siyahi altında olan 50-yə qədər qovluqda saxlanılır. Bu arxiv materiallarını araşdırdıqda, müəllifin şeirləri, səhnəcikləri, oynadığı əsərlərin mətnləri, ailə və səhnə fotoları, aldığı fəxri fərmanlar, tərifnamələr və digər sənədlər ilə tanış olduq. Əhməd Anatollunun özü haqqında yazdığı geniş həcmli memuarından onun yaradıcılığı və səhnə fəaliyyəti haqqında dəyərli məlumatlar əldə etdik. Onun özü haqqında yazdığı maraqlı bir qitəsi vardır:

Sağlığımda kimsələr yağdırsa da lənət mənə,
Mən öləndən sonra aqillər oxur rəhmət mənə.

Oğru, cibgir, müftəxorlar çapsalar da kölgəmi,
Fəhlə, kolxozçu, ziyalı bəsləyər hörmət mənə.

Gəncliyimdə zəhməti sandım zəruri doğru yol,
Yağı oldu bir mənəmlik, bir də şan-şöhrət mənə.

Anatollunun yazdığına görə onun satiraları Bakıda və Tiflisdə müxtəlif mətbuat orqanlarında (“Molla Nəsrəddin”, “Zənbur”, “Kirpi” “Kommunist”, “Kəndli”, “Şərq qapısı”, “Şəki fəhləsi”, “Yeni fikir”) çap olunmuşdur.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əski çap kitabları bölməsində Əhməd Anatollunun 3 ərəb qrafikalı və 1 köhnə latın qrafikalı əlifbada çap olunmuş “Kupletlər” (1925), “Acı həqiqət” (1925), “Şapalaq” (1927), “Çuvalduz” (1930) adlı kitabları, Şəxsi fondlar bölməsində Hüseynqulu Sarabskinin arxivində isə ərəb əlifbasında yazılmış əsərləri (fond 15, saxlanma vahidi 393) mühafizə olunur.

Əhməd Anatollunun əldə etdiyimiz bütün şeirlərini bir kitabda toplayıb nəşrə hazırladıq. Kitabın əvvəlində onun çap olunmuş kitabları transliterasiya edilib olduğu kimi verilmişdir. İkinci hissədə müəllifin kitablarına düşməyən, yəqin ki, 1930-cu ildən sonra yazılmış satirik şeirləri yer alır. Burada forma müxtəlifliyi maraq doğurur. Şeirlər əruz və heca vəznlərində yazılmış, müəllif müxtəlif forma və şəkillərə müraciət etmiş, hətta bəhri-təvil də yazmışdır. Şeirlər səhnə üçün yazıldığından çox vaxt musiqi ilə birlikdə qələmə alındığından, şeir kimi oxunduqda bəzi vəzn xətalarına rast gəlinir. Bəzi şeirlər hətta meyxananı xatırladır. Bu şeirlər içərisində mövzu rəngarəngliyi diqqəti çəkir. Əhməd Anatollu cəmiyyətin hər sahəsində olan neqativ halları tənqid atəşinə tutmuşdur. Müəllifin gözündən heç nə yayınmamışdır. Hər adi bir vətəndaşın nöqsanlarından tutmuş, vəzifəli şəxslərə kimi onun tənqid hədəfləri vardır. Xalqı min firildaqla aldadan alverçi, fırıldaq işlədib artıq pul qopardan faytonçu, taksi sürücüsü, daydaya ümid bağlayan tələbə, imtahanqabağı oyunların oyunçuları, vətəndaşları get-gələ salan süründürməçi müdirlər, dövlət əmlakına xor baxan müxtəlif vəzifə adamları, Baksoyuz, Komunxoz və s. idarələrin öz cibini güdən işçiləri, müharibə zamanı cəbhədən yayınanlar, eyni zamanda müharibə törədən Hitler və onun əlaltıları, xarici ölkələrdə xalqları

müstəmləkə şəraitində saxlayan, məzlum insanları istismar edən kapitalistlər, mənəvi dəyərlərimizə xor baxan, milli mentalitetimizə əks olan davranış və geyimləri ilə insanları qıcıqlandıranlar və s. Əhməd Anatollunun daim satira atəşinə tutduğu, qamçıladığı obrazlardır.

Əhməd Anatollu üçün nə dövrün, nə də şəxsin fərqi yoxdur. O, çar dövrü insanlarının mənfi xüsusiyyətlərini pislədiyi kimi, müsavat dövründə yaşayanların da, sovet vətəndaşlarının da qüsur və nöqsanlarını çəkinmədən tənqid etmişdir. Onun satiralarının böyük əksəriyyəti bu gün üçün də aktual mövzuları əks etdirir. Çünki, günümüzün demokratiyanı anarxiya kimi başa düşən mənfi qəhrəmanları daha çox tənqid olunmalı tiplərdir.

Anatollunun mollaları, rövzəxanları, mərsiyəxanları və digər din xadimlərini tənqid edən əsərlərini əvvəlcə kitaba daxil etmək istəmədik. Lakin ilk baxışda dinin tənqidi kimi görünən şeirləri dərindən oxuyub düşündükdə görürük ki, müəllifin məqsədi heç də dini dəyərləri tənqid etmək deyil, əksinə, dini dəyərlərimizi öz cibini doldurmaq xatirinə, zahirən guya təbliğ edən, əslində isə təhqir edən fırıldaqçıları ifşa etməkdir. İrandan gəlib burada mərsiyəxan olan çayçı Məmişlər, insanları məhərrəmilikdə aşura günündə baş yarmağa çağıran, lakin özləri bircə dəfə də olsun baş yarmayan mollalar, dini oçaqlarda imamlar adından pul yığıb ciblərini dolduranlar, alver zamanı imamların adına and içən baqqallar, qəssablar, dini dəyərləri öz xeyri üçün ucuzlaşdıran digər tiplər Anatollunun tənqid hədəfləridir. Müəllif “Kislovodski” adlı şeirində yazır:

Gələndə yay zamanı, basır səni müştəri,
Gəlir səni görməyə ildə beş-on min pəri.
Burdan gedən xanımlar bir sümükdür, bir dəri,

Arıqları kökəltdin sən, ay Kislovodski.
Parij şəhrini ötdün can, ay Kislovodski.

Bu şeirdə imkanlıların gedib Kislovodskidə kef çəkdiklərini, kasıbların Mərdəkanda, Buzovna bağlarında həsrətlə yaşadıqlarını qeyd edən müəllif, Kislovodskinin bir çoxlarını hətta çörəkvay edib yola saldığını də vurğulayır.

Əsasən möhtəkirləri, qanunsuz iş tutanları tənqid atəşinə tutan Anatollunun "Qovladılar" adlı şeirinin hər bəndi bir obrazın dilindən verilmişdir:

Köhnə alverçi idim gərçi qabaq,
İndi də məxfi görürdüm işimi.
Salmış idim əlimə altı otaq,
"Yeni yol" qəzetəsi eşdi vişimi.
Məni də qovladılar, qovladılar.

İl yarımdı komitə sədri idim,
Çox da incitməz idim hər gələni.
Üzvlük haqqını bir dəfə yedim,
"Vışka" qurdu mənə zorba tələni.
Məni də qovladılar, qovladılar.

Bu şeirdə şöhrət üçün firqəyə girən, sonralar üç töhmət alıb qovulan, qoltuğunda daim portfel, kənd içində ağalıq edən, sonra qovulan sədr, nahaq tənqid üstündə qovulan rüşvətxor müxbir, bütün günü sərxoş olduğu üçün qovulan işçi, hətta məktəb içrə yolunu azan, məktəbli qıza məktub yazan tip belə şairin tənqid hədəfinə çevrilmişdir.

Anatollunun "Zəhər qatdı aşıma"adlı şeirində isə "Kirpi"nın müxtəlif tiplərin aşına zəhər qatdığının şahidi oluruq:

Müdir idim bir zaman, yaxşı gün keçirirdim,
Tamahkarlıq ucundan vəzifəmi itirdim.
Başqa iş axtarırdım, hər idarəyə girdim,
Bir də gördüm lapbadan kirpi çıxdı qarşıma.

Burada əvvəllər çoxlu "firildaq işlədən işçi" iş axtarmaq üçün idarələrə ayaq basdığı zaman, idarə sədri "tənqidi xirtdəkləyib boğduğu zaman", tanış müfəttişə güvənən satıcı alıcını aldadan zaman, anbardar kolxozun malını gecə ikən oğurlamaq istəyən zaman "Kirpi"ni başı üstündə hazır görür.

Əhməd Anatollu "Qəzet yazanlar deyir" adlı satirasında yazır:

Yazmayanda yollarından azırlar,
Bir-birinə dərin quyu qazırlar.
Gündə elə qəzetlərdə yazırlar:
Bir para qulluqçu pis işlər görür.
Mən demirəm, qəzet yazanlar deyir.

Kəndlilərin işi gör nə haldadır,
Vaqonlarda başları min qaldadır.
Alverin ən yaxşısı vağzaldadır,
Hambalı, kasserləri rüşvət verir.
Mən demirəm, qəzet yazanlar deyir.

Haq sözdən bəzi adamların incidiyini qeyd edən müəllif "Yaxşı fikir versə görər haq sözü" deyə insanları həqiqəti görməyə çağırır. Otuz manat məvacib alanın gündə bir kostyum geyməsinə, rüşvətxor qulluqçuların hələ də işdən kənarlaşdırılmamasına, köhnə fikirli adamların davranışına öz tənqidi münasibətini bildirir, lakin hər dəfə bunu qə-

zetlərin boynuna qoyur.

Anatollunun dövlət idarələrini tənqid edən satiraları daha çox diqqəti çəkir. Ən maraqlı şeirlərdən biri “Hərəsindən bir az”dır. Burada Bakı elektrik şəbəkəsinin, Bakqazın, ATS-in, Bakı şollar suyunun, Bakpromtorqun, ət kombinatının, çəkmə fabrikinin işi “tərif edilir”. Müəllif yazır:

Bilmirəm ki, niyə illər uzunu
BakESin söhbəti hər yanda olur.
Halbuki, daima evimizdə bizim
Şamımız hər gecə şamdanda olur.
Buna mən bir tikə nöqsan demərəm,
Demiş olsam əgər, böhtan demərəm.

Müəllif şeirin növbəti bəndlərində yaz günlərində qazın fantan etdiyini, qışda az-maz gəldiyini, telefonların ayın on beş gününü lal-dinməz olduğunu, qışda sel tək axan şollar suyunun yayda damcıladığını, qış mallarının yazda satıldığını, qəssabların qoyun ətinə cöngə əti qatdığını, çəkmələrin bir tayı kiçik, digərinin böyük olduğunu qeyd edir, hər bəndin sonunda təzad yaradaraq, obrazlı şəkildə “bu nöqsan deyil, nöqsan deyilsə əgər, böhtan deyil” deyə tənqidi fikrini bildirir. Diqqətlə baxanda, 80-90 il əvvəl yazılmış şeirdəki nöqsanlar elə bu gündə olduğu kimi durur...

Anatollunun rüşvətlə yaxşı qiymət alanları, rüşvətxor müəllimləri tənqid edən satiraları da diqqəti çəkir ki, bunlar da bu günkü gün üçün aktual olan bir problemə işıq salır. ”İmtahandan-imtahana” şeirində:

Kirpi lələ, yuxunda da heç gətirməzsən gümana,
Bilsən əgər nələr olur imtahandan-imtahana”.

Hər kəsin öz əmoğlusu, yerlisi var, hörməti var,
Üç kərə üç neçə edər, bilməyənin qiyməti var.
Özgəsinin həqiqətən "beş" almağa cürəti var,
Təəssüf ki, bir kənarda durub baxır yana-yana.
Baxın görün nələr olur imtahandan-imtahana.

Müəllif yazır ki, məktəbdə hər şöbənin öz əlaltısı, dəllalı var. Zəng edənin sözü sorğusuz qəbul edilir. Sonda müəllifin maraqlı bir sualı var:"Deyir, düşüncəsiz adam qanmır əgər rüşvət alır, Bəs bu qanan düşüncəli niyə alır qana-qana?".

"İmtahanqabağı" adlı şeirdə isə daha maraqlı mənzərənin şahidi oluruq. Müəllif göstərir ki, may ayından başlayaraq bina fermaya dönür. "İmtahanqabağı buzov, dana, inək, toyuq, cücə, qaz, ördək bir yana, hər blokda qoyunquzu mələyir". Şeir belə yekunlaşır:

Dəftərə "beş" yazmaq üçün kağız-qələm inciməyir,
Haqqını ver, diplomu al, qapaz da vur, söz deməyir.
İş budur ki, aldığını şəxsən özü tək yeməyir,
Müdir ilə dostcasına bölər imtahanqabağı.

Əhməd Anatollu ömür boyu vicdanlı, təmiz insan kimi yaşamış, bütün həyatını səhnəyə həsr etmiş, yaramazları tənqid etmiş, insanları düz yola çağırmışdır. O, adətən tipləri öz dili ilə tənqid etmişdir ki, bu mənada böyük Mirzə Əliəkbər Sabirin yoluyla getmişdir. O, "Mən deyən oldu" adlı satirasında "Ustadım Sabir demişkən, mən deyən oldu-olmadı" rədif misrasında da öz istiqamətini bildirir.

Kitabın sonunda müəllifin lirik şeirləri, o cümlədən qəzəlləri verilmişdir. Bunlar sayca az olsa da, oxucuları müəllifin mənəvi aləminin bir qədər fərqli çalarları ilə tanış edir.

Əhməd Anatolunun rəngarəng yaradıcılığını bu kiçik yazıda əhatə etmək qeyri-mümkündür. Biz bu kitabda sadəcə onun şeir yaradıcılığından bəhs etdik. Öz dövründə məşhur məzhəkə ustası kimi tanınan, Musiqili Komediya teatrının yaranmasında əvəzsiz xidmətləri olan, estradamızın binasını qoyan, xidmətlərinə görə fəxri fərmanlar, orden-medallarla təltif olunan, Azərbaycan əməkdar artisti adına layiq görülən, “Arşın mal alan”da Vəli, “O olmasın, bu olsun”da Hambal kimi yaddaqalan rollar yaradan Anatollu bir çox səhnəçiklərin, bir pərdəli pyesin və memuar yazıların müəllifidir. Səhnə əsərlərində də dövrünün neqativ hallarını, yaramaz ünsürlərini tənqid atəşinə tutan, yumoristik yazıları ilə insanlara sağlam gülüş bəxş edən müəllifin digər yazıları ilə oxucular növbəti kitabda tanış olacaqlar.

***Sona XƏYAL***
*AMEA-nın Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun böyük elmi işçisi,*
*Azərbaycan Yazıçılar Birliyinin*
*“İrs” komissiyasının sədri*



بتون دنیا ایشچیلری برله‌شیگز!

یازانی: آناطوللی احمد.

# قوپله‌تله‌ر.

ИНВ. № 15433
15437

عالی سیاسی - معارف اداره‌سی نشریاتی.

باکو - ۱۹۲۵

# *KUPLETLƏR*

## KÖHNƏLƏR ORDA-BURDA PIÇILDAŞIRLAR

*(“Adə, mənim gülümsən”) havasında*

Zənn eləmə çıxarsan bir yanə pıç-pıçından.
Başə kələk açarsan əfsanə pıç-pıçından.

Dünyanı tutsa yeksər kağız, qələm, mürəkkəb,
Aləm dəyişsə, gərçi məscidlər olsa məktəb.
Qanmazlığında qal sən, bir zərrə qanma mətləb,
Düşməz işin öləncə asanə, pıç-pıçından.
Başə kələk açarsan əfsanə pıç-pıçından.

Adət olub həmişə səndə zəbandərazlıq*,
Fikrində ali mənsəb, qəlbində dəstəbazlıq.
Bir dəm utan, həya et, bəsdir bu boşboğazlıq,
Bir şey çıxarmı, söylə, meydanə, pıç-pıçından?
Başə kələk açarsan əfsanə pıç-pıçından.

Keçmişdə aşikarə hər nə bilirdin, etdin,
Əzdirdin əhli-fəqri, dürlü mərəmə yetdin.
Bir cüzv mənfəətçün min fitnələr törətdin,
Batmışdı məmləkətimiz al qanə, pıç-pıçından.
Başə kələk açarsan əfsanə pıç-pıçından.

---

* diliuzunluq

## NAXÇIVANDA ŞURA SÜPÜRGƏSİ

*(Bir böylə brilyant üzük olmaz" havasında)*

Bilməm haradan sıçradı meydanə süpürgə. (2 dəfə)
Xalqın evini eylədi viranə süpürgə,
belə viranə süpürgə.

Bəzi ağanın qarnı motal kimi köpürdü,
Gəldikdə süpürgə, zibilə qatdı, süpürdü.
Duydu ağanın fikrini, yalına tüpürdü,
Göstərdi məqamın bəy ilə xanə süpürgə,
balam, xanə süpürgə.

Kənd əhlinin əhvalı müsibətlə keçirdi,
Zəhmətkeşin ancaq günü möhnətlə keçirdi.
Bəzi ağanın günləri işrətlə keçirdi,
Döndərdi bütün qəlblərin qanə, süpürgə,
balam, qanə, süpürgə.

Bəzi ağalar qaldı keçən günlərə həsrət,
Ol vəqt çəkirdi içəri kəndlini xəlvət.
Burnun-qulağın sıyrıb alardı para, rüşvət,
Səd heyf, zərər vurdu cibişdanə süpürgə,
cibişdanə süpürgə.

Gördükdə süpürgə belə nöqsanları yeksər,
Tökdü nə ki var, bir yeşiyə onları yeksər.
Sildi küçədən köhnə qudurğanları yeksər,
Düzdü Çekada həpsini yan-yanə süpürgə,
yan-yanə süpürgə.

# SALDOM VADA[1]

*(Malini malmalat havasında)*

Bir sürü həmşəri çocuqlar qışqırırlar ortada,
Ay sərin iskəncəbi, ay şərbət, ay saldom vada.

Sübh açılmazdan qabaq fəryad edər zelen [2] satan,
Yatmağa qoymazlar xəlqi gündə on min şarlatan.
Böylə bədheybət səsə qalxar yerindən hər yatan,
Bir tərəfdən də irislə işkalad düşmüş moda.
Ay sərin iskəncəbi, ay şərbət, ay saldom vada.

Hər evə gündə otuz karzinkaçı dolmaqdadır,
Şor satan, vedrə, paçinka, kü-kələk salmaqdadır.
Hər biri bir nəğmə ilən[3] zurnasın çalmaqdadır,
Baksayuz da süd satarkən şeypurun salmış xoda.
Ay sərin iskəncəbi, ay şərbət, ay saldom vada.

Gər cəmaət eyləsə bir böylə işdən nifrəti,
Postdakı növbətçiyə heç etməsinlər töhməti.
Çünki nə döyməkliyə, nə vurmağa var qüdrəti,
Ol səbəbdən böylə xırda-mırda iş düşməz yada.
Ay sərin iskəncəbi, ay şərbət, ay saldom vada.

---

[1] voda so ldom-buzla su
[2] zelen-göyərti
[3] ilən-ilə

## SİNƏZƏN

Öylə şəst ilən yarıbdır çayçı Səftər başını,
Balqabaq tək yarıdan bölmüşdü xəncər başını.

Vəqf edibdir Həzrətin uğrunda hər bir zadını,
Qalıdırıbdır göylərə doqquz gecə fəryadını.
Ruzi-aşura gələn tək yad edib əcdadını,
Əzrəq[1] ilə yardı bir gündə bərabər başını.
Balqabaq tək yarıdan bölmüşdü xəncər başını.

Aşikarə almadı, əfsus, xəncər dəstinə,
Baxmadı damdam Marusya, heyf, zərbi-şəstinə.
Tövlədə yardı başın, durdu özü öz qəsdinə,
Səpdi bir çəngə peyin, etdi müəttər başını.
Balqabaq tək yarıdan bölmüşdü xəncər başını.

Hər nə dərman eyləyiblər, kəsməyibdir qanını,
Həp satıb xərc eyləyib köhnə mitil yorğanını.
Türkəçarə eyləməkçün kəsdiribdir yanını,
Mərhəm ilə tez sağaldar, usta Qənbər başını.
Balqabaq tək yarıdan bölmüşdü xəncər başını.

[1] Əzrəq-Yezidin qoşununda sərkərdə

# PARILDAR

*("Arvad yatıbdır" havasında)*

Al bayraq əldə balü pər açmış,
Kəndi ziyasın dünyayə saçmış
Beş guşə ulduz, ay aman,
par-par parıldar. (2)

Yüksəldi birlik, çıxdı bəbəklər,
Görcək bu halı qıllı köpəklər
Gendən baxıb da, ay aman,
mır-mır mırıldar. (2)

Olmuşdu molla bu xəlqə rəhbər,
Başda əmmamə xortdanə bənzər.
Hər kəs görəndə, ay aman,
hır-hır hırıldar. (2)

Mövhum edibdir bəzini bihuş,
Köhnə avamlar bə eyni bayquş.
Evdə, dükanda, ay amam,
qır-qır qırıldar. (2)



## GÜLMƏK OLMAZ
*("Kislovodski" havasında)*

Fəxr eyləmə pullusan, yoxsula gülmək olmaz,
Yolundan azma, burjuy, işləri bilmək olmaz.

Bolşeviklər gəlməmiş vardı bir anbar pulun,
Sonra bilməm nədənsə qarnına keçdi çulun.
"Nep" düşəni günbəgün şişər yenə dunbulun,
Namuslu bir kimsədə bu boyda cəmdək olmaz.
Yolundan azma, burjuy, işləri bilmək olmaz.

İnsan odur keçmişin çıxartmasın yadından,
Əzəl nə idi, nəçi idi, əsli etsin bəyan.
Goruna qorxan tula bağlayım, dövlət yığan,
Zülm əlilə yığılmış pulları yemək olmaz.
Yolundan azma, burjuy, işləri bilmək olmaz.



# KAMUNXOZ

Yuxarı məhəllələr bənzəyir qəbristana,
Pişik ölüsü görərsən, nəzər salsan hər yana.
Çocuqların məskəni küçə, dükan, çayxana,
Nə klub var, nə məktəb, bu dərdi çəkmək olmaz.
Elmsiz qalanlara heç insan demək olmaz.

Min kərə yaz, kamunxoz bir kərə islanmayır,
Özün qoyub karlığa, eşitməyir, qanmayır.
Bəzi məhəllələrdə daim işıq yanmayır,
Öylə qaranlıqda heç kimsəyi görmək olmaz.
Buna çarə etməli, bu boyda hənək olmaz.



## KƏRBƏLAYİ ÖZ ÖVRƏTİNİ TƏRİFLƏYİR

Qurban olum ol zülfi-pərişanə, Tükəzban.
Taxta daraq ilə ona vur şanə, Tükəzban.

Gey darbalağı, axşamadək süz qabağımda,
Qoyma gəlim hicrində mən əfğanə, Tükəzban.

Bozbaşı bişir, qoy yerə, üstündən atıl, keç,
Yox eybi, zibil düşsə də qazanə, Tükəzban.

Hərdən oturub sallağı sən ev süpürəndə,
Gəlməz həvəsim huriyi-qılmanə, Tükəzban.

Qabları yuyanda sənə dəsmal nə lazım,
Sil əllərinin çirkini yorğanə, Tükəzban.

Zülfündən əgər bir teli düşsə qazan içrə,
Yox eybi, əgər rast gələ mehmanə, Tükəzban.

Azadə gəzib də günəşin görmə ziyasın,
Cəhd eylə, səni görməyə biganə, Tükəzban.



## AYIQ OLUN

*("Biz buna ümidvarız" havasında)*

Kəndli cavanlarımız, olmalısız baxəbər,
İş başına keçməyə bir də daha köhnələr.

Çalışmaqla hər nəfər dərdinə eylər dəva,
Köhnələrin başında qalıbdır köhnə həva.
İş başında otursa əgər köhnə kəndxuda,
Kəndliyə əvvəlki tək bildiyini eyləyər.
Kəndli cavanlarımız, olmalısız baxəbər.

Bir para qurdlar ki var, girib qoyun cildinə,
Bir parası qorxudan qaçıb giribdir hinə.
Bir parası əlləşir qulluğa girsin yenə,
Köhnə pristavları qoymayınız həndəvər.
Kəndli cavanlarımız, olmalısız baxəbər.

Kənd içinə girməyə qoymayınız darğanı,
Qoy küçələrdə qalıb çıxa acından canı.
Üstünə tapmır sala köhnə mitil yorğanı,
Böylə adamlar sizə hənuz zərərdir, zərər.
Kəndli cavanlarımız, olmalısız baxəbər.

Kəndli çəkərdi zillət kənd içində qabaqlar,
Ciblərini kəsirdi bəzi tülküqulaqlar.
Şallaq ilə döyərdi kəndliləri kazaklar,
Gərəkdir ki, qalmaya olardan indi əsər.
Kəndli cavanlarımız, olmalısız baxəbər.

Kəndlilərin üzünə bağlı qalırdı yollar,
İncidirdi kəndlini həmişə yasavullar.
Gərəkdir aranızdan büsbütün çıxa onlar,
Böylə adamlar gərək kəndliyə olsun nökər.
Kəndli cavanlarımız, olmalısız baxəbər.



## TOVARİŞ

*(“Aman, Terlo” havasında)*

Baqqal deyir:
Baha satıb, ucuz alandım,
Kasıbların dərisini soyandım.
Fürsət düşdü kasıbın əlinə,
Apardılar malımı, talandım.
Götür məni qulluğa, tovariş,
Düşmüşəm yoxsulluğa, tovariş.

Çayçı deyir:
Papu çayın çaynikə atardım,
Puçalını qurudub satardım.
Axşamadək qumar oynadardım,
Beş-on manat şətəlin yığardım.
Götür məni qulluğa, tovariş,
Düşmüşəm yoxsulluğa, tovariş.

Əttar deyir:
Urus, cuhud, moltanı, erməni,
Mən əttaram, tanıyırlar məni.
Kimin gözü ağrasaydı, o dəm
Ona mən verərdim işlətməni.
Götür məni qulluğa, tovariş,
Düşmüşəm yoxsulluğa, tovariş.

Qəssab deyir:
Pulluya verməröm ətin pisin,
Kasıblara sataram köhnəsin.
Kasıb mənə söz deyən zamanda,

Vuran kimi tez kəsərdi səsin.
Götür məni qulluğa, tovariş,
Düşmüşəm yoxsulluğa, tovariş.

Əllaf deyir:
Mən əllafam, qara topasaqqal,
Arpa, buğda anbarım mala-mal.
Qış günündə kəndli gəlsə idi,
Ölsə idi, verməzdim bir misqal.
Götür məni qulluğa, tovariş,
Düşmüşəm yoxsulluğa, tovariş.

Bəzzaz deyir:
Mən hacıyam, sataram malı,
Gəlir kəndli cırıq çuxalı.
Mahud əvəzində satardım
On ildən qalmış çürük şalı.
Götür məni qulluğa, tovariş,
Düşmüşəm yoxsulluğa, tovariş.

Dəllək deyir:
Ülgücümü bülövə[1] çəkərdim,
Adamın lap ətini tökərdim.
Kasıb gələndə onun başında
Yarı pambıq, yarı yun əkərdim.
Götür məni qulluğa, tovariş,
Düşmüşəm yoxsulluğa, tovariş.

[1] bülöv-ülgüc itələyən qayış

## LATI

*("Ötən gün mən hamballıq aparmışdım" havasında)*

Şəhrimizdə xoda düşdü tazalıq ilə latı,
Ay adam, tez yığılın, eyləyəlim muşğulatı.

Bilirəm ki, keçən ildən nə qədər sən dalasan,
Barı get, oyna ki, bildirkinə ta çövr olasan.
Xof edirsən, uduzub, sonra gedib ac qalasan,
Qəm yemə, sonra satarsan inək ilən boz atı.
Ay adam, tez yığılın, eyləyəlim muşğulatı.

Bütün aləm tanıyır şəhridə Məmmədnağını,
Uduzubdur keçən il övrətinin qolbağını.
Heç rəvadır salasan dərdə qadın xeylağını?
Qüssədən çərləyib ölsünmü yazıq Kəblə Fatı?
Ay adam, tez yığılın, eyləyəlim muşğulatı.

Məni bir qandırın axır, necə işdir bu qumar?
Qurşanıb oynamağa pullu, kasıb, xürdü kübar.
Bir parası neçə minlər uduzar, həm də udar,
Xeyr işə sərf eləməz, ölsə də, üç-dörd manatı.
Ay adam, tez yığılın, eyləyəlim muşğulatı.

Keçən il bir neçə baqqal dükanın təxtələdi,
Gətirib pulların həpsin latıya vəqf elədi.
Satdı qəssab danasın, camışını bəxtələdi,
İndi tapmır yeməyə kəllə suyu, iç-çalatı.
Ay adam, tez yığılın, eyləyəlim muşğulatı.

## GƏLİR VƏ ÇIXAR

*("Mən bir qızam" havasında)*

Oxuyur:

Zənn elərəm bir kimsə inciməz mənim sözümdən,
Düşünməyənlər sözümü, gəlib sorsun özümdən.

Danışıq:

Bir nəfər barışniya[1] 24 manat məvacib alır. Hər ayda məvacibindən çıxılır: çiləm pulu, dəftərçə pulu, nişan pulu, teatro bileti pulu, yetim uşaqlar nəfinə, klub üzvlüyü üçün, moprek nəfinə, ayrodrom nəfinə. Bunları çıxandan sonra qalır altı manatı. Nəticədə isə əyninə geyinir: lakirovannı tufli, filtikoz corab, modnı şlyapa, şivyot kostyum, xəz palto, loriqan duxi, zaqraniçni pudra, dodaq rəngi.

Oxuyur:

Bu sirri kimsə düşünməz onun özündən səva,
Altı manat donluq ilə dolanmaz heç binəva.

Danışıq:

Dükançılar malı xalqa birə-üç qiymətə satıb, xalqın dərisin boğazından çıxardırlar. Ondan sonra kamunxoz da onların kürəyindən çıxır. Məsələn: nalok pulu, qarovulçu pulu, patent pulu, zibili bayıra tökmək pulu, palanı süpürməmək pulu, zibil yeşiyi pulu, bayraq pulu, papirosun kötüyünü bayıra atmaq pulu, pendirin köhnəsini satmaq

---

[1] barışnya-gənc qız

pulu, cümələr gizlincə alış-veriş etmək pulu, nəticədə isə: dükanını bağlayıb düşüb idarələrə qulluq axtarır.

Oxuyur:

Çıxıb əldən varı-yoxu, ayrı düşüb elindən,
Elmi yoxdur biçarənin, bir iş gəlməz əlindən.



تورك صحنه‌سنڭ آقتيورى احمد آناطولى‌نڭ حال حاضره
دائر يازديغى قوپلتلرى «آ ى حقيقت»



ИНВ. № 15434

# ACI HƏQİQƏT

## KİSLOVODSKİ

Bu il tərəqqi etdin sən, ay Kislovodski,
Parij şəhrini ötdün, can, ay Kislovodski.

Gələndə yay zamanı basır səni müştəri,
Gəlir səni görməyə ildə beş-on min pəri.
Burdan gedən xanımlar bir sümükdür, bir dəri,
Arıqları kökəltdin sən, ay Kislovodski.
Parij şəhrini ötdün, can, ay Kislovodski.

Gərçi camaat köçüb getdi, bir az boşaldın,
O ki almalı idin, bütün xəlqdən aldın.
Bir neçəsin çörəkvay eyləyib yola saldın,
Bığları ki, diklətdin sən, ay Kislovodski.
Parij şəhrini ötdün, can, ay Kislovodski.

Anlaşılır sözündən bir para deyənlərin,
Məskəni Mərdəkandır səndən inciyənlərin.
Buzovna bağlarında səni istəyənlərin
Ömürlərin tükətdin sən, ay Kislovodski.
Parij şəhrini ötdün, can, ay Kislovodski.

Altı ay naxoşlasa əgər kasıb binəva,
Kimsə gəlib soruşmaz, dərdinə bulmaz dəva.
Altı put gələnlərin bir az da arıq, daha
Qarınların yekəltdin sən, ay Kislovodski.
Parij şəhrini ötdün, can, ay Kislovodski.

## ŞORBA

Kazarmada idim, verildi azan,
Aldıq əlimizə hərə bir qazan.
Şorbanı alıb qayıdan zaman
Bir ölü siçan çıxdı şorbadan.

Böylə görəndə oldum halbahal,
Saldım ol zaman yenə qalmaqal.
Eşitcək bunu bir nəfər hambal,
Dalında palan çıxdı şorbadan.

Baş çavuşmuza çatmamış xəbər,
Bir-iki qaşıq yedim, müxtəsər.
İki kapitan, beş-altı afitsər,
Hamı lül piyan çıxdı şorbadan.

Başladım yenə gəzməyə qabı,
Bu işə insan gətirməz tabı.
Bu urus qızı örtüb çarşabı,
Misli-Tükəzban çıxdı şorbadan.

Bağlayıbdılar qol-qola bizi,
Dərdə eyləyib mübtəla bizi.
Dəvət etməyə haq yola bizi
İki rövzəxan çıxdı şorbadan.

Mollalar görən baxırmı ola,
Kəsməyə kəbin qızlara, dula.
Eşitcək ki, qız satılır pula,
Yeddi türkman çıxdı şorbadan.

## BAKSAYUZ

Bilmirəm heç hayandan oldu əyan baksayuz,
Baqqala, bəzzazlara vurdu ziyan baksayuz.

Baksayuz ki, hər yerə kəndi ziyasın saçır,
Həman yerdə xəlq üçün bir-iki dükan açır.
Dükançı dul burazın yığışdırıb tez qaçır,
Verməyir alverçiyə zərrə aman baksayuz.
Bilmirəm heç hayandan oldu əyan baksayuz.

Nə kül tökə başına bu yerdə baqqal Məmiş?
Alan yoxdur, qalıbdır dükanında yer-yemiş.
Ləbləbisin qurd yeyir, pendiri də iyləmiş,
Tans eləyir dükanda bollu siçan, baksayuz.
Bilmirəm heç hayandan oldu əyan baksayuz.

Altı ay qurtarmamış, dalbadal gəlir naloq[1],
Məşdi qaçıb gizlənib, vurub dükana zamoq[2].
Kamunxozun yanında dükan qalıbdır zaloq[3],
Qəsb edəcək dükanı görək haçan baksayuz.
Bilmirəm heç hayandan oldu əyan baksayuz.

Azaltsaydı baksayuz qiymətini malların,
Görməz idik üzlərin bu yekəsaqqalların.
Bir neçə aydan sonra bazarda baqqalların
Dallarında görərsən zorba palan, baksayuz.
Bilmirəm heç hayandan oldu əyan baksayuz.

---

[1] naloq-vergi
[2] zamok-kilid
[3] zaloq-girov

## SİNƏZƏN

Noldu bilməm çürüyub viranə döndü bu cahan,
Bolşeviklər oldular dünya üzündə hökmran.
Qalmadı şah, gəda və molladan, xandan nişan,
Eylərik bu sözləri sübhü məsa virdi-zəban:
Dad əlindən balşuvay, fəryad əlindən, əl-aman.

Başımızda yox bizim sevdayi-elmi-mərifət,
Bilmərik məktəb nədir, ya kim nədir jurnal, qəzet.
Gəlmişik dünyayə biz kəsb eyləməkçün axirət,
Ağlarıq, qan ağlarıq, din saxlarıq pirü cavan.
Dad əlindən balşuvay, fəryad əlindən, əl-aman.

Biz müsəlmanıq, bizə lazım deyil ayropalan,
Seyr edər möminlərin ruhi səmada hər zaman.
Kəsbdir əmalımız, amalımız dalda palan,
Dad edin, fəryad edin vəhşisifət sinəzənan.
Dad əlindən balşuvay, fəryad əlindən, əl-aman.

Ağlayın, qan ağlayın, dünya üzün tutmuş bəla,
Bağlanıb məscid, olub xanənişin molla baba.
Küçələrdə ac qalıb, üryan gəzir dərviş Rza,
Xəlq hamı bidin olub, yox falçı, rəmmalə baxan.
Dad əlindən balşuvay, fəryad əlindən, əl-aman.

Bu rəvadır, kuçələrdə baş açıq gəzsin qadın?
Dini-islamın cahan mülkündə batırsın adın.
Ya ki, qoysun məktəbə hər bir müsəlman arvadın,
İmdi də əmr eyləyiblər olmasın xəncər vuran,
Dad əlindən balşuvay, fəryad əlindən, əl-aman.

Heyf ol gündən kim, yeyərdik hər gecə ehsan aşın,
Rövzəxan vəz eyləyərdi, biz tökərdik göz yaşın.
Böylə getsə müftəxor molla necə saxlar başın?
İmdi nə ehsan edən var, nə bizi yadə salan,
Dad əlindən balşuvay, fəryad əlindən, əl-aman.



# MƏƏTTƏL OLMA

Biz dedik ki, halımız hər cəhətdən düzəlsin,
İş bu məqamə çatdı, məəttəl olma, de gəlsin.

Şəhərmizin mərkəzi həmişə abadanlıq,
Müsəlman məhəlləsi eyni qəbristanlıq.
Odur ki, orda daim keçir əmin-amanlıq,
Zülmətə gəl komunxoz, bəlkə gözün bərəlsin.
İş bu məqamə çatdı, məəttəl olma, de gəlsin.

Bir dedilər tranvay dırmaşacaq baş yuxarı,
Dedik şükrlər olsun, dincələrik bir barı.
Çəkdilər dəmir yolun, bilmədik heç hancarı[1],
Piyada dırmaş dağı, kasıb, gözün çərəlsin.
İş bu məqamə çatdı, məəttəl olma, de gəlsin.

Saat ki, səkkiz oldu, gir evinə, yat kasıb.
İşin olsa bayırda, çıx palçığa bat, kasıb.
Palan köhnə palandır, qalmaginən mat, kasıb,
Əmr olunub palanlar gərək bütün genəlsin.
İş bu məqamə çatdı, məəttəl olma, de gəlsin.

Kəndli gətirsə kənddən bir araba kartof-soğan,
Beşcə girvənkə neftə yetişmir pulu, inan.
Böylə getsə neft işi, qızmayacaqdır qazan,
Nəymə gərəkdi, kəndli ölür soyuqdan, ölsün.
İş bu məqamə çatdı, məəttəl olma, de gəlsin.

---

[1] hancarı-necə

Sabunçu vaqonunda hər gecə konsertə gəl,
Tar, kamança, ney, qaval çalıb oxur kor-keçəl.
Semiçka, papiros satan, gəzir bir sürü dəcəl,
Min vaqona get, gələn yolda maşın keçilsin.
İş bu məqamə çatdı, məəttəl olma, de gəlsin.



# İRANDA MÖCÜZ

Xoş gəlmisən, Fındıq Əli, İrandan,
Otur söhbət eylə o yan-bu yandan.

Söylə, hayanlıqda idin bir ildə?
Həsrətini mən çəkirdim könüldə.
Möcüz ölüb deyirlər Ərdəbildə,
Eşitmişəm ötən gün rövzəxandan.
Əl an, o da tazə gəlib İrandan.

Düz deyirsən, Kəblə Məhəmməd Tağı,
Bərk atıbdır uzunqulaq şıllağı.
Binəvanın çıxıbdır baş barmağı,
Rehlət apardı[1] bir yolluq cahandan.
Əlin üzdü aftavadan, palandan.

Burda xəbər böylə çatıbdır bizə,
Hərçənd biz inanmarıq hər sözə.
Bir arvad da şəkk götürüb Möcüzə,
Başı üstə enibdü nərdivandan.
Təbiidir, bu söz olmaz yalandan.

Usta Məmiş oğlu Məşhəd Niftəli,
Sevindikdən qızardıbdır saqqəli.
Çayçı İman oğlu keçəl Səbzəli
Xəlçə-palas asmış idi palandan.
Guya kiçik xan gələcək İrandan.

---

[1] rehlət apardı-rəhmətə getdi

# DEDİNKA

Radi boqa[1], dedinka – budte dobrıy[2] dedinka

Kim deyər ki, müsəlman, əlində yekə qarman,
Palanlarda hər gecə gəzişirlər lül piyan.
Qəbahətin gərəkdir düşünsün özü insan,
Bu qələti etməyib hərgiz Simon Petinka.
Radi boqa, dedinka.

Nə vəqtdən gözləyirdik, gəldi başa tranvay,
Qeyrilərin içində olmarıq daha rüsvay.
Köhnələnmiş konkələri – eylədik vıdırıqnay[3],
Göndərdik pullularçün – olunmağa paçinka[4].
Radi boqa, dedinka.

Günlərini bu dəmdə xoş keçirir lotu-potu,
Sənaye neftçisi tapmayır çəkə burun otu.
Neftkomda storoj[5] – toplan alır şivyotu,
Aktyorla müəllim tapmayır köhnə batinka,
Radi boqa, dedinka.



---

[1] radi-boqa-Allah xatirinə
[2] budte dobrıy-lütfən
[3] vıdırıqnoy-çıxarıb atılmış
[4] paçinka-təmir
[5] storoj-qarovulçu

# KÜL BAŞIMIZA

Kül başımıza, olduq əcəb yerdə biqeyrət,
Çıxdı əlimizdən belə rüşvətxor hökumət.

Kim gördü rəva zənmi[1] hökumətmizə qarşı,
Bizlərdə olan cürbəcür adətmizə qarşı.
Kim söylədi min dürlü xəyanətmizə qarşı,
Çıxdı əlimizdən o gözəl eyşlə işrət.
Kül başımıza, olduq əcəb yerdə biqeyrət.

Xudmani biz açmışdıq hərə bir-iki dükkan,
Olmuşdu şirin molla, seyid, bəy, ağa və xan.
Ətrafımızı almış idi həm qoçulardan,
Olmazdı bizə söz deməyə kimsədə cürət,
Kül başımıza, olduq əcəb yerdə biqeyrət.

Millət qoyun idi, bəli, biz onda çobandıq,
Hərçənd lotu idik, adımız bəy idi, xandıq.
Kənd əhlinin hər zülm ilə dərisini soyandıq,
Saldı bizi pis günlərə bu rəsm, bu adət.
Kül başımıza, olduq əcəb yerdə biqeyrət.

Qırsaydı əgər hər iki kəndli biri-birsin,
Çıxmazdı, fəqət, əldə idi məzhəblən din.
Bilməm nə səbəb oldu bizi sandılar xain,
Üz döndərərək etdilər bizdən hamı nifrət.
Kül başımıza, olduq əcəb yerdə biqeyrət.

---

[1] zənmi-məzəmməti

# BİZƏ NƏ VAR

İran şahını təxtdən saldılar – bizə nə var,
Əlindən hər ixtiyarın aldılar – bizə nə var.
Ənginə üç-dörd şapalaq çaldılar – bizə nə var,
Bütün İran xəlqi yetim qaldılar – bizə nə var.
Bizə nə var, ay sözə nə var, ay bizə nə var.

Çıxsa əlimdən əgər İran mənim – mənə nə var,
Olmayacaq zərrəcə dərdü qəmin – mənə nə var.
Fransa şəhri olacaq məskənim – mənə nə var,
Var orada bir neçə simintənim – mənə nə var.
Mənə nə var, ay sənə nə var, ay mənə nə var.

Qovdu İrandan məni öz millətim – sənə nə var,
Çoxdan hələ getmək idi niyyətim – sənə nəvar.
Gər vətəndə qaldı evim, külfətim – sənə nə var,
Atam kimi olmadı heç qeyrətim – sənə nə var.
Sənə nə var, ay ona nə var, ay sənə nə var.

Meygirəm, təxtdən zorən qovuldum – sizə nə var,
Öz yerimdə əyləşəcəkdir oğlum – sizə nə var.
Aybaay gələcək məxaric pulum – sizə nə var,
Matışkabazlıqdır həmişə şuğlum – sizə nə var.
Sizə nə var, ay bizə nə var, ay sizə nə var.

Xərcləyib pulları əgər lütləşər – ona nə var,
Gedib xəlqini tapıb cütləşər – ona nə var.
Onilə həmdərd olub söhbətləşər, ona nə var,
Gündə çıxardıb köynəyin, bitləşər – ona nə var.
Ona nə var, ay mənə nə var, ay ona nə var.

# HAMBALIN ŞİKAYƏTİ

Ötən gün mən hamballıq
      aparmışdım bir baqqala,
Qiymətin danışmadım,
      inandım yekəsaqqala.

Vermədi hamballığım,
      belə məni də yamanladı,
Elə çaldı silləni,
      çıxmışdı əngim az qala.
Dedim, hacı, bə niyə böylə?
Bir də gördüm, bir də gördüm,
      bir də gördüm qulaqladı.
Belimi şapalaqladı – dedim:
Vyh, vyh, vyh, vyh, vyh, vyh.
Məni niyə vurursan ədə?
Bir də gördüm yıxıb yerə
      belə məni ayaqladı.

## MALİNİ MALMALAT

Ay şəkər, qənd, nabat –
ay malimi malmalat.

Boynun yoğun, qarnın motal,
Çıx bulvara gəz, ləzzət al.
Sonyayı gördün, tez yan al,
Söylə ona, paydom, qulyat.
Ay malini malmalat.

Elmin gücilə qeyrilər
Açsa həvadə balü pər,
Fikr eləmə, tez dur səhər,
Get dükana, kartoşka sat.
Ay malini malmalat.

Evdə iki-üç övrətin,
Ac qalsalar, nə hacətin.
Jenya kimi var löbətin,
Göndər onunçün şokolat.
Ay malini malmalat.

Gördün müsəlman qızların,
Tərif elə qaş-gözlərin.
Mümkünsə kəsdir izlərin,
Qol vurduğun et zadivat[1].
Ay malini malmalat.

---

[1] zadivat- sataşmaq, ilişmək

Çək bulvar içrə nərəni,
Söy Maşanı, döy Mişanı.
Tutsun milissioner səni,
Get türmədə beş həftə yat.
Ay malini malmalat.



## ŞÜMRİ-DƏĞA FAYTONÇULAR

Gəldi tranvay şəhərə, vay, binəva faytonçular,
Bundan sonra əhvalınız oldu fəna, faytonçular.

Şəhrə tranvay düşəni kasad olub alış-veriş,
Yoxdur minən faytonlara, kəsilibdir gediş-gəliş.
Salladıblar faytonçular burunların, dodaqların,
Sinə vurun hər tin başı bundan sonra, faytonçular.

Quzlarda əyləşəndə siz qocalmış meymunlar kimi,
Miniklərin başlarına qonurduz quzğunlar kimi.
Faytonunuz dönüb olub yanpörti furqonlar kimi,
Məskən olub indi sizə karvansara, faytonçular.

Azdır bu cür işlər hələ sizlər kimi dinsizlərə,
Rəhm eyləməzdiz bir nəfər bikəslərə, dilsizlərə.
Min lənət ilə hər zaman vacib olubdur bizlərə,
Hər yerdə çəkmək adnızı şümri-dəğa faytonçular.

Vardır tranvay nə qədər, fayton gərək olmaz bizə,
Şəhri təmizlətmək üçün fayton gərək çöldə gəzə.
Beş-altı gün də vəqt olsun, gəzək tapaq məskən sizə,
Hövsan, Buzovna, Xırdalan, həm Maştağa, faytonçular.

Allah ömür versin görüm şəhrə tranvay salana,
Bu dinsiz faytonçuların əlindən gəlmişdik cana.
Dilcan yerinə işləyin Bibiheybətə, Naftalana,
Mədən içində üzünüz olsun qara, faytonçular.

## PLAXOYLAŞIR[1]

Bu müsəlmanın işi get-gedə plaxoylaşır,
Başa cilapkə[2] qoyur, cümlə urusca danışır.

Dədəsi daş çıxardan, nənəsi həm çörək yapan,
İki uştutdu[3] bilir, adın qoyub abrazaban[4].

Hamı Məhəmmədqulunun adları Aloşalaşıb,
Bu tükəzbanlara bax, cümləsi Marfuşalaşıb.

Kişidə qeyrətə bax, öz oğluna Yaşa deyir,
O da öz dədəsini görəndə papaşa deyir.

Deyəndə bə niyə belə?
Bir də görürsən, bir də görürsən, bir də görürsən
Qal olur,
Bir yekə iskandal[5] olur.
Elə çalırlarənginə, qan göyə fantan[6] olur.

---

[1] plaxoylaşır-pisləşir
[2] cilapkə-şlyapa
[3] uştutdu-işto-mişto-çto
[4] abrozovonski-təhsil görmüş
[5] skandal-qalmaqal
[6] fontan-fəvvarə

# MƏŞƏDİ İBADIN HAMBALI

Vermədi hamballığım, bu evi bərbad kişi,
Tuf, gələ saqqalına, Məşhədi İbad kişi.

Toy hamamında dedin gəl verim hamballığın,
Nə vəqtdir verməyirsən, bu imiş insanlığın.
Başına dəysin sənin bu cür müsəlmanlığın,
Bu sir-sifətlən alırsan arvad, kişi.
Tuf, gələ saqqalına, Məşhədi İbad kişi.

Məşhədinin eybi yox kiprigində, qaşında,
Saqqalında hənası, xət başısı başında.
Özünə övrət alır on-on iki yaşında,
İstəyir Rüstəm bəyə olmağa damad, kişi.
Tuf, gələ saqqalına, Məşhədi İbad kişi.

Qış günündə öləydin, çıxmayaydın bahara,
Gələydim ehsanına günortaya nahara.
Bir abbasımlan belə baş qoyaydın məzara,
Xirtdəyindən yapışsın şəyatin, həmzad, kişi.
Tuf, gələ saqqalına, Məşhədi İbad kişi.



# PARTFELLİLƏRƏ

Qulluq etmək hərbə bir yekə bəhanə düşüb,
Atılıb bir qoca meymun kimi meydanə düşüb.

Kök elə zurnanı, bir nəşə ilən çal, a kişi,
Məni bu məsələdən bircə başa sal, a kişi,
Nə üçündür çənədə bir tikə saqqal, a kişi,
Elə bil üz-gözünə bir necə muryanə düşüb.

Dad edib şəst ilə kuryer saçını, birçəyini,
Bəzi yerdə gözünə nəsb eləyir eynəyini,
Doldurub partfelə kirli tuman-köynəyini,
Fikri həmmamə tərəfmiş, yolu külxanə düşüb.

Məni vadar eləyir bir-iki para söhbətlər,
Söyləyim ta ki, toxunsun sizə bu töhmətlər.
Hamı millət arasında bulunub sənətlər,
Lüleyin həftova[1] icadı müsəlmanə düşüb.

Neçə yer var ki, paçinkadan ötər göstərilib,
Səkiyə basmaq üçün əlli tiyan qır ərilib.
Ocağın nefti, qırı başqa yerə göndərilib,
Tiyan altındakılar büsbütün həycanə düşüb.

Bir zaman vardı gülürdük bütün osmanlılara,
Şirə çəkməkdə tay olmaz idi salyanlılara.
Çünki tiryak acıdır, vermişik iranlılara,
Nə ki “qanqurdiya” var, Azəribaycanə düşüb.

---

[1] lüleyin həftova-lüleyli aftava

Bir danə tazə xəbər söyləyim heç salma səsə,
Ənzəli, Rəşti-filani bulub iki versə,
Nə qədər fahişələr vardı düşüb ingilisə,
Suçu, həmmal, pinəçi, rövzəxan İranə düşüb.



## EŞİTDİN, İNANMA

Sənə sözlərim toxunsa,
İncimə, nöqsan yoxunsa.
Haqqında bir söz oxunsa,
Eşitdin, inanma.

İşlərimizə baxan yoxdur,
Amma vədə verən çoxdur.
Yuxarlarda klub yoxdur,
Eşitdin, inanma.

Dəyişib indi əhvallar,
Məəttəl qalıb topasaqqallar.
Qulluq axtarır baqqallar,
Eşitdin, inanma.

Ev sahibi hər nə etsə,
Xəlqi parçalayıb didsə.
Qulluqçuları incitsə,
Eşitdin, inanma.

Çocuqlar hisə batsa da,
Acından çənə atsa da.
Tiyan altında yatsa da,
Eşitdin, inanma.

Hər kim baksayuzda olur,
Xəlvətcə gülünü vurur.
Qaloşlar əldə satılır,
Eşitdin, inanma.

Miniklər vağzalda yatır,
Kassirşa məqsudə çatır.
Bileti həmmallar satır.
Eşitdin, inanma.



## HƏRƏDƏN BİR

Kupletist hər bir kəsin,
Ayıbın açıb deyəcək.
Bəzi adamlar onun
Sözündən inciyəcək.

Bir-iki para tələbə
Elmə doğru gediyor,
Çəkməsi şiltəm-şiltəm.
Uxajorluq ediyor.

Bir para məşhədinin
Azar qalıb canında.
Tyatroya gələndə
Uşaq olur yanında.

Parapet məskən olub
Neçə annamazlara.
Gündüz birjeviklərə[1],
Gecə beçəbazlara.

Boynuyoğun, tazıbaz,
Korgöz nə işlər edir.
Özü çörək tapmayır,
İtə bozbaş yedirdir.

---

[1] birjavik-fəhlələr

Eşqdən insanların
Canlarına od düşüb.
Sirkə cövhəri içmək
Qadınlarda mod düşüb.

Səhv eləyib bir nəfər,
Tullana tranvaya,
Konduktorun dığ-dığı
Kəsilməz on dörd aya.

Kinolar dönüb olub
Domi-sividaniya.
Küncə çəkir özlərin
Məşhədilə Maniya.



# QADINLAR İŞ BAŞINDA

Keçdilər iş başına indi qadınlar, ay aman,
Yıxacaq evmizi bundan sonra bunlar, ay aman.

Öylə ki, çatdı qulaqlarına bir böylə xəbər,
Bidamaq oldu bu işdən hacılar, məşhədilər.
Basdı fövrən oların qəlblərin dərd, kədər,
Bağrıqan oldu bu işdən neçə dindar, ay aman.
Keçdilər iş başına indi qadınlar, ay aman.

Böylə bir halə necə tab edəcək qeyrətimiz,
Batdı bilmərrə bizim aləm ara ismətimiz.
Qadına söz deməyə olmayacaq cürətimiz,
Qatdılar aşımıza bollu zəhrimar, ay aman.
Keçdilər iş başına indi qadınlar, ay aman.

Kişilər övrətinə zərrəcə ağ olmayacaq,
Ərlərə lazımi qədri yaşamaq olmayacaq.
Gündə bir arvad alıb da, boşamaq olmayacaq,
Edəcəklər bizi bu işdə günahkar, ay aman.
Keçdilər iş başına indi qadınlar, ay aman.

Hər nə əmr etsə qadınlar, demək susmalıyız,
Gündə min dəfə də şor düşsə xörək, susmalıyız.
Yapılıb təndirə küt getsə çörək, susmalıyız,
Böylə getsə, ürəyim bir kərə partlar, ay aman.
Keçdilər iş başına indi qadınlar, ay aman.

Nə fərağətlə keçirdi o zaman günlərimiz,
Ax qadınlar, gözünüzdən tuta nifrinlərimiz.
Qaldı həsrət yaşı az qızlara möminlərimiz,
Nə yaşında qız alardıq, hanı onlar, ay aman.
Keçdilər iş başına indi qadınlar, ay aman.

## TAPMACA

Kəblə Xuduş bir belə söz deyirlər:
Kəndimizə bir dənə uşqol gəlib.
Yanlarında bir yekə qarə təxtə,
Əllərində bir neçə ustol gəlib.
Bu işlərin əsli nədir, tap görək.

Mən də o gün gördüm adamlar durub,
Təxtənin üstündə çəkirlər çomaq.
Öylə xəyal edirdilər adamdır,
Qoydular ol dəm başına bir papaq.
Bu işlərin əsli nədir, tap görək.

Bilmirəm, uşqoldu, nədü şoqərib,
Mollalardan heç də həya etməyür.
Bir ildi kəndimizdə məskən salıb,
Bir alahı kəndə neçün getməyür?
Bu işlərin əsli nədir, tap görək.

Heç xəbərin varmı tazə xəbərdən,
Kəndimizə gəlibdü bir kapratif[1].
Zərər edib bağlayıbdır dükanın,
Küçələrdə qalıbdı baqqal Lətif.
Bu işlərin əsli nədir, tap görək.

Durmuş idim kəndimizdə baxırdım,
Ev kimi şeylər hamı Kürdən keçir.

---

[1] kooperativ

Nə Kür aparır, nə də qərq olurlar,
Öylə bil ki, lap quru yerdən keçir.
Bu işlərin əsli nədir, tap görüm.

Girməyə Bəhmənliyə kəndimizdə
Dəmir kimi şeyi uzadıblar yerə.
Nə atı var, nə kəli, nə öküzü,
Firsət eləyib yügürür birdən-birə.
Bu işlərin əsli nədir, tap görüm.

O günləri görüb məni Daşdəmir,
Dik üzümə zorba yalan deyirdi.
Çəyirtkəni padşahın uçaq görüb,
Çaşıb adın əyripalan[1] deyirdi.
Bu işlərin əsli nədir, tap görüm.




[1] aeroplan-təyyarə

## BARAŞKACAN

Lazımdı yetmək dadına,
Şərqdə rumın, həbəşin.
Cümlə cahan yoxsulları,
Əl-ələ verib, birləşin.

Azərbaycan qadınları
Yüksəltməkdə öz adını.
Gərəkdir kim, azad ola
Əsarətdən Şərq qadını.

Bir tərəfdən sülh etməyi
Təklif edir antantalar,
Bir tərəfdən qan tökməyə
Hazırlaşırlar bandalar.

Antantalar cəhd edirlər
Məqsədlərinə çatmağa,
Axmaq adam axtarırlar
Çürük malların satmağa.

Antantanın fikri budur
Borcu çəkək boynumuza,
Üstündə qalmış malları
Hiylə ilə satsın bizə.

Antantalar bu fikr ilə
Öz işlərin korlayırlar.
Mallarını satmaq üçün
Kitayları zorlayırlar.

Unutmayız heç bir zaman,
Duran hənuz böylə qalar.
Bir də görərsiz işçilər
Arasında üsyan salar.



## BARAŞQACAN

Yeni əlifba işləri
Görünməyir nəzərlərdə,
Yadigar qalmaqçün, fəqət,
Yazılıbdır fənələrdə.

Bəzi adın Marks qoyur,
Onun yolun getdiyiçün.
Bir də görürsən tutulub,
Xuliqanlıq etdiyiçün.

Korniyakın mağazası
Gizlədir ipəyi, şalı,
İşçilərə çinlə satır
Otuz ildən qalmış malı.

Narkom "Zəmin" nəzdində var
Çalışqan zemlemerləri[1].
Kəndlilər üçün yer ölçəndə,
Dəyişik salırlar yerləri.

"Qosxlopoq"[2] zavoduna
Bir kimsə salmaz nəzəri.
İş başındakı agentlər
Şallayırlar fəhlələri.

---

[1] zemlemer-yer ölçən
[2] Qosxlopok -Dövlət pambıq zavodu

Çornıqorod koparatifi
Məni bir az salıb şəkə.
Beş girvənkə qənd alanda,
Əskik gəlir bir girvənkə.



# LATI

Gözləriniz olsun aydın,
Yenidən başlandı latı.
Gecə-gündüzlər yığışıb
Eyləyərik muşğulatı.

Hazır edin xalça-palas,
Yenə keçən illər kimi.
Var-yoxun uduz qumara,
Cibivin boş qalsın dibi.

Uduza hər kəs var-yoxun,
İki günə yoxsullaşa.
Eyb eləməz bizlər üçün
Oğru-əyrilər pullaşa.

Nəfyi çoxdur xəlqimizə,
Böylə oyuncaq yerlərin.
Bankı çıxar beş-on günə,
Lütləşmiş möhtəkirlərin.

Latını oynayanların
Əksəri qulluqçulardır.
Kəndli işçilərdən başqa
Tələbələrdən də vardır.

Hər gecələr gəlməkdədir
Bir para qızlar, övrətlər.
Zənnim budur çox çəkmədən
Baş vura köhnə adətlər.

## OLSAYDI, OLMAZDI

Böylə zamanda yoxdur
Nə şahlıq, nə gədalıq.
Gər münsif olmasaydı,
Olmazdı müddəalıq.

Olsaydı gərçi düzlük,
Olmazdı bədgümanlıq.
Gər "Azvin"[1] olmasaydı,
Olmazdı heç piyanlıq.

Bir az məvacib ilə
Yığmaq olarmı dövlət?
Rüşvətxor olmasaydı,
Olmazdı eyş-işrət.

Olsaydı sənətimiz,
Olar idi doğurluq.
İşsizlik olmasaydı,
Olmaz idi oğurluq.

Hər yerdə mollalarmız
Nəşr eləyirdi məzhəb.
Şuralar olmasaydı,
Olmazdı dərs, məktəb.

---

[1] Azvin-Azərşərab

İldə bir ay orucluq
Keçilir canfəşanlıq.
İranlı olmasaydı,
Olmazdı rövzəxanlıq.

Stansiyalarda daim
Kəndli çəkir əziyyət.
Jandarma olmasaydı,
Olmazdı sanki rüşvət.

Konduktorun əlindən
Aləm deyir: dədəm vay.
Cərimə olmasaydı,
Olmazdı heç tramvay.

Bu sözləri kim olsa,
Zənnimcə, etməz inkar.
Rəng, pudra olmasaydı,
Olmazdı heç qadınlar.

Hər gündə əlli misqal
Rənglənməsə dodaqlar,
Çadırşəb olmasaydı,
Olmazdı şək papaqlar.

## DÖVLƏTLİLƏRİN SÖHBƏTİ

Ax, bu kasıblar necə bəd zatdılar,
Axırı dövlətliyə əl atdılar.

Kasıb nəydi, tyatrda otursun,
Kasıb gərəkdir ayaq üstdə dursun.
Ayaq üstdə durub, boynunu bursun,
İndi gəlib qabaqda yer tutdular.
Ax, bu kasıblar necə bəd zatdılar.

Bundan əvvəl vardı bizə ehtiram,
Hörmətmizi saxlar idi el tamam.
Dövlətli verməzdi kasıba salam,
Bizləri görəndə ikiqatdılar.
Ax, bu kasıblar necə bəd zatdılar.

Təfavüt qoymadıq yaxşıya, pisə,
Yeri var bizə hər kəs söyüş desə.
Çünki inanmış idik ingilisə,
Olar da ki, at-qatırı satdılar.
Ax, bu kasıblar necə bəd zatdılar.

Nə kül tökə başına dövlətlilər,
Aldı ələ hökuməti kəndlilər.
Bizi xam qoyun kimi hürkütdülər,
Uzunqulaq tək bizə yük çatdılar.
Ax, bu kasıblar necə bəd zatdılar.

Burda qızılları yığdıq həmyana[1],
Baş götürüb ta ki, qaçaq bir yana.
İştə pənah apardıq Gürcüstana,
Orda da baş-gözmüzü partlatdılar.
Ax, bu kasıblar necə bəd zatdılar.

Biz dedik ki, bolşevik olmaz yenə,
Dedilər ki, gəlirlər üç-dörd günə.
Toyuq kimi qaçdıq, gizləndik hinə,
İl uzunu bizi yumurtlatdılar.
Ax, bu kasıblar necə bəd zatdılar.



[1] həmyan-pulqabı


رزا ... نه‌سنك آقتیوری احمد آناطوللی نك
یازدیغی قوپله‌تلر
«شاپالاق»
X-332
3205
باکو 1927 نجی ییل

# *“ŞAPALAQ”*

## EN QƏDƏRÜ EN QƏDƏR

Əhli-məcalisdən ola izn əgər,
Eybimizi söyləyərəm müxtəsər.
Başınızı gər eyləsəm dəngəsər,
İnciməyin, en qədərü en qədər.

Aqil olan hər sözə bir söz deməz,
Məsləhətimdən bir adam inciməz.
Zənn edirəm heç işimiz ləngiməz,
Bir-iki para işlərə salsaq nəzər,
En qədərü en qədərü en qədər.

Bəzi çəkir xəlqimizin zəhmətin,
Bir kişi verməz ona öz qiymətin.
Bəzi bu yolda əridibdir ətin,
Bəzisinin qarnı motal tək şişər,
En qədərü en qədərü en qədər.

Bitdi hər iş, indi fərağətlənək,
Gördüyümüz işlə kifayətlənək.
Gözləyirik yay gələ, rahətlənək,
Qəhvə, kako nuş eləyək hər səhər,
En qədərü en qədərü en qədər.

Qanmayıram heç bu qənaət nədir,
İl uzunu içki, ziyafət nədir.
Gündə otuz yol bu xəyanət nədir,
Artmadadır hey günü-gündən zərər,
En qədərü en qədərü en qədər.

Bəzi müsəlman qadını, doğrudan,
Heç xoşu gəlməz duxudan, pudradan.
Tutsa üzün, burnu çıxar çadradan,
Sanki bitibdir zəmidə gülbəsər
En qədərü en qədərü en qədər.

Köhnələr hərçənd geyir bir balaq,
Yol yeriyəndə dolaşır əl-ayaq.
Onda keçirdərdi hərə bir sayaq,
İndikilər metr yarımdan geyər,
En qədərü en qədərü en qədər.

Bir sürü padsana salın bir nəzər,
Birisi qumarbaz, birisi cib kəsər.
Yoldaş olub bir-birinə sərbəsər
Şurka, İvan, Məhəmmədhəsən, Bağdasər,
En qədərü en qədərü en qədər.

Zənn edirəm yoxdur sözümdə xilaf,
Eyləyəcəksiz bu sözü etiraf.
Təngə gətirmiş hamını iştiraf,
Tinbaşı zorən alınır, dinmə, ver,
En qədərü en qədərü en qədər.

# PORTFELİN TƏRİFİ

Səndə nə var ki, bilmirəm, başı bəlalı portfel,
Hər kəs alır qoltuğuna, olur həvalı, portfel.

Səhər gedəndə qulluğa arıq gedirsən, ay balam,
İstəməyir cəmalına heç də nəzər salsın adam.
İdarədən çıxan zaman hər tərəfin şişir tamam,
Arxana yüklənir sənin alça, gavalı, portfel.

Bələkli bir çocuq kimi tuturlar əllərdə səni,
Bəziləri əzbər edib həmişə dillərdə səni.
Çoxları seyr edən görür avtomobillərdə səni,
Kim sənə verdi, bilmirəm, böylə cəlalı, portfel.

Kim gedə həmmamə tərəf, iyləyəcək boğçasını,
Tıxar sənə köhnə tuman-köynək ilən qətifəni.
Ruzi-əzəl götürmüsən boynuna bu vəzifəni,
Qəlbinə heç götürmə sən özgə xəyalı, portfel.

Varlı, kasıb edər sənə həmişəliklə hörməti,
Alış-verişçilər də həm salar sənə məhəbbəti.
Bir parası tıxar sənə bir neçə pors katleti,
Xonçana birbəbir düzər yağlı qoğalı, portfel.

İçində hər yetən açır xüsusi bir düzüm dükan,
Mətahı köhnə pantalon[1], damski tufli[2],- dikdaban.

---

[1] pantalon-şalvar
[2] damski tufli-qadın çəkməsi

Ajurni çulki[3], adkalon, gözəl duxi, pudra, filan,
Saxlamağa hünərlisən bu qədri malı, portfel.

Çəkər ürəkdə həsrətin həmişə nazlı Olqalar,
Dibində qatbaqat yatıb kandraband pasılkalar.
Küncünə söykənir sənin bir neçə pol butulkalar,
Səninlə fəxr edər bu gün olsa haralı, portfel



[3] ajurni çulki- naxışlı kapron corab

## JENATDEL

Çıxdın haradan ərseyi-meydanə, jenatdel?
Düşdü kişilər büsbütün həycanə, jenatdel.

Döndü çoxunun qəlbləri qanə ölkədən,
Gəldi hacı, molla, məşədi canə ölkədən.
Köçdü çoxu əzm etdi Xorasanə, ölkədən,
Var siğə üçün orda hərəmxanə, jenatdel.
Çıxdın haradan ərseyi-meydanə, jenatdel?

Eylərdilər hər gündə neçə siğə nihani,
İndi daha biçarələrin keçdi zəmani.
Qoymaz daha arvad gecə saqqalə hənani,
Bənzər hərə bir quli-biyabanə, jenatdel.
Çıxdın haradan ərseyi-meydanə, jenatdel?

İndi daha qırxıq başın heç qiyməti yoxdur,
Hər topqarasaqqal kişinin hörməti yoxdur,
Nahəq yerə, zalım ərin heç cürəti yoxdur
Bir söz deməyə Fatma-Tükəzbanə, jenatdel.
Çıxdın haradan ərseyi-meydanə, jenatdel?

Bəzi kişilər bir daha fikr etməyə bica,
Həm Gülpəri arvadı ola, həm də Nataşa.
Doqquz yaşa çatmış qız uşaqlarını əsla,
Qoymaz, gedə hər burnu badımcanə jenatdel.
Çıxdın haradan ərseyi-meydanə, jenatdel?

Hər bir kişi incitsə əgər əhli-əyalın,
Ya kim, verə o başqa yerə fikrü xəyalın.
Fövrən atacaqlar eşiyə çulü çuvalın,
Həsrət qoyacaq bir dənə yorğanə, jenatdel.
Çıxdın haradan ərseyi-meydanə, jenatdel?

Keçmişdə hamı bəslər idi mollaya hörmət,
İndi bütün aləm oxuyur onlara lənət.
Yox indi kəbin kəsməyə bir mollada cürət,
Bir xeyli zərər vurdu cibişdanə, jenatdel.
Çıxdın haradan ərseyi-meydanə, jenatdel?



## BAX, BELƏ-BELƏ

Haqq sözü desin aktyor gərək,
Heç rəva deyil ondan incimək.
Hər sözü fəqət olmayır demək,
Var ürəkdə çox gizli məsələ,
Bax, belə-belə, bax, belə-belə.

Hər nə mən desəm, sən ona inan,
Gər inanmasan, eylə imtəhan.
Bəzi koperativlərdə var siçan,
Öylə zorbadır, tutmayır tələ,
Bax, belə-belə, bax, belə-belə.

Bizdə əgər qız on yaşa dola,
Qoymarıq onu evdə qız qala.
Qeyrilər gedir doğru bir yola,
Elm üçün hamı vermiş əl-ələ,
Bax, belə-belə, bax, belə-belə.

Göndər arvadı yayda yaylağa,
Qal şəhərdə tək, olgilən ağa.
Gündə bulvarı gəz sola-sağa,
Dinsə arvadın, tut, yıx, hövkələ,
Bax, belə-belə, bax, belə-belə.

Xəlqin işləri yatsa doqquz ay,
İşləmə, otur, hey məzə davay.
Gər idarəyə gəlsə bir malay[1],

---

[1] maloy-gənc oğlan

Pudranı götür, üz-gözün bulə,
Bax, belə-belə, bax, belə-belə.

Qartımış qadın, köhnə biiman
Xırda qızlara verməyir aman.
Tikdirib yarım metrədən tuman,
Bulvarı gəzər, sağrı bir şələ,
Bax, belə-belə, bax, belə-belə.



## ONDA ELƏ İDİ, İNDİ BELƏDİR

Keçmişin işi bəllidir sizə,
Yoxdu heç baxan əyriyə, düzə.
İndi var verən qiymət hər sözə,
Haq danışmağa izn var bizə.
Onda elə idi, indi belədir.

Onda qaradovoy rüşvət alırdı,
Aləm inciyib təngə qalırdı.
İndi alınır ancaq iştiraf,
Zənnimizcə, bu iş deyil xilaf.
Onda elə idi, indi belədir.

Onda alınırdı zibil pulu,
Olmuş idi xəlq amirin qulu.
İndi xəlq hamı çek gərək ala,
Ya ki, doldura köhnə padvala.
Onda elə idi, indi belədir.

Onda xəlqimiz ac qalırdılar,
Puldan ötrü şuriş salırdılar.
İndi cibdə pul, başda əqlimiz,
Həm oçeretdə durmaqdı şüğlümiz.
Onda elə idi, indi belədir.

Onda işçiyə heç idarələr
Səy edib də tapmazdı çarələr.
İndi yox o cür zərbə endirmə,
Var fəqət üç ayla süründürmə.
Onda elə idi, indi belədir.

Onda vardı çox oğru-əyrilər,
Çox verirdilər xəlqə dərdi-sər.
İndi tin başı hisli xırdacal
Oğru-əyriyə verməyir macal.
Onda elə idi, indi belədir.

Onda vardı bir çox qumarxana,
Xəlq əl atmışdı köhnə yorğana.
İndi tin başı əlli budka var,
Yaxşı bəxtəbəxt həm ruletka var.
Onda elə idi, indi belədir.



# QƏZET YAZANLAR DEYİR

Hər zaman ki, haq sözü söyləyəndə
Bəzi adamlar sözlərimdən inciyir.
Yaxşı fikir versə, görər haq sözü
Mən demirəm, qəzet yazanlar deyir.

Yazmayanda yollarından azırlar,
Bir-birinə dərin quyu qazırlar.
Gündə elə qəzetlərdə yazırlar:
Bir para qulluqçu pis işlər görür.
Mən demirəm, qəzet yazanlar deyir.

Kəndlilərin gör işi nə haldadır,
Vaqonlarda başları min qaldadır.
Alverin ən yaxşısı vağzaldadır,
Hambalı, kasserləri rüşvət verir.
Mən demirəm, qəzet yazanlar deyir.

Bir para iş məni şübhəyə salır,
Adam bu işlərə məəttəl qalır.
Birisi otuz manat məvacib alır,
Əyninə gündə təzə kastum geyir.
Mən demirəm, qəzet yazanlar deyir.

Bir para yerdə neçə qulluqçu var,
Qulluğundan edilməmişdir kənar.
Köhnə fikirlərdə olan adamlar
Kəndli görəndə ona fövrən hürür.
Mən demirəm, qəzet yazanlar deyir.

## YATMAYIN

Seçki zamanında çalış bir sayaq,
Qoyma keçə iş başına qolçomaq.

Molla, seyid, bəy, qoçu hazır durub,
Hər biri bir növ fırıldaq qurub.
Asmağa zənbil hərə bir mıx vurub,
Növbəyə durmuş neçə tülküqulaq.
Qoyma keçə iş başına qolçomaq.

Səy eləyir kəndxuda sədr olmağa,
Rüşvət ala, müftə yeyib doymağa.
Çox füqəranın dərisin soymağa
Arxalıq altından asıbdır bıçaq.
Qoyma keçə iş başına qolçomaq.

Koxa, naçalnik çalışır sərbəsər,
Qulluğa girməklik üçün birtəhər,
Kəsməyə xəlqin cibini bixəbər,
Peşələri içki, qumar oynamaq.
Qoyma keçə iş başına qolçomaq.

Seçki zamanında çalışmaq müdam,
Düşməyə ta dəftərə əhli-zülam.
Seçkidə rəhbər seçilən bir adam
Sonra görürsən çıxır oğru, qaçaq.
Qoyma keçə iş başına qolçomaq.

Seçkidə səhvən seçilən bir kişi
Anlamayır heç nə çiyi, bişmişi.
Bir də görürsən ki, tutur bir işi,
Sonra sınır kəndli başında çanaq.
Qoyma keçə iş başına qolçomaq.



## ARVAD HƏKİMLƏRİ

Günbəgün artmaqdadır şöhrəti dərmanımızın,
Ərşi-əladə gəzir keyfi cibişdanımızın.

Elmimiz yoxdur əgər, təcrübəmiz var bizim,
Tas bizim, cadu bizim, molla və cindar bizim.
Pir bizim, nəzr bizim, şeyxilə zəvvar bizim,
Bütün aləm quludur şəhrdə fərmanımızın.
Ərşi-əladə gəzir keyfi cibişdanımızın.

Mamalıq, yengəlik etməkliyə var qüdrətimiz,
Çöp çıxartmaqla boğaz basmaq olub adətimiz.
Küpə qoymaq və üz almaqdı fəqət sənətimiz,
Söz budur ki, dibi boş qalmaya həmyanımızın.
Ərşi-əladə gəzir keyfi cibişdanımızın.

"İnaq" olsa, uşağın başını çərtmək bilərik,
Öskürən olsa, kəkotla ona dərman elərik.
Gözləri ağrıyanın çarəsin Haqdan dilərik,
Çünki var mərhəməti Həzrəti-Sübhanımızın.
Ərşi-əladə gəzir keyfi cibişdanımızın.

Kim ki, zatilcəm[1] ola, qol qanı allıq, sağalar,
Bağlarıq qarnına kərpic, küpə sallıq, sağalar.
Kandara bir neçə mıx şəstilə çallıq, sağalar.
Sorarıq qanını mövhum ilə ixvanımızın[2].
Ərşi-əladə gəzir keyfi cibişdanımızın.

---

[1] sətəlcəm-ağ ciyər xəstəliyi
[2] ixvan-ardaş

Doktorun söylədiyi sözlərinə lağ edərik,
Türkəçarə eləyib xəstələri sağ edərik.
Qorxan olsa, onu dəfatilə[1] çıldağ edərik,
Daima nəfi olur xəstəyə gülxanımızın.
Ərşi-əladə gəzir keyfi cibişdanımızın.

Kimi başağrı tuta, başına sirkə çəkərik,
Qulağı ağrıyan olsa, qara nefti tökərik.
Aldadıb cümlə əvamı, başı üstə əgərik,
Puldur Allahı, yolu, məzhəbi vicdanımızın.
Ərşi-əladə gəzir keyfi cibişdanımızın.



[1] dəfatilə-dəfələrlə

## ORUCLUQ BAYRAMI

Gəldi bayram, daha gəl eyləmə fəryad, kişi,
Atgilən noxtanı başdan, Haçı Fərhad kişi.

Daha söymə Fatını, əzmə Muradın təpəsin,
Səbr et iftarə kimi, qırma Cavadın çənəsin.
Sübh olub, dur eşit, hər yerdə minacat səsin,
Qarışın bir-birinə bir yığın arvad-kişi.
Gəldi bayram, daha gəl eyləmə fəryad, kişi.

İndi ki, aldadacaqdın, ay hacı, müştərini
Birə-üç qiymətə satmaqla yağın çetverini,
Gündə beş yol döyəcəkdin Səmədi, Gülpərini,
Orucu bəs niyə tutdun, evi bərbad kişi?
Gəldi bayram, daha gəl eyləmə fəryad, kişi.

Bayram axşamı qazanda fəqət olsun nəzərin,
İşbu şərtilə ola süfrədə turpun, kəvərin.
Yoxsul həmxanədən heç olmasın əsla xəbərin,
Bütün ölmüşlərini eyləginən yad, kişi.
Gəldi bayram, daha gəl eyləmə fəryad, kişi.

Köhnə adətlərini məhv eləmə İslamın,
Pozular yoxsa ki, cənnət rəğəmindən namın.
Eydi-Novruzu da qat böyrünə bu bayramın,
Ölünü, həm dirini eyləginən şad, kişi.
Gəldi bayram, daha gəl eyləmə fəryad, kişi.

## QURBAN BAYRAMINDA

Al bıçağı, yıx qoyunu, kəs başın,
Şaqqala, qurbanın olum, şaqqala.
Ayinə göstər, qarala göz-qaşın,
Şaqqala, qurbanın olum, şaqqala.

Nərdivanı söykə divar küncünə,
Qollarını çırmalayıb dön cinə.
Soy dərisin bas hələlik xurcinə,
Sonra qazı qan qoxusuyçün çala.
Şaqqala, qurbanın olum, şaqqala.

Al əlinə dəhrəni şəmşir tək,
Dur qabağında qoyunun şir tək.
Tez oxu vəshətini təkbir tək,
Qibləyə tut, qoyma ki, murdar ola.
Şaqqala, qurbanın olum, şaqqala.

Bir tərəfə tullaginən qıçların,
Kəlləyə lazım olacaqdır qarın.
Saxla çibandan ötəri astarın,
Tapşırıb üsrən[1] gecə Əsmət xala.
Şaqqala, qurbanın olum, şaqqala.

Gün çıxar indi, bala qurtar işin,
Sök kürəyin, parçala boynun, döşün.
Tök ləyənə qədqədini, həm leşin,

[1] sırağagün

Qoy dalağın küncə, pişikçün qala.
Şaqqala, qurbanın olum, şaqqala.

Topla bağırsağını, qoy bir tərəf,
Qursağını tullama, etmə tələf.
Ver qalanın pul ilə Əkbər, Nəcəf
Hər ikisi kuçədə pırt-pırt sala.
Şaqqala, qurbanın olum, şaqqala.

İç-ciyərin sal tavaya tazə-tər,
Ver qovura Gülpəri bidərdəsər.
Həmlə edək birkərəlik, müxtəsər,
Qoy ocağın üstünə, tez qurdala.
Şaqqala, qurbanın olum, şaqqala.

Soy piyini, quyruğunu teştə sal,
Tən aradan bölginən, olsun halal.
Pay-pay elə, paylasın oğlun Bilal,
Dəyməyin ancaq iki bud, bir qola.
Şaqqala, qurbanın olum, şaqqala.



# SİNƏZƏN

Gəldi məhərrəm yenə, qan titrədi,
Lərzə düşüb cismimə, can titrədi.

Şurə gəlib Maştağa, Türkan, Zirə,
Xırdalan, Hövsan yığışıb bir yerə.
Fatmayı, Bilgəh də dəyib bir-birə,
Cuşə gəlib cümlə cahan titrədi.
Gəldi məhərrəm yenə, qan titrədi.

Cümlə Saray, Novxanı amadədir,
Kürdəxanı başqa təmənnadədir.
Mərdəkanın fikri o dünyadədir,
Cənnət üçün çəkdi fəğan, titrədi.
Gəldi məhərrəm yenə, qan titrədi.

Matəmə batdı Şüvəlan, Mərdəkan,
Hökməli, Güzdək, Qobu, pirü cəvan.
Ləş, Buzovna, Qala kəndi, Şağan
Başə vurub, sinə-zənan titrədi.
Gəldi məhərrəm yenə, qan titrədi.

Hüzzar olubdur Ramana, Bülbülə,
Qarə geyib şəst ilə Keşlə, Xilə.
Yarmağa baş vermiş hamı əl-ələ,
Əldə qəmə pirü cəvan titrədi.
Gəldi məhərrəm yenə, qan titrədi.

Balaxana, Sabunçu durub bitərəf,
Zığ ilə Əhmədli çöküb səfbəsəf.
Olmaya bu yolda bir işçi tələf,
Duydu bunu, mərsiyəxan titrədi.
Gəldi məhərrəm yenə, qan titrədi.


Aktjor əhməd Anadolly
ÇYVALDYZ
KIPLETLƏR
AZƏRNƏŞR
1930

# *ÇUVALDUZ*

## QOVLADILAR

Köhnə alverçi idim gərçi qabaq,
İndi də məxfi görürdüm işimi.
Salmış idim əlimə altı otaq,
“Yeni yol” qəzetəsi eşdi vişimi.
Məni də qovladılar, qovladılar.

İl yarımdı komitə sədri idim,
Çox da incitməz idim hər gələni.
Üzvlük haqqını bir dəfə yedim,
“Vışka” qurdu mənə zorba tələni.
Məni də qovladılar, qovladılar.

Firqəyə girmiş idim şöhrət üçün,
Həvəsim vardı mənim portfelə.
Firqədən aldığım üç töhmət üçün
Dedilər ki, motalın tulla çölə.
Məni də qovladılar, qovladılar.

Çox sevərdi məni kənd içrə elim,
Özlüyümdə elə bil narkom idim.
Qoltuğumda var idi portfelim,
Həmi jandarma, həm ispalkom idim.
Məni də qovladılar, qovladılar.

Kənd özək katibi, həm müxbir idim,
İstəməzdim ki, işə rəxnə yetə.
Pis işi görməyə çox dilgir idim,
Bir yol ispalkomu yazdım qəzetə.
Məni də qovladılar, qovladılar.

Bir yazıq işçi idim, həm də cavan,
İldə on bir ay hələ naxoş idim.
Əyər-əksik bir işim yoxdu, inan,
Gündə on altı saat sərxoş idim.
Məni də qovladılar, qovladılar.

Uxajor elmini itmam edərək,
Məktəb içrə yolumu azmış idim.
Bir qızı canü ciyərdən sevərək,
Ona yüz əlli kağız yazmış idim.
Məni də qovladılar, qovladılar.

# ONDA NECƏ OLAR

Hökumət əlləşir on ildən bəri,
Bu yolda daim axıdıb qan-təri.
İndi ki, abad eləyir hər yeri,
Bəs beş-on il keçsə, onda necə olar?

Hökumətin on yaşı vardır əlan,
Səcdə edir ona zəmin-asiman.
İndi ki, Avropa əsir qorxudan,
Bəs beş-on il keçsə, onda necə olar?

Finatdelin əlindən həp ağlayır,
Od vurub alverçiləri dağlayır.
İndi adamdır, dükanın bağlayır,
Bəs beş-on il keçsə, onda necə olar?

Yaxşı iş etməyir bəzi idarə,
Gündə bir işçini atır kənarə.
İndi bu cür düşürlər ixtisarə,
Bəs beş-on il keçsə, onda necə olar?

Xəlqin işi çox pis idi qabaqlar,
Yol kəsib, ev yıxırdı qolçomaqlar.
İndi cibə girir xırda uşaqlar,
Bəs beş-on il keçsə, onda necə olar?

Şəhərdə ev tikdirir hər ittifaq,
İnşaat işləri çox gedir qabaq.
İndi ki, dəllallar satırlar otaq,
Bəs beş-on il keçsə, onda necə olar?

Filankəsin arvadı üzdən iraq,
Gündə gedir küllüyünə keyfi çağ.
İndi kişi evdə yuyur qab-qacaq,
Bəs beş-on il keçsə, onda necə olar?



# KÖHNƏLƏR DEYİR

Bizləri heç yad eləmə, komunxoz,
Qəlbimizi şad eləmə, komunxoz.

Olmaginən böylə sərəncamdə,
Yoxdu bu işlər keçən əyyamdə.
Qoy oturaq köhnə uçuq damdə,
Küllüyü abad eləmə, komunxoz.
Evimizi bərbad eləmə, komunxoz.

Axsa həyətdən çölə çirkab suyu,
Xalqa ziyan verməz onun iy-buyu.
Evdə zibil qalxsa bir arşın boyu,
Heç bizə imdad eləmə, komunxoz.
Evimizi bərbad eləmə, komunxoz.

İstəmirik tazə həva, gen palan,
Xoşdu bizə əyri-müyrü, dar dalan.
Qanmarıq aləmdə təmizlik-filan,
Bizlərə irad eləmə, komunxoz.
Evimizi bərbad eləmə, komunxoz.

Bizləri bu iş çox edir halbahal,
Gəlsə tramvay, salacaq qalmaqal.
Qoy eşələnsin küçədə xırdacal,
Bağ-bağat icad eləmə, komunxoz.
Evimizi bərbad eləmə, komunxoz.

Köhnə donuz daxması xoşdur bizə,
Dar küçədə qoy çıxa palçıq dizə.
Çək su yolun mostavayi mərkəzə,
Bizləri heç yad eləmə, komunxoz.
Evimizi bərbad eləmə, komunxoz.

## XORUZ

Yatmış idim bir gecə, gördüm ki, mən
Aləmi-röyadə xoruz olmuşam.
Hey yığıram dimdiyimə xırda dən,
Bıt-bıt edib, aləmə gu salmışam.
Qarnımı bir növilə sahmanladım,
Şəstilə durdum bir ağız banladım.

Sonra qəzadə gedib oldum həkim,
Ta ki, gələn xəstəyə surət çəkim.
Gəldi biri ağzına dərman səpim,
Səhv elədim, qarnını dərmanladım.
Onda şaşırdım, bir ağız banladım.

Sonra geyindim, başa çəkdim daraq,
Öylə ki, çıxdım çölə basdım ayaq,
Düşdü dalımca iki-üç şəkpapaq,
Üz-gözümü on kərə kirşanladım.
Çəm-xəm ilən tək bir ağız banladım.

Sonra qayıtdım evə yorğun, həlak,
Kəlləmi atdım balışa, sinə çak.
Birdən ayıldım yuxudan hövlnak,
Tutduğum işdən də peşimanladım.
Onda ürəkdən bir ağız banladım.



# BAKININ KEÇMİŞ HƏKİMLƏRİ

Cibində yaylı bıçaq, qollarında qüvvətə bax,
Vurub, basıb, kəsərəm, məndə bir məharətə bax.

Başımda on beşədək mən kimi igid aslan,
Vurub, yıxıb, dağıdan, zorla xalqdan can alan.
Təmami əmrimə tabe, bu gün verəm fərman,
Məhəllələrdə axar su yerinə qırmızı qan.
Atam sağ olsa, deyərdi oğulda qeyrətə bax,
Cibində yaylı bıçaq, qollarında qüvvətə bax.

Nə həddi var küçədən qız, qadın keçə rahət,
Əlindəki çamadan qeyb olar həman saət.
Nə bilsək eyləyərik əldə eyləsək fürsət,
Adam gərək xuliqanlıqla kəsb edə şöhrət.
Görən desin "malades" bircə bunda cürətə bax,
Cibində yaylı bıçaq, qollarında qüvvətə bax.

Nə var atam, nə anam var, nə qövmü qardaşım,
Bıçaq, ağac, yumruqdur həmişə sirdaşım.
Yaşım o qədr deyil, qan ilən dolub başım,
Cahanda ad elərəm qırxa çatsa gər yaşım.
Bu məşqdir hələlik, onda qətlü qarətə bax,
Cibində yaylı bıçaq, qollarında qüvvətə bax.

Varımdır arxada çox köhnə can alan cəllad,
Verir mənə belə təlim o "möhtərəm" ustad.
Edəm cəmaəti min dürlü zillətə möhtad[1],
Ucaldım ərşə bu məzlum xalqdan fəryad.
Hamı desin yeni dünyadə bircə adətə bax,
Cibində yaylı bıçaq, qollarında qüvvətə bax.

---

[1] Möhtad-adət, vərdiş

# DANA

*("Ana" adlı şeirə nəzirə)*

Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,
Ürək süqut eləməz durduğu mətanətdən.
Ricavü xövfə məkan vermərəm, kələm başlar
Min il çərənnəsələr dəhşəti-qiyamətdən.
Milisyalar tuta dövrüm, çəkinmərəm əsla,
Beş il də həbs olunam, ölmərəm xəcalətdən.
Yanımda gər dura on min dvornik[1], əldə ağac,
Sabahadək yataram, getmərəm parapetdən.
Əyilmərəm bir işə, çünki məndə yox qeyrət,
Çörək çıxır mənə soyğunçuluqla qarətdən.
Cahanda zərrəcə xövf etmərəm komunxozdan,
Əgər zibil qoxusu çıxsa hər imarətdən.
Nəzakət ilə oturmuş dükanda meymun tək,
Həmişə söhbət edər qüslilə təharətdən.
Vəsiqəsində yazılmış bu şəxs işsizdir,
Ayılmayır başı heç keyfdən, ziyafətdən.
Mən hazıram verim hər gün müdirə yağlı plov
Ki, salmasın məni o, ixtisarə, xidmətdən.
Əs, ey plov, bağır, ey bəhri-biaman bozbaş,
Atıl cəhanə sən, ey küftə, yumbalan, partla.
Yan, ey ocaq, qazanın qızdır, ey alov, parla,
Fisincanın qoxusun asimanə eylə bülənd.
Yeyib doyan kimi yıx böyrü üstə cəmdəyini,
Yatıb xorulda, fısılda dəmü hərarətdən.
Bu yanda xırda çocuqlar ocağına həsrət,

---

[1] dvornik-süpürgəçi

Veriblər baş-başa həp düşmüş istirahətdən.
Sən ancaq əyninə gey ingilis qaverqotunu,
Yanında mamlımatan, bəhs elə səyahətdən.
Sözüm sizə əsər eylərmi, mütləqa yox, yox,
Eşit, inanma dedim həpsini zərafətdən.



# CÜRBƏCÜR ADAMLAR

Firqəçi oldun gərək
İki-üç arvad alasan.
Gündə birilən gəzib,
Doyunca ləzzət alasan.

Qulluqçu oldun gərək
İşində möhkəm olasan.
Üzü açıq qız alıb,
Başına çadra salasan.

Ər ki oldun, gərək
Bir az cürətin olsun.
Arvadını döyməyə
Qolda qüvvətin olsun.

İspalkom oldun, gərək
Xeyrə, şərə yarıyasan.
Toyda, yasda, əzadə
Həmişə başda durasan.

Qolçomaq oldun, gərək
Qəzadə şirə dönəsən.
Şəhərə gələn zamanda
Yazıq fəqirə dönəsən.

Alverçi oldun, gərək
Danmayasan Allahı.
Yoxsa min il də qalsan,
Qazanmazsan on şahı.

Kəblayı oldun, gərək
Qaçmayasan namazdan.
Səy elə, anlaq öyrən
Molla tək anlamazdan.

Komsomol oldun, gərək
Məsciddə sinə vurasan.
Ya ki, evdə xüsusi
Əza büsatı qurasan.



# ÇADRA DALOY

Kişilər, gör nə yaman işlər olubdur plaxoy[1],
Küçədə xırdaca qızlar da deyir: çadra daloy.

Aman allah, bu şəhər çevrilib axır dağılar,
Belə bir küfr tutan şəhrdə insanmı qalar.
Yenə bir çadra ilə əl çəkələr, yaxşı olar,
Hələ derlər papağı tulla, urus şapkası qoy.
Kişilər, gör nə yaman işlər olubdur plaxoy.

Döndərib eylədilər zəhr tək ovqatımızı,
Atdılar bir tərəfə köhnə hürufatımızı.
Zülmilə eylədilər "sin" o gözəl "sad"ımızı,
İndi olmuşdur İ.S.L.İ.M. xramoy[2].
Kişilər, gör nə yaman işlər olubdur plaxoy.

Başlayıblar yeni aləm, yeni dünya qurunuz,
Nə bilim, köhnəliyin rişəsinə od vurunuz.
Deyər axır bığı da, saqqalı da qırxdırınız,
Hacı, molla, məşədi, kəblayı olsun maladoy[3].
Kişilər, gör nə yaman işlər olubdur plaxoy.

Tutalım şapkanı qoydu başına molla baba,
Dikdaban başmaq, o şapka yarar Hacı Turaba?
Bəs nə olsun kişinin geydiyi don, cübbə, əba,
Kişini meymuna bənzətmə, utan bir gedə, hoy.
Kişilər, gör nə yaman işlər olubdur plaxoy.

---

[1] plaxoy-pis
[2] xromoy-çolaq
[3] molodoy-gənc

# ARİSTOVAT

Kapitalistlər deyir:
Avropanı kim pisləsə, arestavat,
Hər kim bizə bir söz desə, arestavat.
Polislərə əmr etmişik küçələrdə
Kim kommunistə bənzəsə, arestavat.

İşçilər deyir:
Kim hüququn pula satsa, arestavat,
Neftimizə kim əl atsa, arestavat.
Kim bizim azad yurdumuz üstə
Qanlı əllərin uzatsa, arestavat.

Mən deyirəm:
İdarədən səhlənkarı arestavat,
Fırıldaqçı sekretarı[1] arestavat.
Sərxoş müdir ilən piyan müavini,
Xəyanətkar hesabdarı arestavat.

Hər fitnəkar ünsürləri arestavat,
Mən-mən deyən amirləri arestavat.
Mətbuata zərbə vuran qələm ilə
Böhtan yazan müxbirləri artestavat.

Kim salonda şuluq salsa, arestavat,
Kim xuliqan adın alsa, arestavat.
Üçüncü kupletdən sonra zəhmət çəkib
Hər kim mənimçün əl çalsa, arestavat

---

[1] sekretar-katib

# POSTA[1] MÜDİRLƏRİNƏ

Elmü fərasətin var, can ay posta müdiri,
Yaxşı məharətin var, can ay posta müdiri.

Sanma dəxi kəndini bizlərə biganə sən,
Posta idarəsində inan ki, bir danəsən.
Burda daha salmısan işləri səhmanə sən,
Qulluğa rəğbətin var, can ay posta müdiri.
Yaxşı məharətin var, can ay posta müdiri.

Xəlq səni ürəkdən, can kimi istəyirlər,
Bir parası sənin tək işçidən inciyirlər.
Eşitmişik bu sözü xalq içində deyirlər:
Həmişə hörmətin var, can ay posta müdiri.
Yaxşı məharətin var, can ay posta müdiri.

Məharətin bəllidir, gizli və pünhan deyil,
İdarəndə qəzetlər qalsa, bu nöqsan deyil.
Camaatın sözləri bir tikə böhtan deyil,
Bollu xəyanətin var, can ay posta müdiri.
Yaxşı məharətin var, can ay posta müdiri.

İdarəndə eyib yox, qəzet bir ay yatanda,
Sahibinə verərsən o biri ay çatanda.
Quyruğundan tutub da səni bayıra atanda,
Onda qiyamətin var, can ay posta müdiri.
Yaxşı məharətin var, can ay posta müdiri.

---

[1] posta-poçt

## QOLÇOMAQLARIN QUYRUĞU

Olmuşam nokəri keçmişdə qəza bəglərinin,
O zaman ərşə çıxıbdı səsi dünbəklərinin.

Bəy yanında nə qədər hörməti vardı nökərin,
Şallağım ilə soyardım dərisin rəncbərin.
Həddi olmazdı mənə söz deməyə bir nəfərin,
Vardı təsiri bütün kəndliyə hürməklərinin.
Olmuşam nokəri keçmişdə qəza bəglərinin.

Evdə xidmətçilər üstündə böyük nazir idim,
Əmrdən çıxmaz idim, hər cür işə mahir idim.
Rəxti-xabində yatan vəqt ağam, hazır idim.
Səy edərdim keşiyin çəkməyə milçəklərinin.
Olmuşam nokəri keçmişdə qəza bəglərinin.

Almışam tərbiyəni şallaq ilə, müxtəsəri,
Tərbiyə almağımız iştə budur bir səməri.
Həqq-nahəq yerə gündə döyürəm kəndliləri,
Nəfi bu oldu mənə tərbiyə verməklərinin.
Olmuşam nokəri keçmişdə qəza bəglərinin.

Tapşırardı mənə bəylər o zaman ev-eşigin,
Evlərin sərf çörək kimi çəkərdim keşigin.
Suvarardım ağanın mal-qarasın, it, pişigin,
Süpürərdim çulunu, töyləsin eşşəklərinin.
Olmuşam nokəri keçmişdə qəza bəglərinin.

## TAZƏBƏTAZƏ, NÖVBƏNÖV

Eyləmə fövt fürsəti,
Çək ortaya həqiqəti.
Yaz, oxu xalqa kupleti,
Tazəbətazə, növbənöv.

Qəzet də lap yolun azır,
Xalqa dərin quyu qazır.
Hər nə görən kimi yazır,
Edir bu xalqa töhməti
Tazəbətazə, növbənöv.

Unutma köhnə adətin,
Tutub cahanı şöhrətin.
Xurduna ver cəmaətin
Dünənki köhnə katleti
Tazəbətazə, növbənöv.

Zərrə utanma firqədən,
Xoşla beş-altı gülbədən.
Cəhd elə, qalma cərgədən,
Gündə dəyişdir övrəti
Tazəbətazə, növbənöv.

Koperativə dəyən ziyan
Dəyməyir heç yerə, inan.
Girməsə kassaya siçan,
Azaldar ildə qiyməti
Tazəbətazə, növbənöv.

Sözlərin eyləməz əsər,
Eyləmə xalqı dəngəsər.
Kupleti eylə müxtəsər,
Başla bir özgə söhbəti
Tazəbətazə, növbənöv.



## ATA OĞULA NƏSİHƏT VERİR

İl keçdi, ay dolandı, divani-Həq quruldu,
Gəldi arayə mizan, fövrən təkan vuruldu.
Nöqsanlarım görüncə, qəlbim yaman qırıldı,
Dövr etmədi mənimlə dünyadə çərxi-dövran.
Mən firqədən qovuldum, çıx sən də komsomoldan.

Hər nə desəm, unutma, məndən sənə əmanət,
Bilmə nədir yaçeyka, ver məktəbə nəhayət.
Rüşvət pulu nə qədri var, eylə istirahət,
Tərk et klub binasın, dərnəkdə yapma idman.
Mən firqədən qovuldum, çıx sən də komsomoldan.

Mən firqəyə girəndə, düşdüm belə xəyalə,
Beş gündə sahib ollam bir cüzvi mülkü malə.
Dünyadə keyf edərdim asudə laməhalə,
Əksinə oldu işlər, oldum belə peşiman.
Mən firqədən qovuldum, çıx sən də komsomoldan.

Qəndi, çayı evimdə beş-on meşok bilirdim,
Yoxsulları özüm tək bir qarnı tox bilirdim.
Hər qədr firqədəydim, Allahı yox bilirdim,
İşlər ki, böylə oldu, haqdır kitabi-Quran.
Mən firqədən qovuldum, çıx sən də komsomoldan.

Yoldaşların yanında bir çöpcə qiymətim yox,
Yox alverə ümidim, məsciddə hörmətim yox.
Var-yox qutarmış artıq, bir öylə dövlətim yox,
Məslək pula satıldı, məhv oldu getdi vicdan.
Mən firqədən qovuldum, çıx sən də komsomoldan.

Bilsəydim intəhasın bu işlərin əzəldən,
Aşdan da olmaz idim, çıxmazdı bozbaş əldən.
İndi əlim üzüldü o nazlı portfeldən,
Daim içi doluydu fistaçka[1], zarni kaştan[2].
Mən firqədən qovuldum, çıx sən də komsomoldan.



[1] fistaçka-püstə
[2] zarni kaştan-qovrulmuş şabalıd

# PİŞİK

Xırda çağımdı o zaman,
Bilməz idim yaxşı, yaman.
Etmiş idim virdi-zəban:
İncə biya burəftəni,
Pişik apardı küftəni.

Birisi müdir olan kimi,
Fısıldayır ilan kimi.
İş başına qoyan kimi
Neçə o cür cib kəsəni,
Pişik apardı küftəni.

Kabinetə girmək üçün,
Get müdiri görmək üçün.
Müdir cavab vermək üçün,
Gözlə o biri həftəni.
Pişik apardı küftəni.

Dükanə tazə mal gəlir,
Qırmızı, əlvan, al gəlir.
Şivyot, ipəklə şal gəlir,
Üzv etməmişdən siftəni,
Pişik apardı küftəni.



## ZƏMANƏ LEYLİ-MƏCNUNLARI

*(Tar Rast çalır)*

Məcnun:
Çıxdı canım küçələrdə, köhnə idbar istərəm,
Gözləri göy, burnu kurnos, yupkası dar istərəm.
Köhnə biarəm, deyil bihudə yüz qan etdigin,
Qalmışam beş il Sibirdə, öylə bir qar istərəm.

Leyli:
Çadra daminə giriftar olanı xar oluban,
Evdə hədyan danışıqdan qulağım kar oluban.
Qüdrətim yox ki, çıxam bir kərə bulvara, gəzəm,
Evdə bozbaşı bişirməklə dəxi xar oluban.

(Tar Şikəsteyi-fars çalır)
Məcnun:
Gördüm ol pudralı hüsnün, ixtiyarım qalmadı,
Əyləşib padvalda içdim pivə, varım qalmadı.
Padval içrə pivə içmək gər fəna məqsud idi,
Şükr kim, kassamda beş mindən dinarım qalmadı.

Leyli:
Portfeldə nə kələk var, bilirsən, bilirəm.
Nə alırsan, nə satırsan, nə yeyirsən, bilirəm.
Mən nə hacət ki, açım işlərini xalqa deyim,
Öz idarəndə nə işlər ki, görürsən, bilirəm.

(təsnif)

Ah eylədiyim həpsi də yatmağım üçündür,
Dövlət malını baqqala satmağım üçündür.

(tar Segah çalır)

Məcnun:
Payibənd oldum üzündə rəngi, kirşanın görüb,
Nitqdən düşdüm sarı saç, qıssa tumanın görüb.
Oda yandım görcəyin qax tək qırışmış gözlərin,
Eşqə doldum qarğa tək bulvarda cövlanın görüb.

Leyli:
Könlüm tutulur qəmzəli cananını görcək,
Qəlbim sıxılır evdə Tükəzbanını görcək.
Baxdıqda sənə həp dəyişir fikrü xəyalım,
Bağrım dəlinir bir belə nöqsanını görcək.

(tar Əraq çalır)

Məcnun:
Çaxır həlakiyəm, nə işim var idarədə,
Kimsə müdirə söz deyə bilməz bu barədə.

# QEYRİ-MƏTBU ŞEİRLƏR



# USTADIM SABİR DEMİŞKƏN

## ZƏHƏR QATDI AŞIMA

Nə yaxşı günlər idi, beş-on il bundan qabaq,
Keyfim istəyən qədər işlədirdim fırıldaq.
Bu son zamanlarda mən hər yerə basdım ayaq,
Bir də gördüm lapbadan, kirpi çıxdı qarşıma.
Zəhər qatdı aşıma.

Müdir idim bir zaman, yaxşı gün keçirirdim,
Tamahkarlıq ucundan vəzifəmi itirdim.
Başqa iş axtarırdım, hər idarəyə girdim,
Bir də gördüm lapbadan kirpi çıxdı qarşıma.
Zəhər qatdı aşıma.

İdarədə sədr idim, yığıncaq olan zaman
Qoymaz idim danışsın əleyhimə bir insan.
Tənqidi xirtdəkləyib, sıxıb boğduğum zaman
Bir də gördüm lapbadan kirpi çıxdı qarşıma.
Zəhər qatdı aşıma.

Tanışlıqla hər işə çəkmiş idim bir əncam,
Texnikumu bir təhər qurtarırdım natamam.
İstədim daş-baş verib, saxta bir diplom alam,
Bir də gördüm lapbadan kirpi çıxdı qarşıma.
Zəhər qatdı aşıma.

Çörəkçiyəm, çəkmirəm zərrə qədər dərdü qəm,
Müfəttiş tanışımdır, durub dalımda möhkəm.
İstəyirdim kiloda yüz qram əksik çəkəm,
Bir də gördüm lapbadan kirpi çıxdı qarşıma.
Zəhər qatdı aşıma.

Bir gecə xəlvətcə mən gedib açdım anbarı,
Kolxozun məhsulunu tən bölüm qardaşvari.
Ağır çuval dalımda yollandım evə sarı,
Bir də gördüm lapbadan kirpi çıxdı qarşıma.
Zəhər qatdı aşıma.



## MƏN DEYƏN OLDU

Yadındadır, dedim sənə, sakit ol, dinc otur, bala,
Zaman gələr, gözləmədən tutar səni dərdü bəla.
İnanmadın sözlərimə, baş apardın əyri yola,
Getdiyin əyri yol səni pis hala saldı, salmadı?
Ustadım Sabir demişkən: “Mən deyən oldu, olmadı?”.

Var-yoxunu satıb sənə verəndə hər il tələbə,
Dedim ki, rüşvət elmini çəkib gətirmə məktəbə.
Bəd əməlin tutmadı baş, axırı gəldin qəzəbə,
Zaman sənin bir şapalaq,ənginə çaldı, çalmadı?
Ustadım Sabir demişkən: “Mən deyən oldu, olmadı?”.

Hökumət əmlakını sən mənimsəyib yeyən zaman
Dedim sənə, həya elə, hökumətə vurma ziyan.
Törətdiyin fırıldağın üstü açıldıqda həman
Məhkəmə tutduğun işin qarşısın aldı, almadı?
Ustadım Sabir demişkən: “Mən deyən oldu, olmadı?”.

Hər nə bilirdin, elədin, əlində ikən ixtiyar,
Yüz kərə söylədim sənə olmagilən bietibar.
“Volqa” maşın, ev-eşiyin çıxdı əlindən hər nə var,
Nəticədə bağ-bağatın kütləyə qaldı, qalmadı?
Ustadım Sabir demişkən: “Mən deyən oldu, olmadı?”.

Ticarətdə də az deyil gizli satıb artıq alan,
Bazarlarda əməkçinin rişəsinə balta çalan.
Xüsusi alverçilərlə dostcasına şərik olan
Bəzi müdirlərə divan tutuldu, ya tutulmadı?
Ustadım Sabir demişkən: “Mən deyən oldu, olmadı?”.

Dedin əməksiz gəlirin xeyli şirin olur dadı,
Bəs nə üçün məhkəmədə qopardın ahü fəryadı.
Sənin kimi oğruların evdə günahsız arvadı
“Vay ərim” deyib ağladı, saçların yoldu, yolmadı?
Ustadım Sabir demişkən: “Mən deyən oldu, olmadı?”.

Yüz kərə söylədim sənə, eyləmə bədbəxt özünü,
Dövlətin, xalqın malına zilləmə qurd tək gözünü.
Nəticədə qaranlığa çevirdin ağ gündüzünü,
Həbsdə dərdü qüssədən gül üzün soldu, solmadı?
Ustadım Sabir demişkən: “Mən deyən oldu, olmadı?”.



## AVTOMATDIR

Keçən gün xəstələndim, dedim gedim doktora,
Tramvaya oturdum, baxdım hey ora-bura.
Vaqonda rast gəlmədim, nədənsə, konduktora.
Bir nəfərdən soruşdum "Bu, necə əhvalatdır?"
Cavab verdi ki, indi konduktor avtomatdır.

Taksi maşınlarında düz işləyir avtomat,
Əlli qəpik yazanda versən əgər bir manat,
Manatlıq gözdən itir, yox olur həmin saat.
Bu gözbağlıca oyun cibgirlikdən rahatdır,
Bir para şoferlərin əlləri avtomatdır.

Həqiqi alverçilər əyri yola getməyir,
Ticarət işlərində fırıldaq işlətməyir,
Böyük oğurluqlara qəti maraq etməyir.
Xırda oğurluq isə gündəlik məşğulatdır,
Yüz qram əksik çəkən tərəzi avtomatdır.

Xüsusi alverçinin şapkası gözü üstə,
Keyfi kök, damağı çağ, deyir "Kəsmə şikəstə".
Bir dəstə turpu bölür, bağlayır iki dəstə,
Dəstəsi on qəpikdən il günü sathasatdır.
Vicdanı – xalqı soymaq, insafı – avtomatdır.

Sənətini soruşdum o gün bir vətəndaşın,
Dedi çoxdan atmışam sənətin, elmin daşın.
Qoltuq cibimdə diplom, qapımda "Volqa" maşın,
Pul da ki, xalturadan cibimdə qatbaqatdır.
Əmim zəng eləyəndir, daydayım avtomatdır.

Vardır elə müəllim qəti “peşkeş” almayır,
İstəyir yalvar-yaxar, beynini deş, almayır.
Doğrudur imtahanda “beş” yazır, beş almayır,
Sonra aldığı “peşkeş” üç yüz əlli manatdır.
Özü ziyalıdırsa, məsləki avtomatdır.

Həyatda çox görmüşük ziyalı insanları,
Ölkəmizdə az deyil əvəz edən onları.
Təəssüf ki, pis işə cəlb edən cavanları
Konyak, araq, çaxırdır, pivədir, bir də kartdır,
Bu maddələr beyində hərlənən avtomatdır.

Eşitsin, bilsin bunu əyri yola gedənlər,
Tüfeyli müftəxorlar, cinayət törədənlər,
Adam cildinə girib natəmizlik edənlər,
Bütün bunların hamı zərərli həşəratdır.
Bu tipdə insanların yerləri qazamatdır.



## SƏN DƏ, MƏN DƏ

Vaxtın olsa bir dəqiqə, diqqət elə, dinlə məni,
Lazımi bir məsələdən hali edim indi səni.
Unutma ki, hər törənən bəzi para hadisəni,
Hər ikimiz gizlədəndə, müqəssirik mən də, sən də.

Biz hamımız bir fikirdə, bir adamıq, bir işçiyik,
Mübarizə etmək üçün cəsarətli döyüşçüyük.
Ziyankarın hər işinə göz olmasaq, bəs nəçiyik?
Biz də bilib gizlədəndə, müqəssirik mən də, sən də.

Bəzi hesablaşmayır heç baş verən əngəllər ilə,
Ölkəmizdə tikintini ləngə salır illər ilə.
Pullarımız sərf olunur boş yerə yüz minlər ilə,
Biz də bilib gizlədəndə, müqəssirik mən də, sən də.

Bank bir ətək pul buraxır idarənin təmirinə,
Müdir bir az tütün pulu verir ustanın birinə,
Qaldığını mənimsəyir, iş yetirilmir yerinə.
Biz də bilib gizlədəndə, müqəssirik mən də, sən də.

Müdir var ki, yığıb tökür idarəyə el-obasın,
Öz əmisin, öz xalasın, yaxın qohum-əqrəbasın,
Yamaq-yırtıq işlərini, qohumları tez yamasın.
Biz də bilib gizlədəndə, müqəssirik mən də, sən də.

Yolun düşəndə sən gedib nəzər yetir dükanlara,
Çox olur ki, skladdan gəlməyir mal dükanlara.
Skladçı qoltuqaltı göndərir dal dükanlara,
Biz də bilib gizlədəndə, müqəssirik mən də, sən də.

Yaxşı götür-qoy eləsək, bu kupletin budur canı,
Sayıq olub tapmalıyıq ortaya rəxnə salanı.
Xalqımızın şən yaşayış qurmasına zidd olanı
Biz də bilib gizlədəndə, müqəssirik mən də, sən də.



## DAYIM VAR

İnsaf ilə deyin institutda
Heç əlaçılıqda mənim tayım var?
Bəzi adam elə güman edir ki,
Mənə arxa duran bir dayım var.

Doğrusunu bilmək istəsən əgər,
Nə daydayım, nə arxa duranım var.
Hərdənbir dostluqla, tanışlıq ilə,
Ancaq müəllimə zəng vuranım var.

Bəzisi zənn edir, guya müəllim
Daydayıma görə mənə beş verir.
İmtahanım zəif keçməsin deyə
Dayım ona hərdən bir peşkeş verir.

Hazırlıqsız gəlsəm imtahanlara,
Qeyri-kafi qiymət alsam da əgər,
Təsir etməz mənə, mən bilirəm ki,
Pul belə işlərə sərəncan çəkər.

Məktəbə öz "Volqa"m ilə gələndə,
Bəziləri bunu ayıb bilirlər.
Deyirlər: "tələbə yolundan azıb",
Orda-burda pıqqıldaşıb gülürlər.

Bir adamın şəxsi "Volqa"sı olsun,
O heç bilər nədir qüssə, qəm, kədər?
Bir adam pərəstiş edə şöhrətə,
Heç şəhəri qoyub o, kəndə gedər?

Zənnimizcə, istər dayın, ya pulun,
Fəxr eləmə, sənə həyandır bu gün.
Savadsız, sənətsiz qalmaqdan isə,
Səy elə, gün qazan gələcəyinçün.



## BELƏSİ DƏ VAR

Sonuncu kursu mən bitirməmişdən,
Təyinatı başa yetirməmişdən,
Cəhd edərəm vaxtı itirməmişdən,
Zaqsa gedib, sallam işi səhmana,
Evlənərəm ixtisaslı oğlana.

Qaş-gözümdə sürmə, özüm gülbədən,
Bəd deyiləm, Aya, Günə nisbətən.
Baxıb mənə deyir yanımdan ötən:
Sən allah, bir ceyrana bax, ceyrana,
Bənd olubdur ixtisaslı oğlana.

Başımda gümbəz kimi saçlarım var,
Şux geyinib-gəzməyə kirdarım var.
Şəhərdə parklarım var, bulvarım var,
Maral kimi vaz atmaqçün hər yana,
Evlənərəm ixtisaslı oğlana.

Mənim adım-sanım var, keçmişim var,
Turac kimi incə yol yerişim var.
Mənim kənddə, rayonda nə işim var?
Verincə işkəncə, əziyyət cana,
Evlənərəm ixtisaslı oğlana.

Var belə şəxsi xeyrini güdənlər,
Düz yolunu qoyub, əyri gedənlər.
Hər belə şöhrətə rəğbət edənlər,
Bu xasiyyətli qızlar olsa ana,
Nə gün verər ixtisaslı oğlana?!

## ÇARLİSTON

Ölkəmizdə ad eləyir çarliston,
Çoxlarını şad eləyir çarliston.
Əhəmiyyəti çox da böyük deyil, fəqət,
Meşşanlığı yad eləyir çarliston.

Bəzi geyir qıssa pencək, çarliston,
Eni, uzunu bir çərək, çarliston.
Quyruğu şorbaya düşmüş toyuq tək
Özünü eyləyib lümək, çarliston.

Bəzi bığların vurdurur, çarliston,
Bəzi xətbaşı qoydurur, çarliston.
Mod əsiri olanları bütünlüklə
Qulyabaniyə oxşadır, çarliston.

Qadınların üstü-başı çarlıston,
Ağzı, burnu, gözü, qaşı çarliston.
Moda gör nə əsər edib Gülpəriyə,
Evdə bişirir bozbaşı çarliston.

Bəzi gedib kostyum alar çarliston,
Nahaq özün xərcə salar çarliston.
Kiçik qardaşın pencəyin, atasının
Şalvarın geysə, olar çarliston.

Qızlarımızdan kim arar çarliston,
Uzaq getməsin, evdə var çarliston.

## KİM BACARIRSA, GÜLMƏSİN

Kütləni güldürməyi mən
Almıram əsla nəzərə,
Mənim bu qeydə aldığım
Hər tüfeyli eybəcərə
Kim bacarırsa, gülməsin.

Bir zaman bir çoxlarının
Gülmüşük uzun bığına,
İndiki bəzi cavanın
Başındakı quyruğuna
Kim bacarırsa, gülməsin.

Bəzisi dar yubka ilə
Dırmaşanda avtobusa,
Qılçaları büdrəyərək
Tozu aşan lovğa qıza...
Kim bacarırsa, gülməsin.

Şorsatan oğlu Məmişin
Oğlu olub stilyaqa,
Xoruzgülü köynəyinə,
Geydiyi göy darbalağa
Kim bacarırsa, gülməsin.

Bəziləri həsrət idi
Hüseynqulu dovğasına.
İndi plov xoşlamayan
Turp satanın "Volqa"sına...
Kim bacarırsa, gülməsin.

Bəzi minir avtobusun
Harda var, ən qəşənginə.
Arxasına üç pudadək
Yüklədiyi əhənginə...
Kim bacarırsa, gülməsin.

Bu hələ başlanğıcıdır,
Qısaca söylədik sizə.
Maraqlısı dalda qalıb
Bizim gələn nömrəmizə...
Kim bacarırsa, gülməsin.



## BİR NEÇƏ SUAL

Sizdən üç-dörd sual etmək istərəm,
Deyin görüm, ağalar, xanlar hanı?
İyirmi il bundan əvvəl, dəmadəm
Mənəm deyib, döşə vuranlar hanı?

Bir neçə əclaf, yekəbaş, şarlatan,
Özlərini çolpa tək çəkib tutan.
İşçiyə boş vədə verib aldadan,
İngilisə vətən satanlar hanı?
Mənəm deyib, döşə vuranlar hanı?

Birləşərək bəy, xan, ağa, mülkədar
Hey dedilər burda bizik hökmdar.
Tezlik ilə oldu hamı tarü mar,
Şalvarına bafta taxanlar hanı?
Mənəm deyib, döşə vuranlar hanı?

Xəlqimizin ən qatı düşmənləri
Cəhd elədi, tutmadı baş fəndləri.
Gördü hamı o mənəm deyənləri,
İngilisə quyruq olanlar hanı?
Mənəm deyib, döşə vuranlar hanı?

Tonlar ilə neftə sahib olanlar,
Əzrayıl tək işçidən can alanlar.
Mantaşovlar, Şibayevlər, filanlar,
Acından işçini qıranlar hanı?
Mənəm deyib, döşə vuranlar hanı?

Qalmadı bəy, xan, üməradan bir iz,
İndi alın açıq, vicdanlar təmiz.
Əməkdə fərqlənən insanlarıq biz,
İndi o ac-susuz qalanlar hanı?
Zalımın oduna yananlar hanı?!



## UÇAQ AYA

Nə durmusan, Molla Dadaş,
Hazırlaşaq yavaş-yavaş.
Yer üzündə hiyləmizin
Aqibəti tutmadı baş.
Əldə ikən abır-həya,
Durma, tez ol, uçaq Aya.

Baxıb fala Molla Məmiş,
Deyir düzəlmişdir hər iş.
İndi Günə, Ay-ulduza
Asanlaşıb gediş-gəliş.
Yol açıb insan oraya,
Durma, tez ol, uçaq Aya.

Mollanüma Məmmədağa
Yaman düşüb əl-ayağa.
Hazırlaşır burdakı tək
Orda da xalqı soymağa.
Salaq bir əngəl araya,
Ondan qabaq uçaq Aya.

Gözləməyək Mir Tağını,
Molla Xəlil İrşaqını.
Keçəl Molla Saleh isə
Ay tərəfə uçmağını
Saxlayıbdır gələn yaya.
Durma, tez ol, uçaq Aya.

# SƏN-SƏN
*(bənzətmə)*

Gəl əzizim, bir yeni kuplet deyək,
Xalqımızla şirin söhbət eyləyək.
Bu şərt ilə həqiqəti söyləyək,
Nə tələsmə, nə yubanma (2 dəfə).
Başla, sən, sən, sən, sən (2 dəfə).

Kooperativ evi üçün pul verdim,
Order alıb, tazə evimə girdim.
Məndən qabaq evə köçəni gördüm,
Nə atamdır, nə anamdır. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

Azərbaycan tarixini əzəldən
Açıb oxu, təhlil elə təməldən.
Görərsən ki, paltarını gödəldən
Nə nənəndir, nə xalandır. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

İdarədə mühasib olan zaman
Dövlət puluna vurmusan çox ziyan.
Müdir deyir ki, kassaya soxulan
Nə özüdür, nə müavin. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

Bağçada sənsən müdirlik eyləyən,
Var haqqında belə fikir söyləyən:
Uşaqların normalarını yeyən
Nə pişikdir, nə siçandır. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

Bir məsələ qoyub bizi nigaran,
Xalq işinə kimdir zərbələr vuran.
Telefonun dəstəyini qoparan
Nə qaçaqdır, nə də quldur. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

Kolxozun olmusan ferma müdiri.
Mal-qaranın çatmayır beşdən biri.
Görüblər camışı udan dipdiri
Nə sədrdir, nə mühasib. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

Az deyildir əməksiz xeyrə çatan,
Öz əlaltılarına qaş-göz atan.
Müalicə putyovkasını satan
Nə həkimdir, nə də mestkom. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

Əziz dostlar, dinlədiniz kupleti,
İzn verin, tamamlayaq söhbəti.
Əyri-üyrülərə verək töhməti,
Nə Əlidir, nə Şəfiqə. (2 dəfə)
Sən, sən, sən, sən, sən, sən. (2 dəfə)

# BİZDƏDİR

Bütün dünyaya biz etmişik isbat,
Bizik verən məzlum insana nicat.
Bilir bunu yer, göy, bütün kainat,
Məzlum insanın nicatı bizdədir.

Kapitalist ölkəsində bax böhrana,
Nəzər yetir ondakı lüt-üryana.
Tikməyə bez tapmayırlar yorğana,
Xam mal, ipək hasilatı bizdədir.

Nə yazdan qorxumuz vardır, nə qışdan,
Nə borandan, nə qardan, nə yağışdan.
Ölkəmizdə neft çıxır bir qarışdan,
Bol yanacaq ehtiyatı bizdədir.

Kapitalist ölkəsində zəhmət çəkən
Aclığından qan qusur ləyən-ləyən
İnsanın zəhmətin qiymətləndirən
Böyük dövlət mükafatı bizdədir.

Qələt etsin düşmən öz babasilə,
Oynamasın atomun havasilə.
Qorxuda bilməz bizi bombasilə,
Sülhün gözəl ənənatı bizdədir.

Bilsin bunu Bevin, Trumen, Şuman,
Sülh gələcək hərbə qalib hər zaman.
Milyonların əlilə imzalanan
Stokholmun bəyanatı bizdədir.

## MÖVHUMAT QƏHRƏMANLARI

Yardı başın bir sürü kəlpeysər, aşura günü,
Batdı qanə kirli, paslı xəncər, aşura günü.

Baş yaranda qız sevib çayçı Xuduş, baqqal Həsən,
Şoşkaya seyğəl verirdi it Nəbi, dərzi Əmən.
Firniçi, halva satan, carçı, suçu geymiş kəfən,
Özlərin meymun qayırmış yeksər, aşura günü.

Rövnəqə saldı keçəl Nüsrət bu ilki matəmi,
Qoydu zəncirin yerə Səttar kişi, Dursun əmi.
Şor satan Allahqulu, tiryək çəkən çəpgöz Məmi
Qızlara göz-qaş atarlardı hər aşura günü.

Baş yarıb əllaf Qəzənfər xəlqi heyran eylədi,
Aşpaz Əşrəf kuxnada[1] xəncərlə tufan eylədi.
Usta Qənbər başları çətrib neçə qan eylədi,
Həzrətə matəm tutub bu xərlər, aşura günü.



[1] kuxnya-mətbəx

# VƏTƏN MÜHARİBƏSİ GÜNLƏRİNDƏ ƏSGƏRLİKDƏN QAÇIB GİZLƏNƏNLƏRƏ

Çıx, daha şkafın dalından, oğlan,
Olsun anan şəstinə qurban, oğlan.

Titrəmə, əsmə, düşmə çox tirtapa,
Bir salavat de, qəlbin aram tapa.
Qorxma heç, incəlib dönmə sən, sapa,
Qarnı motal, peysəri şalban oğlan.
Çıx, daha şkafın dalından, oğlan.

Tülküsifət düşməni sandın aslan,
Aldı bu gün zərbə bizim ordudan.
Durmadı, tez qaçdı hərif qorxudan.
Dönüb aslan oldu bir siçan, oğlan.
Çıx, daha şkafın dalından, oğlan.

Saxladı rüşvət əgər oddan səni,
Qorxdun udub məhv edər xortdan səni.
Tarix isə sildi həyatdan səni,
Düşdü adın dəftərə qorxan oğlan.
Çıx, daha şkafın dalından, oğlan.

Düşmən hücum etdi bizə xəlvəti,
Biz ona verdik azacıq fürsəti.
Sən tez unutdun namusu, qeyrəti,
Qaçmağa, saldın ələ imkan, oğlan.
Çıx, daha şkafın dalından, oğlan.

Əjdəha tək sanmış idin düşməni,
Qorxdun udar naqqa kimi ölkəni.
Zənn eləyirdin ki, yeyərlər səni,
Çıxar əlindən dəli ceyran, oğlan.
Çıx, daha şkafın dalından, oğlan.

Bir azacıq düşmənə düşdü fürsət,
Tez səni qorxudan götürdü heyrət.
Qalmadı səndə nə təpər, nə qeyrət,
Tükəndi taqətin, fors atan oğlan.
Çıx, daha şkafın dalından, oğlan.

Düşməni ordumuz cana gətirmiş,
Cəbhədə düşmən öz başın itirmiş.
Şanlı vətən milyon oğul yetirmiş,
Hər biri bir igid, qəhrəman, oğlan.
Çıx, daha şkafın dalından, oğlan.



## GET, AY BATANDAN SONRA GƏL

Xəlq arasında belə bir mahnı var,
Min illərlə səslənər, ölməz, yaşar.
O mahnını sevinclə oxuyurlar:
“Get, ay batandan sora gəl, ay oğlan,
Ellər yatandan sora gəl, ay oğlan”.

Marşal Amerkadan gəlcək İrana,
Həmən gündən İran qaldı virana.
Onda ki, var-yoxu yığdı Həmədana,
Get, ay batandan sora gəl, ay oğlan.
Millət yatandan sora gəl, ay oğlan.

Çexoslovakiya, Rumınya, Polşa
Marşalı bir yolluq saldılar başa.
Biz tərəfdən gəmin toxundu daşa,
Get, ay batandan sora gəl, ay oğlan,
Nömrən tutandan sora gəl, ay oğlan.

Türklər Amerkadan borc pul alanda,
Qanmadı ki, sonra qalar amanda,
Fəstinədək var-yoxu satılanda.
Get, ay batandan sora gəl, ay oğlan.
Dövlətin, ölkənin tərəqqisinə
Xələl qatandan sora gəl, ay oğlan.

## BOYLANA-BOYLANA

Ölkəmizdə boy atdıqca
Gündən-günə nəhəng evlər,
Al yaşıla büründükcə
Gəlin kimi qəşəng evlər,
Hər görənə nəşə verir
Çiçək tək rəngbərəng evlər.
Adam sanki gülüstana
Baxır boylana-boylana.

Ölkəmizin inkişafı
Uğrunda hər vətənpərvər
Öz zəhmətin əsirgəmir
Yorulmadan axşam, səhər.
Minlərcə öz yaratdığı
Möcüzəyə zəhmətkeşlər
Alnı açıq, mərd-mərdana
Baxır boylana-boylana.

Təəssüf ki, bəziləri
Bürokratlığa can atır.
Sürət ilə gedən işə
Mane olur, xələl qatır.
Qırqovul tək başın soxur
Yarıyadək kola, yatır.
Quyruğuyla köndəlana
Baxır boylana-boylana.

Bəziləri ticarətdə
Nöqsanları görə-görə,
Az da olsa istəməyir
Heç özünə zəhmət verə.

Yaxından göz yetirməyir
Ziyankara, hiyləgərə.
Stol arxasından ona
Baxır boylana-boylana.

Bəziləri kölgələnir.
Arxasın verməyir günə,
Qış üçün yem planını
Yazda yetirmir yerinə.
Sonra camış gözlərini
Dikir ferma müdirinə.
Bu yandan da arıq dana
Baxır boylana-boylana.

Bağçalarda pişik var ki,
Geyir zavxoz[1] formasını,
Güdür siçanlar yeməsin
Uşaqların normasını.
Siçanlardan qabaq özü
Doldurur öz torbasını.
Müdir də hərdən qazana
Baxır boylana-boylana.

Görən görür, bilən bilir,
Biz sözün canın deyirik.
Bəzi para xəstəliyin
Tapıb dərmanın deyirik.
İş burasındadır ki, biz
Kimin nöqsanın deyirik,
Hamı dönür birdən ona
Baxır boylana-boylana.

---

[1] zavxoz – təsərrüfat müdiri

## AY HARAY
*(xalq mahnısına parodiya)*

İzin verin başlayaq, ay haray,
Maraqlı söhbətmizi, ay haray.
Dinləyici eşitsin, vay-vay,
Bu yeni kupletmizi, vay-vay.

Ötüşdü yaz günləri, ay haray,
Bu gün-sabah qış gəlir, ay haray.
Deyirlər ki, şəhərdən vay-vay,
Kəndə müfəttiş gəlir, vay-vay.

Bəzi para adam var, ay haray,
Şənliyə şıllaq atır, ay haray.
İş-gücünü buraxmış, vay-vay,
Hey maşın alıb-satır, vay-vay.

Bizim yeni binada, ay haray,
Krandan su axmayır, ay haray.
Üçüncü mərtəbəyə, vay-vay,
Bir gilə su çıxmayır, vay-vay.

Mağazaya mal gəlir, ay haray,
Neylon, perlon, şal gəlir, ay haray.
Alıcılar gəlməmiş, vay-vay,
Əvvəlcə dəllal gəlir, vay-vay.

Konsertlərdə orkestr, ay haray,
Muğamatı az çalır, ay haray.
Fasiləsiz bir ucdan, vay-vay,
Zaqraniçni caz çalır, vay-vay.

Xalq televizor alır, ay haray,
Qırmızı onluq verir, ay haray.
Studiya da il boyu, vay-vay,
Köhnə film göstərir, vay-vay.

Trolleybus qabaqlar, ay haray,
Dırmaşardı düz dağa, ay haray.
İndi dönüb olubdur, vay-vay,
Lap çanaqlı bir bağa, vay-vay.

Stadionda çox zaman, ay haray,
Maraqlı futbol olur, ay haray.
Lovğalanan komanda, vay-vay,
Uduzub, üç nol olur, vay-vay.

Biz ucadan səslərik, ay haray,
Eşitsin idarələr, ay haray.
Bəlkə bu nöqsanlara, vay-vay,
Tez tapıla çarələr, vay-vay.



# YERİ GƏLƏNDƏ

Biz incəsənət ustalarıyıq,
Xəlqə, vətənə xidmət edirik.
Doğruya, düzə, haqqa sarıyıq,
Yoldan azana töhmət edirik
Yeri gələndə, yeri gələndə.

Hər adamda bir sifət görürük,
O sifətlərin əksin alırıq.
Yaxşıya yaxşı qiymət veririk,
Pis adamları başa salırıq
Yeri gələndə, yeri gələndə.

Xəlqimiz bunu çox gözəl bilir,
Yurdsuz adamlar bədgüman olur,
Daim axtarır əməksiz gəlir,
Gah lotu, gah da rövzəxan olur
Yeri gələndə, yeri gələndə.

Uzun-uzadı nağıl danışan
Məruzəçini anlamaq olmur.
Ruhunu sıxıb əzdiyi zaman
Durub ağzını bağlamaq olmur
Yeri gələndə, yeri gələndə.

Bəzi vətəndaş fərəhlənərək,
Özü özünə balelşik[1] deyir.
Bir bu adamdan soruşan gərək

[1] bolelşik-azarkeş

Futbolda neçə kök qapaz yeyir
Yeri gələndə, yeri gələndə.

Zəhlə aparan bəzi mahnılar
İnsanın tamam beynini yorur.
Yaxşı ki, asan bir vasitə var,
Radionu tez bağlamaq olur
Yeri gələndə, yeri gələndə.

Baxınız, bu saç uzadanlara,
Hərə bir gözəl bir qıza dəyər.
Bilsələr ki, xalq gülməz onlara,
Şalvarı atıb, yubka geyərlər
Yeri gələndə, yeri gələndə.

Tənqid edəndə bir vətəndaşı,
Özündən çıxır, halı dəyişir.
Qəlbi kin dolur hər sözə qarşı,
Başlayır sonra ipini eşir
Yeri gələndə, yeri gələndə.

Bəzi özünü karlığa qoyan
Qulaq asmayır deyilən sözə.
Son peşimanlıq baş verən zaman
Gah döyür başa, gah döyür dizə
Yeri gələndə, yeri gələndə.

Burda söhbəti qurtarırıq biz,
Bir xahişimiz vardır sizlərdən:
Bir nəfər kimi gəlin hamımız
Ədəb öyrənək ədəbsizlərdən,
Yeri gələndə, yeri gələndə.

## XALİS ŞİƏLƏR

On bir ay bu ümmətin əldə butulka, ya Hüseyn,
Nuş edərlər badə, sənsiz, rumka-rumka, ya Hüseyn.

Böylə ümmət ki, sənin var, yoxdur heç bir kimsənin,
Bir ziyarətgah olubdur bunlar üçün mədfənin.
Oğru, cibgir, qolçomaq, tiryək çəkən yeksər sənin
Fikrin ilə hamısı olmuş “çıxotka”, ya Hüseyn.
Nuş edərlər badə, sənsiz, rumka-rumka, ya Hüseyn.

Kərbəlayi, məşhədi, hacı çəkərlər həsrətin,
Bir sürü cahillərə vermiş şəfaət türbətin.
Ol qədər soyğunçuluqda ad edibdir ümmətin,
Qorxudan tutmaz qadınlar əldə sumka, ya Hüseyn.

Bəxtiqarə ümmətin hər il məhərrəm gəlcəyin
Baş yarıb qan ilə əlvan eyləyir öz köynəyin.
İllər ilə köhnəlib, qurd salmış insan cəmdəyin
Kərbəlayə hər il eylərlər “pasılka”, ya Hüseyn.
Nuş edərlər badə, sənsiz, rumka-rumka, ya Hüseyn.

Seyyid, övladi-peyəmbər içməsə hər gün şərab,
Mollalar saqqalını etməzsə rəng ilə xizab,
Çəkməsə tiryaki dərviş, eyləməz külli səvab,
Rövzəxan vəz eyləməz içməzsə vodka, ya Hüseyn.
Nuş edərlər badə, sənsiz, rumka-rumka, ya Hüseyn.

Məşdi yarmazdı başın, geyməzdi matəm qarəsi,
Gərçi damdan baxmasaydı Məşdinin məhparəsi.
Baş yaranda Məşdinin fantan vuranda yarəsi,
Bağlayardı başına bir köhnə yubka, ya Hüseyn.
Nuş edərlər badə, sənsiz, rumka-rumka, ya Hüseyn.

## VURUR

Üzlərdən iraq, var elə adam
Köhnə fikrini etdirir davam.
Ara vurmağa axtarır məqam,
Hər yerə çatır oturur-durur:
Nala da vurur, mıxa da vurur.

Belə bir adam təzə olsa da,
Fikri köhnədir yeni dünyada.
Geyinib gəzir, yeyir ortada,
İşi, peşəsi fəqət bu olur:
Nala da vurur, mıxa da vurur.

Üzünə adam maskası taxır,
Maska altından qurd kimi baxır.
Saman altına suyu buraxır,
Sonra çəkilib bir yana durur:
Nala da vurur, mıxa da vurur.

Elə adam var, leksiya deyir,
Dediyi sözü özü bilməyir.
Sözü ağzına alıb çeynəyir,
Dinləyənlərin beynini yorur:
Nala da vurur, mıxa da vurur.

Bəzisi adam cildinə girir,
Özünü insan qələmə verir.
Qulluğa gircək, başlayır yeyir,
Xalq hesabına qarnı ki doyur:
Nala da vurur, mıxa da vurur.

Xalqın malına göz dikə biri,
Məhbəs olacaq hər zaman yeri.
Belə qurtaraq biz bu şeiri:
Böyük xalqımız alnında qürur,
Bəd əməlləri yıxıb-uçurur.



## TƏRİF

Ey başı kələm, gözləri qax, burnu badımcan,
Saqqalı süpürgə, qaşı sünbül, bığı yovşan.

Solmuş yanağın, balta dişin, yayma qulağın,
Kəl tək boyunun, köhnə qaloş altı dodağın.
Tüklü bədənin, əyri qıçın, vəl tək ayağın,
Hər kəs yuxuda görsə səni, qorxacaq əl-an.
Ey başı kələm, gözləri qax, burnu badımcan .

Başdan dibədək vəsfini izahə nə hacət?
Dırnağə kimi cismini basmışdır üfunət.
Bu tövr ilə gərçi olasan daxili-cənnət,
Bilşübhə səni xoşlayacaq huriyi-qılman.
Ey başı kələm, gözləri qax, burnu badımcan.



## BAX, BU QƏDƏR, BAX, BU QƏDƏR

Cümlə cahan xalqı görür aşikar,
Bizdə ədalət də, səxavət də var.
Ölkəmizin xalqı firavan yaşar,
Bilmərik aləmdə nədir qəm, kədər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

Ölkədə çapqınçı, talan görməzsən,
Ac-yalavac, yolçu, filan görməzsən.
Milli fəsad, fitnəsalan görməzsən,
Qardaş olub Məmməd, İvan, Bağdasər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

Kim vətən uğrunda əmək sərf edir,
Yaxşı bilir əsl yaşayış nədir.
Var elə səhlənkar adam mində bir,
Müftə yeyər, qarnı motal tək köpər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

Yaltaq adam meyl eləyər şöhrətə,
Bəlkə əl öpməklə çata hörmətə.
Quyruq olub bəzi qaban surətə,
Xeyri üçün hər gün ona baş əyər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

İçkiyə qanmazlar həvəskar olar,
Ömrünü gənclikdə edər tarü mar.
Bəzi adamlarda bu xasyət də var,
Adət edib içkiyə axşam-səhər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

Bəzisi pul görsə, aciz qalmayır,
Rüşvətə zahirdə meyil salmayır.
İşlədiyi yerdə qəpik almayır,
Müştərisi ancaq evə göndərər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

Bəzi müəllim də olur şarlatan,
İstədiyi yerə çatır çox asan.
Çünki deyir pislərə "beş" yazmasam,
Xeyli cibişdanə zərərdir, zərər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

Bir neçə şofer əl atar daş-başa,
Məsələni bəzisi düşmür başa.
Yığdığının yarsı gedir dəstxoşa,
Yarsını da avtoparka xərc edər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

Bir kişi bir arvada meylin salır,
Sonra gedib başqa bir arvad alır.
Evdə uşaqlar alimentsiz qalır,
Fatma, Tükəz, Səkinə düşür dərbədər.
Bax, bu qədər, bax, bu qədər, bu qədər.

## ON BEŞ GÜN

Yeni əmri etsək təhlil – on beş gün!
Məncə, heç az müddət deyil “on beş gün”.
Qanmaza təsir etməsə, zənn edirəm,
Qanan üçün keçər bir il “on beş gün”.

Biri təyin olur müdir on beş gün,
Qanuna riayət edir on beş gün.
Stolunu möhkəmlədir, ondan sonra
Hər ay öz cibini güdür on beş gün.

Bir oğlan qıza dil tökür on beş gün,
Qızın önündə diz çökür on beş gün.
Razılaşıb ZAQS-a gedib, qeyd olurlar,
Evlənmək, boşanmaq çəkir on beş gün.

Bəzi şofer kursda qalır on beş gün,
Altı ayda təhsil alır on beş gün.
Sonra direktorla şərik daş-başçün
Özünü rayona salır on beş gün.

Kolzoxçu var, işə çıxır on beş gün,
Bir az koldan-kosdan yığır on beş gün.
Qalan günün keçirir bazarlarda,
Ya çayxanada mırt vurur on beş gün.

Bir nəfər məruzə edir on beş gün,
İçkinin ziddinə gedir on beş gün.
Ancaq üç yaşar oğluna özü kimi
İçməyin təhrin öyrədir on beş gün.

Bəzi müdir hiddətlənir on beş gün,
Sərxoşlara töhmət verir on beş gün.
Müdirin yaxşı cəhəti ondadır
İdarəyə ayıq gəlir on beş gün.

Bəzisi mal alıb-satır on beş gün,
İstədiyi xeyrə çatır on beş gün.
Bu xeyr işin ancaq bircə eybi var:
Adam gedib damda yatır on beş gün.

İstər qadın, istər kişi – on beş gün.
Kim pozsa dinc asayişi – on beş gün.
Unutma, hər bir xırda təhqiratın
Dinməz-söyləməz var işi – on beş gün.



## KEÇƏR GEDƏR

Qədim zaman bir belə söz demişlər köhnələr,
Dünyanın işin necə tutarsan, keçər gedər.
Bu sözü müftəxorlar bu cür təhlil ediblər,
Yəni tək öz qarnını otarsan, keçər gedər.

Ticarət işlərində əgər baş müdir olsan,
İdarənin işlərin tamam öhdənə alsan,
Ələ bir neçə “latok”, bir neçə “toçka” salsan,
İldə birin beş yüzə satarsan, keçər gedər.

Mağazada işləsən, daş-baş işin unutma,
Nə iş tutsan gizli tut, çalış aşkara tutma.
Varenyanı, pendiri dükanda çox qurutma,
Böyrünə bir vedrə su qatarsan, keçər gedər.

Alış-verişçilərlə əlaqə saxla hər gün,
Yoxsa yağın qaxsıyar, qurd salar qəndin, düyün.
Gördün işin şuluqdur, kələf düşübdür düyün,
Öz işçini müqəssir tutarsan, keçər gedər.

Dövlət pulun kassadan xərclədiyin zamanda,
Qorxma, loğma boğmadır, qoymaz səni amanda.
Adamdır, işdir biri səni bərkə salanda,
Ağzına beş-altı yüz atarsan, keçər gedər.

Mən dediyim sözləri dərindən hər kim qana,
Ömrü boyu heç zərər, ziyan toxunmaz ona.
Əyriliyi büsbütün atsan əgər bir yana,
Düzlük ilə məqsədə çatarsan, keçər gedər.

# ARVADLARIN MOLLA NƏSRƏDDİN AEROPALANINA İANƏ GÖNDƏRMƏLƏRİ

Ay qız, ay Gülpəri, ay Şahsənəm, ay laxta Cahan,
Belə nəql etdi keçən həftə mənə Molla Zaman:
Molla Nəsrəddin alır uçmaq üçün aeropalan,
Bilmirəm doğrudu bu məsələ, yainki yalan.

Düzdür, ay qız, mən eşitdim Qara Ümmülbəni də
Yazdırıbdır qəzetə burnu yarıq Həlməni də.
Kilkəbaş Qızbacını, Nurşərəfi də, səni də,
Vasvası Gülsənəmi, əyriağız Zeynəbi də.

Çöpçü Bilqeyisin ağız, təhrinə bax, tövrünə bax,
Göndəribdir o da bir haftava, bir cüt oymaq.
Çırtapırt Hürnisə bir parça əhəng, bir də çanaq,
Qaş alan Xanbacı bir çetver həna, bir də daraq.

Kəblə Umsəlmə, keçəl Gülbacı, böbö Leyla
Göndəriblər iki dəhmərdə ilə bir də kasa.
Yıdıcı Urbaba, zarıntı Bahar, pinti Ziba
Birisi göy gilabı, ikisi xəkəndazla maşa.

Hələ dul Gülnisədən yox xəbərin, xanəxərab
Göndəribdir o da incir riçalı ilə doşab.
Kəblə Gülgəz iki cüt bəxş eləyib rəngli corab,
Mürdəşür Xəccə də göndərmiş iki yağlı qutab.

## QIZIM VAR

Mən də fəxr edirəm ki, cəvanəzən qızım var,
Hər işdə can yandıran, hər iş bilən qızım var.

Səhər açılmamışdan məşğələsi kitabdır,
Qarşısında qoyduğu məsələsi kitabdır.
Sanki qohum-qardaşı, ailəsi kitabdır,
Görən güman edir ki, kara gələn qızım var,
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

Dərs oxuyub-yazanda dindirirsən, çımxırır,
Deyir ki, mane olma, sözüm yadımdan çıxır.
Şeir deyir, mədh edir, Moskvadan dəm vurur.
Bəxtəvər olsun başım, şeir deyən qızım var.
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

Fikri-zikri hər gecə teatrdır, kinodur,
Bir gecə getməyəndə, evdə bir yekə lovdur.
Qız deyildir, bəladır, can yaxıcı alovdur,
Şeytan əməllərindən əl üzməyən qızım var.
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

Qonşuların qızları min yerə əl atırlar,
Müdirlərlə dostlaşıb, aşnalığı qatırlar.
Aztapılan mal alıb, evarası satırlar,
Fəxr edir analar ki, deyib-gülən qızım var.
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

Gah bürünüb çadraya, gah şlyapa geyirlər,
Pudralanıb, rənglənib, özlərin sevdirirlər.
Satıcının qəlbinə min kələklə girirlər,
Amma mənim xeyrimi düşünməyən qızım var.
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

Hey deyirəm, ay qızım, sən də bir işə yara,
Qohum-qonşu yanında üzüm olmasın qara.
Bəxtəvər analar tək mən də geyim şal, xara,
Deyim ki, dünyada min cana dəyən qızım var.
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

Heç olmasa mən yazıq bəxtəvər analar tək,
İl günü qızlarından bixəbər analar tək,
Sataydım kapron corab mən də hər analar tək,
Deyəydim bazarları seyr eləyən qızım var.
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

Bu şanlı ölkəmizdə nəzər salsaq hər yana,
Yüksək elm ilə sənət fərəh verir insana.
İftixarla qoy desin hər düşüncəli ana:
Yüksək elmə, sənətə həvəslənən qızım var.
Mən də fəxr edirəm ki, cəvanəzən qızım var.

# ÖZ ARAMIZDA QALSIN

İzn verin, başlayaq bu yeni kupletimizi,
Dinləyici eşitsin maraqlı söhbətimizi.
Saxlasın qulağında bizim nəsihətimizi,
Ədəbli biədəbdən lazımi ibrət alsın.
Bu şərtilən ki, söhbət öz aramızda qalsın.

Ötüşdü yaz günləri, bu gün-sabah qış gəlir,
Duman çökür çöllərə, yel əsir, yağış gəlir.
Deyirlər ki, şəhərdən kəndə müfəttiş gəlir,
Yoxlasın nöqsanları, çətinliklər azalsın.
Çox alır, ya az alır, öz aramızda qalsın.

Texnikumu bir təhər bitirdim, yola saldım,
Sonra gedib bir təhər institutda qaldım.
Zəng elədi daydayım, düzəltdi, diplom aldım,
Dostlarımın yanında ta ki, başım ucalsın.
Rektorumuz bilməsin, öz aramızda qalsın.

Ölkədə iqtisadi işə xələl qatanlar,
Fırıldaqçılıq ilə müftə xeyrə çatanlar.
Meyvəni kolxozçudan alıb baha satanlar,
Cəhd eləyirlər elə hərə bir "Volqa" alsın.
İdarələr bilməsin, öz aramızda qalsın.

Qədim zaman adamlar günü axşama qədər
Xoruz, qoç döyüşdürüb, keyf edərdilər əgər.
İndi isə şoferlər maşın döyüşdürürlər,
Cəhd edirlər şəhərdə hadisələr çoxalsın.
Buna səbəb araqdır, öz aramızda qalsın.

Bəzi düz yolu qoyub əyri yola gedəndə,
Biz onun əməllərin görüb tənqid edəndə;
Deyir mən ifaçıyam, təqsiri görmə məndə,
Qoy mənim öz müdirim özü qeydimə qalsın,
Qaytarıb əyri yoldan, məni düz yola salsın.



# GET İŞİNİN DALINCA

İndiki şən həyata baxıb nəzər salanda,
Görürsən aramızda bilən də var, qanan da.
Orda-burda toplaşıb deyirlər: “Son zamanda
Əlin cibdə olmadı, get işinin dalınca”.

Bir tələbə görürsən əzab-əziyyət çəkir,
O, əlaçı olmağa il boyu zəhmət çəkir.
Can qoyur, qan-tər tökür, başı müsibət çəkir,
Elmi hər bir cəhətdən mənimsəyib qanınca,
Ad qazanır şərəflə diplomunu alınca.

Var eləsi görürsən yol verir pozğunluğa,
İdarədən çıxardıb qovurlar bir yolluğa.
Tanışlıqla düzəlir, girir başqa qulluğa,
Mən belə eyləməzdim, əgər mənə qalınca,
Deyərdim: ”Dələduzsan, get işinin dalınca”.

Trolleybusun işi lap biyabırçılıqdır,
Pəncərəsi, qapısı tamam sınıq-sınıqdır.
Daş-baş üstündə ancaq mərəkə, fısqırıqdır,
Konduktor dərsin alır, sumkası boşalınca.
Sonra deyirlər ona: “Get işinin dalınca”.

Komanda arasında haçan ki, yarış keçir,
Ayıq azarkeş baxıb, yaxşını pisdən seçir.
Var eləsi görürsən bir litr araq içir,
Neftçinin komandası tam qələbə çalınca.
Yarım litr də içir özün evə salınca.

Bəziləri deyir ki, qoy atım vicdanımı,
Təki fırıldaq ilə doldurum həmyanımı.
Sən ancaq çıxış edib söyləmə nöqsanımı,
Yoxsa sıxışdırarlar məni dədəm yanınca.
Deyərlər mənə:”Rədd ol, get işinin dalınca”.



# DUA YAZAN MƏKTƏB MÜDİRİ

Bir müdirəm, nə edərsəm səsim ehmal çıxar,
Bitirən məktəbimi mən kimi rəmmal çıxar.

Zahirən surətimə hər kim əgər salsa nəzər,
Bir müəllimlik əlamətlərini məndə görər.
Mütəllimlərə elmim o qədər etmiş əsər,
Oxuyub doktor olan, axırı baqqal çıxar.
Bitirən məktəbimi topqarasaqqal çıxar.

Bir zaman xəlqi soyardım dişü dırnağım ilə,
İndi də oynadıram min oyun oymağım ilə.
Qoymuşam sandığa əmməməmi qurşağım ilə,
Bəd ayaqda geyərəm, çeynəməyə yal çıxar.
Bitirən məktəbimi top qarasaqqal çıxar.

Hər dua yazmağıma beş manat alsam, pis olar?
Füqəranı qara əfi kimi çalsam, pis olar?
Gündə beş-altı toyuq, qaz ələ salsam, pis olar?
Mənfəət çıxsa mənə, iştə bu minval çıxar.
Bitirən məktəbimi mən kimi rəmmal çıxar.

# AŞIQ MAHNISINA BƏNZƏTMƏ

Əziz dostum, diqqət ilə Bakının dam-daşına bax,
Könül açan binaların nəqşinə, nəqqaşına bax.
Bakımıza hər gün, inan, az deyildir heyran olan,
Gen küçələr, bağlar salan mühəndisin başına bax.

Bakı geyibdir əyninə al xaradan ipək donu,
Geridə qoymuş Pariji, ötüb-keçibdir Londonu.
Yarışa dəvət eləyir İstanbulu, Vaşinqtonu,
Nəhəng addım atmasına, cəmi əlli yaşına bax.

Şəhərmizin tərəqqisi bəllidir hər bir insana,
Gözəllikdə adı, sanı yayılmışdır hər bir yana.
Mingəçevirlə Daşkəsən hələlik dursun bir yana,
Bakı ilə yan-yanaşı Sumqayıt qardaşına bax.

Dünyanın hər bir yerində şəhərimizin şöhrəti var,
Yaradan əllər ucundan dövlətimiz həddən aşar.
Hamı bilir ki, xalqımız damağı çağ, varlı yaşar,
Fəhlə ilə kolxozçunun altındakı maşına bax.

Demək olmaz yerli-dibli heç bir nöqsan yoxdur bizdə,
Diqqət etsək, xırda-xuruş gözə çarpar şəhərimizdə.
Elə adam var özünü doğruçu göstərir üzdə,
Yoxlayaq astar üzünü, etdiyi daşbaşına bax.

Bizim bu varlı dövrana əyri gözlə baxan da var,
Boşboğazlıq edənlər də, hələ qara yaxan da var.
Müftəcə xalq hesabına xirtdəyədək tıxan da var,
İnanmasan, gəlib yoxla etdiyi daşbaşına bax.

Bir para moda düşkünü adama oxşasın deyə,
Həftədə bir neçə kərə gəlib-gedəndə dəlləyə.
Qaşlarını qırxıb tökür, dönür ütülmüş kəlləyə,
Əl-üzünü yuyan zaman kipriyinə, qaşına bax.

Restoranlar hər gün alır təzə, yağlı qoyun əti,
Dadlı-tamlı xörəklərin ağızdan getmir ləzzəti,
Gedib bəzi restoranı dərindən yoxla xəlvəti,
Mal ətindən lüləkabab, dupduru bozbaşına bax.

Təzə evin balkonuna yaxından eylə tamaşa,
Tənəkdəki üzümləri sallanıbdır qoşa-qoşa.
Üzbəüz qonşu balkonda cərgə ilə, başdan-başa
Asdıqları əsgilərin qurusuna-yaşına bax.

Şəhərimizin nəqliyyatı artdıqca artır sürəti,
Mədəni bir üsul ilə göstərir xalqa xidməti.
Amma bəzi adam var ki, biletsiz gedir xəlvəti,
Görən deyir tərbiyəsiz sovet vətəndaşına bax.

Adam var ki, zəhmət çəkir məqsədinə yetmək üçün,
Adam da var fikirləşir fırıldaq işlətmək üçün.
Onların çirkin əməlin yazıb ifşa etmək üçün
Tənqidçinin daşdan keçən iti karandaşına bax.



# HƏYASIZ İT

Mən hələ xırda ikən qonşumuz Şərəbanı
Deyirdi, oğlanlarım, gəzəndə el-obanı,
İt sizə rast gələndə oxuyun bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
Onda sizə toxunmaz qudurmuş olsa da it.

Doğrusu, bu duanı mövhumat hesab etdik,
Biz əsla inanmadıq, onun ziddinə getdik.
Son zamanlar misirli dostumuzdan eşitdik,
Gördük o uca səslə oxuyur bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
Çək əlini Misirdən, utanmaz, həyasız it.

Bir zaman Ərəbistan yüz yerə parçalandı,
Təcavüzkar əl ilə ərəb xalqı talandı.
İnsan qanı sel kimi səhralara calandı,
İndi birləşib ərəb oxuyur bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
Çək əlini Şərqdən, utanmaz, həyasız it.

Bu gün gördüyün ərəb dünən gördüyün deyil,
O yaşamaq istəyir daim azad, müstəqil.
Təcavüzkarlığından əl çək, Livandan çəkil,
Əldə silah, igidlər oxuyur bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
Çək əlini Şərqdən utanmaz, həyasız it.

Burnunu dinc ölkəyə soxma, Britaniya,
Donuz öz yatağını gərək yaxşı tanıya.
Yırtıcılar məskəni deyil İordaniya,
İordaniya xalqı oxuyur bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
İordaniyadan çıx, utanmaz, həyasız it.

Tutmuş ikən cahanı xalqın azadlıq səsi,
Sənin qəsbkarlığın düşündürür hər kəsi.
Yağdırır lənət sənə bütün ərəb ölkəsi,
İraq, Misir, Suriya oxuyur bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
Çək əlini Şərqdən, utanmaz, həyasız it.

Tayvandan köpək kimi çox hürməsin Çan-Kay-Şi,
Fitnəkar Amerkaya güvənməsin nakişi.
Altı yüz milyon çinli, təcavüzkara qarşı,
Sovet xalqıyla birgə oxuyur bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
Çək əlini Tayvandan, utanmaz, həyasız it.

Sənin qətlinə fərman yazıbdır özü zaman,
Məhv olub gedəcəksən, inan, qətidir fərman.
Bu əmri imzalamış bütün sülhsevər insan,
Azadlıq uğrunda xəlq oxuyur bu duanı:
“Və kəlbəhüm baz tü ziraihim bilvəsid”.
Çək əlini Şərqdən, utanmaz, həyasız it.

# İMTAHANDAN-İMTAHANA

Kirpi lələ, yuxunda da heç gətirməzsən gümana,
Bilsən əgər nələr olur imtahandan-imtahana.

Hər kəsin öz əmoğlusu, yerlisi var, hörməti var,
Üç kərə üç neçə edər, bilməyənin qiyməti var.
Özgəsinin həqiqətən "beş" almağa cürəti var,
Təəssüf ki, bir kənarda durub baxır yana-yana,
Baxın görün nələr olur imtahandan-imtahana.

Şöbələrin hər birinin əlaltısı, dəllalı var,
Baş bilənə yanaşmayır, bilir onun bir qalı var.
Bunlar hələ bir tərəfə, dinlə, sözümün dalı var,
Zəng edənin qarşısında oğul istərəm dayana.
Sorğusuz qəbul olunur imtahandan-imtahana.

Bəzi para müftəxora adam baxanda mat qalır,
Bu işlərə nəzər salan qəzəblənir, fikrə dalır.
Deyir, düşüncəsiz adam qanmır əgər rüşvət alır,
Bəs bu qanan düşüncəli niyə alır qana-qana?
Bu işlərə nəzər salaq intahandan-imtahana.



# İMTAHANQABAĞI

Mümkün olsa, bir dəqiqə dinlə məni, Kirpi lələ,
Son zamanlar ovqatımı təlx eləyib bir məsələ.
Vaxtın olsa, özün gəlib öz gözünlə təsdiq elə,
Bizim kvartalda olur nələr imtahanqabağı!

May ayından başlayaraq, bizim yeni gözəl bina,
Tamamilə fermalaşıb, bəslənilir buzov, dana.
Camış, inək, toyuq, cücə, qaz, ördək hələ bir yana,
Hər blokda qoyun-quzu mələr imtahanqabağı.

Xoruzların banlaması, anaş toyuqların səsi,
Gün çıxınca, fasiləsiz bir muğam çalır hərəsi.
Dil anlamaz heyvərələr yatmağa qoymur heç kəsi,
Kim görəsən buna əlac edər imtahanqabağı?

Məncə, ferma təşkil olub, nəzir-niyaz cəmləməyə,
Bəziləri öz sürüsün suvarmağa, yemləməyə.
Gələn tədris ilinədək boğazını nəmləməyə
Evlərinə yağ, düyü də gələr imtahanqabağı.

Dəftərə "beş" yazmaq üçün kağız-qələm inciməyir,
Haqqını ver, diplomu al, qapaz da vur, söz deməyir.
İş budur o, aldığını şəxsən özü tək yeməyir,
Müdir ilə dostcasına bölər imtahanqabağı.

## CİBİN DÜYMƏLƏ, DÜYMƏLƏ

Tramvaya minən dilbər, cibin düymələ, düymələ.
Bazarlara gedən dilbər, cibin düymələ, düymələ.

Bazarlarda bol ət olur, üstündə yağ qat-qat olur,
Gündə bir cür qiymət olur, cibin düymələ, düymələ.

Parikmaxer üz qırxanda, gözdən bir-bir tük qırpanda,
Birə üç artıq alanda, cibin düymələ, düymələ.

Konduktordan heç incimə, mədəni xidmət gözləmə,
Sdaçini qaytar, - demə, cibin düymələ, düymələ.

Restoranda hər şey bişər, ye-içginən, al nəşələr,
Şot yazanda kelnerşələr, cibin düymələ, düymələ.

Nöqsan çoxdur, desəm əgər, çatmaz çernil, kağız, qələm,
Taksiyə ki, qoydun qədəm, cibin düymələ, düymələ.



## SATDILAR

Xan, bəy, ağa, molla, qoçu, mülkədar
Bir yerə toplaşdı, çıxardıb qərar.
Bir dükan açdı bu fırıldaqçılar,
Bollu namus, qeyrət alıb-satdılar.
Bir neçə ay mənfəətə çatdılar.

Xan bu dükanda ad alır, şan satır,
Bəy quru böhtan, ağa vicdan satır.
Molla behişt hurisi, qılman satır,
Mülkədar ilə qoçu heç zaddılar.
Ortada boş hap-gop alıb-satdılar.

Var bu dükanda nə desən təptəzə,
Kovxa təzə, yüzbaşı, mirab təzə.
Üç haça şallaq toxunub lap təzə,
Piyli boğaz kəndiri dörd qatdılar.
Böyrünə qandal da qatıb satdılar.

Burda likör, viski də, şampan da var,
Yaxşı qumar mənbəyi, şantan da var.
Sinəsi mərmər neçə canan da var,
Hər biri bir huri, pərizaddılar.
Bir neçəsin türklərə də satdılar.

## GEC-TEZLİYİ VAR

Qoca ifritəsən, ey min şər edən,
Göz ağartma bizə dağdan, dərədən.
Kim olur-olsun o zillət törədən
Düşəcək zillətə, gec-tezliyi var.

Kim ki, zəhmətkeşə min hiylə qurar,
Kim ki, sülh işlərinə zərbə vurar,
Ona bu gördüyü işlər oturar
Çox baha qiymətə, gec-tezliyi var.

Sam dayı bir kərəlik bilsin onu,
Zalımın dərbədər olmaqdır sonu.
Kim bizə kəc baxa Hitler fasonu,
Gələcək lənətə, gec-tezliyi var.

İngilis tülkü, Amerka canavar,
İran üstündə köpək tək boğuşar.
Arada Usta Məmişin nəyi var,
Gedəcək qarətə, gec-tezliyi var.

Kapitalist sistemi pamal olacaq,
Xalqlar öz haqqını mütləq alacaq.
Ortada Çörçilə hürmək qalacaq,
Düşəcək dəhşətə, gec-tezliyi var.

Azadlığın günəşi bir gün, inan,
Şərqə, Qərbə saçacaqdır buradan.
Bütün insanlar üçün cümlə cahan
Dönəcək cənnətə, gec-tezliyi var.

## ATALAR SÖZÜ

Dəyərli bir misal deyib atalar:
Dilini saxlayan salamat qalar.
Az danış, düz danış, əgər bacarsan,
Boşboğazlıq etmə, əngəl açarsan.
Mən demirəm bunu, atalar deyir.

Çalış, tamahkarlıq etmə dünyada,
Çox yemək insanı tez verər bada.
Bir tikəyə qane olmayan pişik,
Qənarədan asıldığın görmüşük.
Mən demirəm bunu, atalar deyir.

İdarə başçısı olmasa sayıq,
Başçılıq etməyə deyildir layiq.
Çoban kol dibində yatdığı zaman
Canavar sürüyə tez vurar ziyan.
Mən demirəm bunu, atalar deyir.

Ailə başçısı həpənd olanda,
Gör onun övladı nə olar onda.
Bir ata sərxoşluq eləsə əgər,
Övladı çaxırın küpünə girər.
Mən demirəm bunu, atalar deyir.

Tanışlıq yaxşıdır, dostluq gözəldir,
Qohumluq dostdan da artıq gözəldir.
İdarə başçısı qohumun olsa,
Belinə dirəkdir, əlinə əsa.
Mən demirəm bunu, atalar deyir.

Alverçi olmasa çox satıcılar
Lap ərizə verib qulluqdan çıxar.
Satıcı olmasa, müfəttiş olmaz,
Müfəttiş olmasa, heç saziş olmaz.
Mən demirəm bunu, atalar deyir.

Vətəndaş israfçı, atalar məni
Vəkil edib, xəbərdar edim səni.
Yeddi minə şuba alsan arvada,
Məhkəmə hökmünü əvvəl sal yada.
Mən demirəm bunu, atalar deyir.

Ataların sözü gümüş olsa da,
Qanan üçün qızıldır bu dünyada.
Qanmaza çəkməçi bizi batırsan,
Nə ah deyər, nə uf deyər, nə aman.
Mən demirəm bunu, atalar deyir.



## NOVRUZ BAYRAMININ ORUCLUQ AYINA DÜŞMƏSİ

Bu il heç olmadı bir ləzzəti bayramımızın,
Döndü matəm gününə işrəti bayramımızın.

Açmadıq təntənəli süfreyi-əlvanı bu il,
Yemədik süfrədəki paxlava, halvanı bu il,
Çəkmədik biz döşə ləzzətli şəkərnanı bu il,
Getdi, əfsus ki, hədər zinəti bayramımızın.
Döndü matəm gününə işrəti bayramımızın.

Yaxmadıq nur saçan ağ saqqala biz rəngi-həna,
Geymədik əynimizə tirmə, ipək, cübbə, qəba,
Çalmadıq tarda Segah-Zabul ilə Şurü Nəva,
Olmadı zərrə qədər hörməti bayramımızın.
Döndü matəm gününə işrəti bayramımızın.

Düzmədik rəngli yumurta, başa-baş vurmaq üçün,
Salmadıq qalmaqalı bərk, yavaş vurmaq üçün,
Beş qəpikdən ötəri başlara daş vurmaq üçün,
Getdi, məhv oldu bütün bidəti bayramımızın.
Döndü matəm gününə işrəti bayramımızın.

Ramazan bitsə, ziyan yox, işə əncam edərik,
Ayı gördükdə ona min kərə ikram edərik,
Eydi-fitrilə bərabər iki bayram edərik,
Tutar afaqı bütün şöhrəti bayramımızın.
Bütün aləmdə gedər söhbəti bayramımızın.

## ŞEYDİR, ZADDIR

Var elə məruzəçi heyran edir hər kəsi,
Sanki çuvaldan çıxır zalım oğlunun səsi.
Büsbütün başdan-dibə etdiyi məruzəsi
Şeydir, zaddır, zaddır, şey.

Vardır elə müəllim, can deyir dindirəndə,
Var eləsi, görürsən, siniflərə girəndə
Özün çəkir çolpa tək, hər sözü, dərs verəndə,
Şeydir, zaddır, zaddır, şey.

Aşxanalar alırlar yaxşı yağlı mal əti,
Ortalığa çıxanda çıxır çörək katleti.
Borşun içində fəqət, cəlb eləyən diqqəti
Şeydir, zaddır, zaddır, şey.

Mağazaya soxulcaq ikiayaqlı siçan,
Kefi istəyən qədər vurur mallara ziyan.
Müfəttiş gələn kimi müdir söyləyir haman
Şeydir, zaddır, zaddır, şey.

Doymayır israfçının xul balıq kimi gözü,
Nəticədə qurduğu tələyə düşür özü.
Məhkəmə qarşısında sayıqlayır bu sözü:
Şeydir, zaddır, zaddır, şey.

# AĞLAYAN KİŞİ

Arvadıma əcəl vermədi fürsət,
Qaldı bu işıqlı dünyaya həsrət.
Kərim Allah eyləsin ona rəhmət.
İndi oxuyuram onunçün yasin,
Bu şərtlə ki, geriyə qayıtmasın.

Yazıq arvad çox zəhmətlər çəkərdi,
Yolumda çox qanlı yaşlar tökərdi.
Hərdən bir qonşumuz ilə əgərdi.
İndi oxuyuram onunçün yasin,
Bu şərtlə ki, geriyə qayıtmasın.

Namaz qılıb, həmi oruc tutardı,
Qılmanlarla baş-başa çatardı.
Gecə yarısı cibimə əl atardı.
İndi oxuyuram onunçün yasin,
Bu şərtlə ki, geriyə qayıtmasın.

Rəhmətliyin abır-həyası vardı,
Qeyrəti, namusu, vəfası vardı.
Bir əri, səkkiz də zapası vardı.
İndi oxuyuram onunçün yasin,
Bu şərtlə ki, geriyə qayıtmasın.

Əli açıq idi, qonaqsevərdi,
Qohuma, qonşuya pay göndərərdi.
Var-yoxumu tanışına verərdi.
İndi oxuyuram onunçün yasin,
Bu şərtlə ki, geriyə qayıtmasın.

Ağır təbiətli, üzü gülməzdi,
Klub, kino nə olduğun bilməzdi.
İctimai işlərə əyilməzdi.
İndi oxuyuram onunçün yasin,
Bu şərtlə ki, geriyə qayıtmasın.

Adın gərək tezlik ilə pozduram,
Gözəl xətlə baş daşına yazdıram.
Ona elə dərin qəbir qazdıram,
Qoy pis arvad orda çəksin cəzasın,
Payimal olsun, geri qayıtmasın.



## BİR OLAR, YA İKİ

Hər kəs ki, and içsə nöqsanı yoxdur,
Bilin, onun səhvi, nöqsanı çoxdur.
Yadda saxla bu sözümü, unutma,
Hərədə nöqsan bir olar, ya iki.

Bəzi yerdə vardır ögey-doğmalıq,
Qarşısını ancaq alır boğmalıq.
Boş əl ilə imtahana gələndə,
Yaxşı qiymətin bir olar, ya iki.

Yeyintilik olsa bir idarədə,
Müdirdən soruşsan bu iş barədə.
O deyəcək, hamı yemir, doğrusu,
Bizlərdə yeyən bir olar, ya iki.

Bəzi əli əyri işdən çıxarılır,
Gedir daha yüksək vəzifə alır.
Belə işdə zənn edirəm dostluqla...
İcazə verən bir olar, ya iki.

Mənzil bölgüsündə, üzlərdən iraq,
Bir ər, bir arvada düşür üç otaq.
Gah görürsən çoxuşaqlı adamın...
Bəzən otağı bir olar, ya iki.

Xəlqimizə daim minnətdarıq biz,
Onunla bir vurur bizim qəlbimiz.
Doğrusunu söyləməsək, onu bil...
Bizə əl çalan bir olar, ya iki.

## BOŞBOĞAZLAR

Radioda il uzunu hər səhər-axşam
Xırıldayır Amerkanın o mənfur səsi.
Fitnə-fəsad, hiylə-şərdir sözləri tamam,
Hər dəqiqə yalan gedir-gəlir nəfəsi.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

Mikrofona öküz kimi hey gücün vurur,
Sanki ayı nərə çəkir, çaqqal hayqırır.
Öz hürməyi bəs etməyir, kömək çağırır,
O yandan da ingilisin hürür "Bi-bi"si.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

Bu adətdir, boşboğazlar özün təriflər,
Basıb-kəsər qorxusundan qorxaq həriflər.
O zorla ki, Amerka öz zurnasın fülər,
Az qalır ki, lap yerindən çıxsın çənəsi.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

Hey bağırıb deyir bizdə var mədəniyyət,
Yalansa, vicdanına yüz min kərə lənət.
Koreyanı başdan-başa eylədi qarət,
Yaratdığın qatil, oğru, quldur dəstəsi.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

İftixarla, sevinc ilə verirlər xəbər,
Üç min zabit öldürmüşük, otuz min əsgər.
Bu yırtıcı vəhşilərə salın bir nəzər,
Qan içməkdir bunların hər gün vəzifəsi.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

Utanmadan qəzetlərdə verirlər çapa,
Filan-filan şəhərləri tutmuşuq topa.
Qoymamışıq dağılmamış bir şəhər, oba,
Yaratmışıq minlər ilə ölüm səhnəsi.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

Sülhsevərlər görür, bilir, seçir dərindən,
Qaçırmaz heç zaman bunu nəzərlərindən.
Amerkanın, ingilisin hiylə, şərindən,
Tarixin qan ilə dolubdur səhifəsi.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

Sam dayı, bil bunu sənin quru böhtanın
Bir daha baş tutmayacaq, çıxsa da canın.
Hər diyarda, hər ölkədə məzlum insanın,
Dillərinin əzbəridir sülhün nəğməsi.
Əl atsalar hər hansı bir hoqqabazlığa,
Sülhsevərlər son qoyacaq boşboğazlığa.

# BELƏSİ DƏ VAR

Mən bir qızam gözəllikdə mənə bərabər yoxdur,
Mənə layiq istədiyim dəyərli bir ər yoxdur.

Mən elə ər istəyirəm mənim qeydimə qalsın,
Yeni modalı şlyapa, murmurki tufli alsın.

Getdiyim ər istyədiyim pal-paltarı almasa,
Mən onu heç ər saymaram, “Pobeda”sı olmasa.

Hər yetənə mən getmərəm, istər injener olsun,
Mən getdiyim ər ya müdir, ya gərək şofer olsun.

Nə artistə, nə şairə, nə alimə getmərəm,
Pravadnikə gedərəm, müəllimə getmərəm.

Məni alan çirkin olsa, mütləq qəbul edərəm,
Təki mənə şuba alsın, mən ona da gedərəm.



## MOLLA MÜƏLLİM

Bərkiyibdir sümüyüm fitrə-zəkat ilə mənim,
Tutmayir söhbətim heç tərki-səlat ilə mənim.

Əhli-elməm, yenə də gözləyirəm əsli-nəsəb,
Zati-pakim eləyir mollalığı çünki tələb.
Nəyə lazım adıma xəlq desin laməzhəb,
Cismi-pakim yuyulubdur səlavat ilə mənim.
Bərkiyibdir sümüyüm fitrə-zəkat ilə mənim.

Keçmədi üzvlüyümdən, nə edim, bir şey ələ,
İstərəm xəlqə quram, mollalıq etməklə, tələ.
Mollalıq sənət olubdur mənə keçmişdən hələ,
Dostluğum möhkəm olub min həşərat ilə mənim.
Bərkiyibdir sümüyüm fitrə-zəkat ilə mənim.

Bu gözəl işdə heç olmaz bilirəm tay mənə,
Mənfəət bollu veribdir bu gözəl ay mənə.
Zəhmət haqqından avamlar gətirir pay mənə,
Məsləkim yaxşı tutur ağca manat ilə mənim.
Bərkiyibdir sümüyüm fitrə-zəkat ilə mənim.

İndi bundan belə hər işdə gərək mahir olam,
Xeyr-şər olduğu yerlərdə gərək hazir olam.
Hər qaranlıqda qalan kimsələrə amir olam,
Kənd içində ola fərqim həzərat ilə mənim.
Bərkiyibdir sümüyüm fitrə-zəkat ilə mənim.

## EVDAR QADININ ŞİKAYƏTİ

On il olar səninlə evdarlığım,
Yolunda məhv olub bütün varlığım.
Tükətdi ömrümü bu qəmxarlığım,
Gəl, ay qaynanamın gec gələn oğlu.

Təmiz hava nə olduğun bilmərəm,
Fikirlə qüssədən tutmuşam vərəm.
Yatmaram sübhədək, səni gözlərəm,
Gəl, ay qaynanamın gec gələn oğlu.

Heç olmasa, qoyun-quzu hər səhər
Çıxıb çölə, təmiz havada gəzər.
Yox hörmətim yanında heyvan qədər,
Gəl, ay qaynanamın gec gələn oğlu.

Tanışlarım texnikumu qutardı,
Hər biri bir sənətə baş apardı.
Mənim evdə hörüklərim ağardı,
Gəl, ay qaynanamın gec gələn oğlu.

Hər gecə var neçə dəstə-tifaqın,
Stoldan əksik olmayır arağın.
İnturistdən gəlir hər gün sorağın,
Gəl, ay qaynanamın gec gələn oğlu.

Ayda iki min manatdır maaşın,
Əlavə minlərcə olur daşbaşın.
Bişməyir ayda bir kərə bozbaşın,
Gəl, ay qaynanamın gec gələn oğlu.

## KÜRDƏMİR SÖVXOZU

Sovxozun hər işi öz yerindədir,
Saqqalının bir darağı çatışmır.
Çörəkxanası var, heyf ki, ancaq
Farsunkası, xəmir tabağı çatışmır.

Görməmişik, fəqət görənlər deyir,
Sovxozun əntiq çayxanası var.
Binası çox gözəl, çox səliqəli
Stəkanı olsa, çayçıya oxşar.

## XILLI

Elektrik zəif, lampamız bomboş,
Raykoopittifaq[1] da neft gətirməyir.
Hamamları soyuq, evləri uçuq,
Kamunxoz da baxıb göz yetirməyir.

## VARTAŞEN

Sağ olsun Vasqanov, yaxşı işçidir,
Bir eybi vardır ki, biqanacaqdır.
Hər gecə konserti kəsir yarıda,
Bu adətə haçan son qoyacaqdır?

---

[1] Rayon kooperativ yeyinti ittifaqı

## SALYAN

Salyanın Aztorqu[1] ticarətdəki
Qaydaları möhkəm əldə saxlayır.
Hər dükanın vaxtı, öz saatı var,
Kim haçan istəyir, açır, bağlayır.

Keçən ilə nisbət indi Salyanın
Palçığı az qalıb qurşağa çatsın.
Batan maşınları yerin dibindən
Gərək beş-altı kəl çəkib çıxartsın.



[1] Aztorq-Azərticarət

## MAYMAQ

Yatma kudu, bostana dovşan gəlib,
Dur xəbər al, gör ki, hayandan gəlib?

Böyrünü torpağa verib yatma, dur,
Xornanı çox zorla xoruldatma, dur.
Dövlətin əmlakın oğurlatma, dur,
Dur ki, ziyankar tapıb imkan, gəlib.
Bir xəbər al, gör ki, hayandan gəlib?

Vardır həyatda belə maymaq adam,
Başdan-ayağa kududur, vəssəlam.
Arxayın stolda tutubdur məqam,
Keylik onun şəninə şayan gəlib.
Hiss eləmir bostana dovşan gəlib.

Bir işə təyin olunur bir kişi,
Maymaq ona tapşırır hər bir işi.
Heç xəbər almır kim olub keçmişi,
Bəlkə qoyub aləmi viran, gəlib?
Heç xəbər almır ki, hayandan gəlib.

Yoxlamamışdan hərifin keçmişin,
Tez yetirirlər yerinə xahişin.
Sonra götür-qoy eləyəndə işin,
Məlum olur, etməyə talan, gəlib.
Heç xəbər almırlar hayandan gəlib.

Biz bilirik bir para maymaq müdir
Qanmayır əslində sayıqlıq nədir.
Öz cibini, qarnını ancaq güdür,
Müftə yaşayış ona asan gəlib.
Hiss eləmir bostana dovşan gəlib.

İndi düşünsün gərək insan özü,
Hər adamın olmalıdır dörd gözü.
Maymağa təkrar deyirəm bu sözü,
Yatma kudu, bostana dovşan gəlib.
Dur xəbər al, gör ki, hayandan gəlib.



## HƏRƏSİNDƏN BİR AZ

Bilmirəm ki, niyə illər uzunu
Bak.ES-in söhbəti hər yanda olur.
Halbuki, daima evimizdə bizim
Şamımız hər gecə şamdanda olur.
Buna mən bir tikə nöqsan deməرəm,
Demiş olsam əgər, böhtan deməرəm.

Bak.ES-ə nisbətən evdə, küçədə
Bakqazın söhbəti çox az-az olur.
Bizdə yaz günləri qaz fantan edir,
Qışda da istisi bir az-maz olur.
Buna mən bir tikə nöqsan deməرəm,
Demiş olsam əgər, böhtan deməرəm.

ATS barədə yoxdur danışan,
Danışıq olsa da, bu minval olur.
Telefon xətləri kontujnılaşır,
Ayın on beş günü dinmir, lal olur.
Buna mən bir tikə nöqsan deməرəm,
Demiş olsam əgər, böhtan deməرəm.

İşə bax ki, Bakı Şollar suyunu
Hər yerindən duran hey qamçılayır.
Qışda sel tək axır, amma nədənsə
Yay günü göz yaşı tək damcılayır.
Buna mən bir tikə nöqsan deməرəm,
Demiş olsam əgər, böhtan deməرəm.

Bakpromtorqda[1] damdan-bacadan
Bəzisi göz vurur, hərdən söz atır.
Məncə göz vurmağın mənası budur:
Yəni ki, qış malını yazda satır.
Buna mən bir tikə nöqsan deməræm,
Demiş olsam əgər, böhtan demərəm.

Düşmür əsla yada ət kombinati,
Çünki vardır neçə müsbət cəhəti.
Bəzi qəssabları insaflı olur,
Qoyuna yarı qatır cöngə əti.
Buna mən bir tikə nöqsan demərəm,
Demiş olsam əgər, böhtan demərəm.

Çəkmə fabrikləri, insafla desək,
Artırır malların keyfiyyətini.
Bir tayı sıxsa da, qəm eyləmə, get,
Yığ ikinci tayına külfətini.
Buna mən bir tikə nöqsan demərəm,
Demiş olsam əgər, böhtan demərəm.

[1] Bakı sənaye ticarət

## CƏBHƏDƏN MƏKTUB

Canım, gözüm nənə, mehriban nənə,
Döyüşçü oğlundan salamlar sənə.
Endiririk ağır zərbə düşmənə,
Faşistin saldatı gəlir fəryada.
Deyir: "Ruski, ruski, iştık nenada"[1].

Düşmənə əvvəlcə verildi imkan,
Sıçradı meydana o qorxaq siçan.
Meydanı bomboş eləyirdi güman,
Gördü ki, yox pişik vardır torbada.
Dedi: "Ruski, ruski, iştık nenada".

Faşist köpəkləri, o qorxacaqlar
Ordumuzun gücün görüb qabaqlar,
Çox döyüb onları  bizim qoçaqlar.
Keşmişi hərdən ki, salanda yada,
Deyir: "Ruski, ruski, iştık nenada".

Hissəmiz hər zaman açanda atəş,
Qalırdı ortada yüz əlli min leş.
Qalmaz idi, sağ qalanı mində beş.
Hansı yarımcan ki, qalır ortada,
Deyir: "Ruski, ruski, iştık nenada".

Düşmənə biz ağır zərbə çalmışıq,
Gözlərinin odun möhkəm almışıq.
Canlarına elə qorxu salmışıq;
Hansı biri görsə bizi röyada,
Deyər: "Ruski, ruski, iştık nenada".

---

[1] Rus, rus, süngü bıçağı lazım deyil

## Az. SSR Naz. Sov. sədri RƏHİMOV YOLDAŞA

Əziz yoldaş, heç insafdır,
Yoldan ötən mənzil alsın,
Öz ana torpağında bəs
Anatollu evsiz qalsın?

Ömrünün üç hissəsini
Sərf edən incəsənətdə,
Heç rəvadır ki, yaşasın
Uçuq evdə, rütubətdə?
Damcı altına düzməkçün
Qab-qacaq qalmır bufetdə,
Qışda islanmış yorğanı
Üstünə bəs necə salsın?
Əziz yoldaş, heç insafdır,
Anatollu evsiz qalsın?

Altı uşaq, yeddi böyük,
Üç balaca köhnə otaq.
Nə koridor, nə kuxna var,
Həyətdə qurdurur ocaq.
Evə qonaq gələn zaman,
Yatırlar ancaq baş-ayaq.
Xalqın əməkdar artisti
Ömür keçirdir bu sayaq.
Bir əhli-hal tapılmayır
Halına bir nəzər salsın.
Əziz yoldaş, bu insafdır,
Anatollu evsiz qalsın?

## MÜHARİBƏ QIZIŞDIRANLARIN ÜRƏK SÖZÜ

Hər ölkəyə ki, vəd edirik bir neçə dollar,
İstəyimiz odur, əldə hər imkan bizim olsun.
Bu vədəni verməkdə budur fikrimiz ancaq,
Xalq ölsün acından, təki dövran bizim olsun.

Namusilə vicdanımız hər an pulumuzdur,
Boş vədə, yalan, fitnə müqəddəs yolumuzdur.
Borc verdiyimiz ölkələr hökmən qulumuzdur,
Mütləq gərək hər əmrilə fərman bizim olsun.

Biz borc veririk, öz canımız qurtara dardan,
Qırğın düşə xalq içrə, baxaq biz də kənardan.
Top, güllə, barıt bizdən, ölən insan olardan,
Bu şərtilə ki, hərbi komandan bizim olsun.

Xoşdur bizə, gər düşsə fəlakətlərə insan,
Minlərcə şəhərlər yana, kəndlər ola viran.
Milyonla qoy işçi ölə, işsizlik ucundan,
Ancaq qızıl ilə dolu həmyan bizim olsun.

İranın o ac xalqına aşiq deyilik biz,
Ta dollar ilə biz eləyək onları təchiz.
Qalsın olara sadəcə Tehranilə Təbriz,
Nefti, düyüsü, buğdası hər an bizim olsun.

Borc verməyi biz tutmuşuq hərçənd nəzərdə,
Boş vədədir, ancaq asırıq gözlərə pərdə.
Bu hiyləni işlətməliyik bir neçə yerdə,
Təyyarə uçub düşməyə meydan, bizim olsun.

Dollar gücünə eyləyirik fitnələr icad,
Bayquş kimi bir ölkəni biz sevmərik azad.
Hazırlayırıq bir neçə Hitler kimi cəllad,
Qoy qanları onlar tökə, talan bizim olsun.



## ƏKİLDİ

Hitler hücum etdi qəfildən bizə,
Dişlərini qıcdı o heyvan bizə.
Verdi neçə milyonu qurban bizə,
Quyruğu yanmış tula tək əkildi.

Hitler ayaq basdı bizim torpağa,
Ac canavar kimi çalıb-çapmağa.
Yetmədi məqsudə qotur qurbağa,
Quyruğu yanmış tula tək əkildi.

Çıxartmaq istədi cahanda bir ad,
Eylədi zülmünü o həddən ziyad.
Hülqumunu əzdi Stalinqrad,
Quyruğu yanmış tula tək əkildi.

Leninqrad əzdi başın Hitlerin,
Tökdü üzə qanlı yaşın Hitlerin.
Qoymadı daş üstə daşın Hitlerin,
Quyruğu yanmış tula tək əkildi.

Qanlı əlin bizə Hitler uzatdı,
Öz qanına ancaq o özü batdı.
Belqrad, Arelda piyin çıxartdı,
Quyruğu yanmış tula tək əkildi.

Don çayına Hitler ümid bağladı,
Var gücünü yığdı, ora saxladı.
Bir hücumda çər-çənəsi laxladı,
Quyruğu yanmış tula tək əkildi.

Dinepr çayında durmaq istədi,
Ordumuza zərbə vurmaq istədi.
Qüvvəmizi gördü, cırmaq istədi,
Quyruğu yanmış tula tək əkildi.

Rəhbərimiz verib orduya fərman,
Tezlik ilə Berlinə olsun rəvan.
Bir də gördüm Hitler edib əl-aman,
Quyruğu yanmış tula tək əkildi.



## TRUMENİN MAKARTURA TÖHMƏTİ

Koreyada işləri xarabladın, Makartur,
Biabır etdin bizi, ay qotur oğlu qotur.

Orduları batırdın, ay üzün olsun qara,
Bütün kapitalistlərin qəlbinə vurdun yara.
Komandanlığı tapşır başqa təcavüzkara,
Yığ şələni, gəl bəri, xanənişin ol, otur.
Biabır etdin bizi, ay qotur oğlu qotur.

Mən dedim ki, get orda aləmi alt-üst elə,
Qır Koreya xəlqini, qanları axsın çölə.
Şəhərləri, kəndləri yandırıb döndər külə,
Bilirdin ki, məqsədim, əsil məramım budur.
Biabır etdin bizi, ay qotur oğlu qotur.

Hesabla bax, gör neçə ordular qırdırmısan,
Gör neçə milyard, mənə, zərər, ziyan vurmusan.
Bəd ayaqda cəbhədə dayanmayıb cırmısan,
Bu rüsvayçılığından lap bədənim od tutur.
Biabır etdin bizi, ay qotur oğlu qotur.

Heç utanıb ölürsən, heç çəkirsən xəcalət?
Aləm içində bizi rüsvay etdin, nəhayət.
Səndə komandanlığa heç yox imiş ləyaqət,
Get özünə sənət tap, hərbi işdən kənar dur.
Biabır etdin bizi, ay qotur oğlu qotur.

## MAKARTUR

Deyən gərək qəsbkar Makartura,
Amerika hara, Koreya hara.
Beş min kilometrdir ordan-bura,
Əcəl səni çəkdi ora, Makartur.
Anan yasında otura Makartur.

Trumenin fitnəsinə inandın,
Onun fırıldağın həqiqi sandın.
Nəticədə qorxaq adı qazandın,
Düşdün əcəb yerdə tora Makartur.
Anan yasında otura Makartur.

Fəxr eləmə mərdüməzarlığınla,
Fisqü fəsadsan, kişi, varlığınla.
Törətdiyin təcavüzkarlığınla
Gedərsən axırda gora, Makartur.
Anan yasında otura Makartur.

Koreya xalqına qurduğun kələk
Tutmayacaq baş, bunu bil, ay köpək.
Bu günlərdə Koreya xalqı gərək
Külünü göyə sovura, Makartur.
Anan yasında otura Makartur.

Hər şeyi qanmasan, bunu qan, alçaq,
Nə sən, nə Li-Si-Man kimi oyuncaq
Bir qələt eyləməz bunu qan ancaq,
Sülhsevərlər dura-dura, Makartur.
Anan yasında otura Makartur.

Bəllidir aləmə vurduğun ziyan,
Qalmayacaq yerdə tökdüyün bu qan.
Bir ağızdan deyir bunu hər insan,
Lənət sənin tək quldura, Makartur.
Anan yasında otura Makartur.

Altı yüz milyonluq Çin könüllüsü,
Arxada durmuşdur əldə süngüsü.
Tab gətirməz kapitalist tülküsü
Bu xalqda olan zora, Makartur.
Anan yasında otura Makartur.

Qəzəblə, nifrətlə coşan dalğalar
Səni tez uçuruma doğru yuvarlar.
Koreyadan bir it kimi qovarlar
Baş-gözünə vura-vura, Makartur.
Anan yasında otura Makartur.



# NAMAZQILAN SƏDR

Sədr olan kəs, qalmasın bir gün namazından gərək,
Xəlqə dəysin mənfəət, razü niyazından gərək.

Böylə işdə sədrə nöqsan tutmasın heç bir nəfər,
Tutmasa gərçi oruc, kənd icra rəğbətdən düşər.
Cənnət əldən çıxmamaq şərtilə mömin kimsələr
Gündə dəysin məscidə bir dəfə azından gərək.
Sədr olan kəs qalmasın bir gün namazından gərək.

Sədrdən bir çoxları olmuşdu gərçi bədgüman,
Səhvdir, sədr öz işində “səy” edibdir hər zaman.
Dinməyin, qoy sədr həmişə məscidi etsin məkan,
Həzz aparsın mollanın Şurü Hicazından gərək.
Sədr olan kəs qalmasın bir gün namazından gərək.



## "AŞIQ QƏRİB" OPERASINDAN ÖTRÜ ƏLAVƏLƏR

Baharda al-yaşıla bürünən qızlar,
Köksü üstə çəməndə sürünən qızlar.
Yad oğlana qaş-gözünü çox atma,
Öz yarına həqiqi görünən qızlar.

Ay keçər, il dolanar, gələr bahar, yaz,
Axar çaylar gələr, bir yerdə dayanmaz.
Hərdən bir meylinizi mənə də salın,
Gedər bu gözəllik, sizlərə qalmaz.

Yarın üzün görcək, məni qəm aldı,
Vəslinə yetmədim, eşqə tutuldum.
Canımı bir yanar odlara saldım,
Könüldən sevdiyim cana vuruldum.

Yaralı quş kimi çırpınma, könül,
Sənə nə oldu ki, bu hala düşdün?
Təlaş etmə, könül, eylə təhəmmül,
Axır gəlib vəsli-yarə yetişdin.

***

Tiflisin göy dağları var,
Al çiçəkli bağları var.
Ürək açan qəm dağıma
Çox sərin yaylaqları var.

Yaz gələndə güllər açar,
Hər tərəfə ətrin saçar.
Göylərində durna süzər,
Çöllərində kəklik uçar.

Bir tərəfdən Kür çağlayar,
Səpələnər, qaynar, daşar.
Bir tərəfdə dəstə-dəstə
Qızlar, gəlinlər oynaşar.

Dünyada xoş gün keçirmək,
Dost yolunda candan keçmək.
Hər şeydən artıqdır, gülüm,
Birlikdə xoş dövran sürmək.

***

Kasıb doğuldum anadan,
Yetim qaldım mən o zaman.
Qoymadılar dərs oxuyam,
Satıram indi göy soğan.

Yaxşı, təzə-tər soğan,
Modi-modi, gülüm can.
Bir-bir, pul ver, ay alan,
Modi-modi, gülüm can.

Yarpaqları şux soğan,
Aqmo-aqmo, Zima can.
Alan olmaz peşiman,
Aqmo-aqmo, Zima can.

Düşməz ələ belə mal,
Modi-modi ciqara.
Soğan deyil, baldır, bal,
Modi-modi ciqara.

***

O nədir, daşdan, dəmirdən keçər,
O nədir ki, ürəyə ox tək dəyər.
O nədir ki, ürəkdə gizli qalmaz,
O nədir ki, hər adamda tapılmaz.



## CIRIRLAR

O düşmən ki, əlin belə vurardı,
Çolpa kimi özün çəkib durardı,
Basıb-kəsib, həmişə qoz qırardı,
İndi davam gətirməyib cırırlar.

Faşistlərin fikri bu idi əzəl,
Moskvanı salsın ələ əlbəəl.
Təəssüf ki, macal vermədi əcəl,
Nalə çəkib indi başa vururlar.

Etdi bizə hücum nemes tülküsü,
Basmadı bizləri qorxu-hürküsü.
Burnuna dəydukcə sovet süngüsü,
Ardı kəsilmədən hey asqırırlar.

Faşıstlərin çarxı yaman dolandı,
Bizlərə əl atdı, qanı calandı.
On mini ki, xəndəyə yumbalandı,
Bir səs ilə “vay dədə” qışqırırlar.

Faşist köpəkləri hürür aslana,
Verdiyi qurban çatıb on milyona.
Öz hürdüyü dursun hələ bir yana,
Özgəni də bizlərə qısqırırlar.

Allaha qalmış işi germanların,
Yox hesabı verdiyi qurbanların.
Qızıl ordu cəbhədə düşmanların
Bir hücumda əlli minin qırırlar.

Müvəqqəti o yer ki, tutmuşdular,
Qüvvəmizi tamam unutmuşdular.
O yerlər ki, naqqa tək udmuşdular,
İndi o əclafları qusdururlar.



## NƏ SƏNDƏDİR, NƏ MƏNDƏ

Əziz dostum, gəl bu gün
Nöqsandan danışmayaq,
Dövlətə bollu dəyən
Ziyandan danışmayaq.
Hər dələduz, müftəxor
İnsandan danışmayaq,
Bu barədə ixtiyar
Nə səndədir, nə məndə.

Bizim borcumuz deyil
Danışmağa hər sözü,
Düz yola dəvət etmək
Müftəxoru, acgözü.
Hər işə qoy qarışsın
Baş idarələr özü,
Çıxarılmış qərarlar
Nə səndədir, nə məndə.

Biz nə müdir, nə müavin,
Hesabdar deyilik ki,
Hər görülən pis işə
Səbəbkar deyilik ki.
Biz öz vəzifəmizdən
Heç bezar deyilik ki,
Mal ilə dolu anbar
Nə səndədir, nə məndə.

Bazarda ucuz malı
Baha satanlar da var,
Yaxşı malın böyrünə
Pis mal qatanlar da var.
Bazar komendantı tək
Xeyrə çatanlar da var,
O gəlir ki, onda var,
Nə səndədir, nə məndə.

Sən qanacaqlı ata,
Mən düşüncəli ana.
Baxaq bu şalvar geyən
Qıza, saçlı oğlana.
Biri meymuna bənzər,
Biri vəhşi xortdana,
Bunlardakı namus, ar
Nə səndədir, nə məndə.

Ölkəmizdə bir neçə
Ağıldan kəm adam var,
Özlərini göstərir
Zahirdə bir işgüzar.
Gündüzlər içir araq,
Gecə oynayır qumar,
Belə şəxsə etibar
Nə səndədir, nə məndə.

Bir para dərsdən geri
Qalanlar da az deyil,
Beşcə yüzə diplomu
Alanlar da az deyil.

Özün böyük qulluğa
Salanlar da az deyil,
Yaxşı ki, bu günahlar
Nə səndədir, nə məndə.

Biz ortaya çəkmədik
Yoldan azmış insanı,
Əksinə, tərif etdik
Ağılsızı, nadanı.
Qoy onlarla danışsın
Hökumətin orqanı,
Onların ixtiyarı
Nə səndədir, nə məndə.



## YATMAYIN

Yatmayın kəndli cavanlar, tutun əldə yabanı,
Qoymayın kəndinizə boynuyoğun rövzəxanı.

Eşidib fəndi şəhərdə daha baş tutmayacaq,
Keçən illər kimi öz məqsədinə çatmayacaq.
Söz verib bir də şəhərdə yalanın satmayacaq,
İstəyir indi də kəndlərdə sata boş yalanı.
Qoymayın kəndinizə boynuyoğun rövzəxanı.

Atıb öz yurdunu, gəlmiş Bakıya çayçı Məmiş,
Yetişə kamə bu yerdə bu qəmiş oğlu qəmiş.
Bizə məlumdur onun tutduğu yol, gördüyü iş,
Zənn edərsəm daha baş tutmayacaqdır planı.
Qoymayın kəndinizə boynuyoğun rövzəxanı.

Köhnə mütrüb dəyişib indi olub mərsiyəxan,
Verməyin siz bu haramzadələrə hərgiz aman.
Pulunu sərf eləməz bu lotuya ağlı olan,
Yaxına qoymayınız hər belə dümbək çalanı.
Qoymayın kəndinizə boynuyoğun rövzəxanı.

# QOHUMLAR

Dörd qohum bir yaşardılar səmimi,
İki qardaş, bir əmoğlu, bir əmi.
Dördü də hər işdə bir nəfər kimi,
Heç birinin yox idi dərdi, qəmi.
Birincisi baş direktor Əsəddir, Əhmədov,
İkincisi baş buxalter Əhəddir, Əhmədov,
Üçüncüsü skladçı Mədəddir, Əhmədov,
Dördüncüsü mağazaçı Səməddir, Əhmədov.

Qohumlarda belə bir qayda vardı,
Hər biri bir axşam məclis qurardı.
Direktor stol başında durardı,
Dördü də rumka rumkaya vurardı.
Sağlıq deyən baş direktor Əsəddir, Əhmədov,
Nitq eləyən baş buxalter Əhəddir, Əhmədov,
Xörək verən skladçı Mədəddir, Əhmədov,
Çaxır süzən mağazaçı Səməddir, Əhmədov.

Direktorun sevda vardı başında,
Gündə bir qız sevir, on beş yaşında.
Sevdiyi qızlarla gəzib maşında,
Kef eləyən baş direktor Əsəddir, Əhmədov,
İş düzəldən baş buxalter Əhəddir, Əhmədov,
Benzin verən skladçı Mədəddir, Əhmədov,
Şoferləri mağazaçı Səməddir, Əhmədov.

İdarədə, skladda, dükanda
Dörd nəfərin işi şuluq olanda,
Cəhd edirlər qalmasınlar amanda,
Şübhəsiz ki, iclas olan zamanda

İclasın sədri direktor Əsəddir, Əhmədov,
Katibi də baş buxalter Əhəddir, Əhmədov,
Əl qaldıran skladçı Mədəddir, Əhmədov,
Təsdiq edən mağazaçı Səməddir, Əhmədov.

Xəlq içində dəyərli bir misal var,
Deyərlər, əl əli, əl üzü yuyar.
Mükafat verməyə çıxanda qərar,
Əmr verən baş direktor Əsəddir, Əhmədov,
Cədvəl tutan baş buxalter Əhəddir, Əhmədov,
Domodduxda skladçı Mədəddir, Əhmədov,
Mükafatçı mağazaçı Səməddir, Əhmədov.

Əhmədovlar yol azıb quduranda,
Məhkəmənin qarşısında duranda,
Məhkəmə bunlara toy vurduranda,
Zurna çalan baş direktor Əsəddir, Əhmədov,
Züy tutanı baş buxalter Əhəddir, Əhmədov,
Nağaraçı skladçı Mədəddir, Əhmədov,
Oynayan da mağazaçı Səməddir, Əhmədov.



## NƏ HƏ DEYİR, NƏ YOX DEYİR

Kapitalist şüurlu adam
Ölməyibdir, hələ durur,
Ölümcül halda olsa da,
Yavaş-yavaş nəbzi vurur.
Hər iclasda, yığıncaqda
Dinməz-söyləməz oturur,
Nə hə deyir, nə yox deyir.

Bir nəfər bir idarədən
Gəlib qulluq istəyəndə,
“Sənətimə dair mənə
Bir vəzifə ver” deyəndə.
Onu dinləyən müdirin
Bığ yağısın verməyəndə,
Nə hə deyir, nə yox deyir.

Bir tələbə yoldaşımla
Bir sinifdə biz olanda,
Əlaqəsi qırılmayan
Dostluğumuz vardı onda.
İndi olub baş direktor,
Bir kəlmə söz soruşanda
Nə hə deyir, nə yox deyir.

Bir para tənbəl tələbə
Fikir vermir dərslərinə,
Valideyni xəcalətdən
Tərləyir onun yerinə.
İmtahanda mat-mat baxır
Müəllimin gözlərinə,
Nə hə deyir, nə yox deyir.

Telefon işi indiyədək
Nizama düşməyib hələ,
Bizim üçün, hamı üçün
Maraqlıdır bu məsələ.
Daşdan cavab almaq olur,
Komutator həftələrlə
Nə hə deyir, nə yox deyir.

Avtobusda, tramvayda
Çox zaman belə hal olur,
Başqa şəhərdə bilmirəm,
Bizdə bu dalbadal olur.
Sdaçını istəyəndə,
Konduktor dönüb lal olur,
Nə hə deyir, nə yox deyir.

Şəhərimizdə, rayonlarda
Vardır bir çox parikmaxer,
Bəzi para usta var ki,
Baş da qırxır, cib də qırxır.
Göy üçmanatlığı alır,
Dinməz cibişdana tıxır,
Nə hə deyir, nə yox deyir.

# GƏLHAGƏLİDİR

Meyvə çıxcaq, pravadniklərin[1] gəlhagəlidir,
Pravadnik ki var, alverçilərin sağ əlidir.

O qədər ki, qarışır başları daş-baş işinə,
Göstərilmir mədəni xidmət işi sərnişinə.
Bilet əllərdə, yer olmur on adamdan beşinə,
Çünki vaqon dolusu alça, xiyar, şəftəlidir,

Nə edər Gəncə, Ucar, Kürdəmir alverçiləri,
Doluşur hər vaqona birdən otuz-qırx nəfəri.
Meyvə vaqon qapısından ki, salındı içəri,
Danışıqsız hər adam öz işini bilməlidir.
Pravadnik lələşin növbəti gəlhagəlidir,

Hər qatarda var uşaqlı qadının bir vaqonu,
Yarı yolda elə bir halə salırlar ki, onu.
Büsbütün yük yığımından dönür anbara, sonu,
Burası, öz aramızdır, daha çox gülməlidir
Meyvə çıxdı, pravadniklərin gəlhagəlidir.

---

[1] pravadnik-qatar bələdçisi

# RÖVZƏXAN

Qıl başının çarəsini rövzəxan,
Boynunun ardı hələ şallanmamış.
Başbilitin eyləgilən pirjivan,
Ta paraxod körpüdən yollanmamış.

Hər nə gətirmişdin İrandan bəri,
Burda ona çıxmadı bir müştəri.
Yığ çuvala, bir daha qaytar geri,
Zir-zibilin kuçəyə tullanmamış.

Bircə dənə köhnə cecim tap, bürün,
Yığ şələni, başqa mahala sürün.
Yorğanını arxana at, tez kürün,
Burnun üç arşın yerə sallanmamış.



# TÜFEYLİLƏR

Bu gündən etibarən, gəl, hər ikimiz ortaq olaq,
Ev arası satmaq üçün az tapılan mallar alaq.
Sataq, qazancı kişi tək ortaya düpbədüz qoyaq,
Halal, minallah, bölüşək, yarı sənin, yarı mənim.

Kooperativin müdiriyəm, kimsədən etmə ehtiyat,
Tanış adamsan, nə olar, gəlginən sən də xeyrə çat.
Lazımi mallardan apar bazarda xırda-xırda sat,
Halal, minallah, bölüşək, yarı sənin, yarı mənim.

Direktoram, maşın mənim, şoferimsən, qalma bekar,
Xüsusi şəxslərlə get, qiymət danış, yük vur, apar.
Gündə gətir qoy ortaya, hər nə qədər daş-baş olar,
Halal, minallah, bölüşək, yarı sənin, yarı mənim.

Bazar komendantı gərək heç olmasın kəmiltifat,
Kəndli gətirsə bazara un, düyü, başqa meyvəcat.
Him-cim ilə qandırıram, qiyməti beşdir, ona sat,
Halal, minallah, bölüşək, yarı sənin, yarı mənim.

Bizim dəmir yollarından yola düşən zaman qatar,
Boğazlayır sərnişini tez provadnik maçaxar.
Deyir ki, daşdan yumşaq aç görək xurcunda nə var,
Halal minallah, bölüşək, yarı sənin, yarı mənim.

## QADININ ŞİKAYƏTİ

Andıra qalsın bu qara çarşabım,
Sovxanı gəzdirməyə yoxdur tabım.

Sarmaşıb əndamıma şahmar kimi,
Yazda köz, od, qışda olur qar kimi.
Yol gedirəm kor kimi, lal, kar kimi,
Andıra qalsın bu qara çarşabım.
Sovxanı gəzdirməyə yoxdur tabım.

Qəlbimi gənclikdə qana döndərib,
Qəddimi əymiş, kamana döndərib.
Rəngimi lap zəfərana döndərib,
Andıra qalsın bu qara çarşabım.
Sovxanı gəzdirməyə yoxdur tabım.

Çadra içində puç olur gənc yaşım,
İl boyu görmür günəş, əsla, başım.
Halıma yanmır qohumum, qardaşım,
Andıra qalsın bu qara çarşabım.
Sovxanı gəzdirməyə yoxdur tabım.

Çadranı bir dərdə dəva görmürəm,
Heç kəsə zindanı rəva görmürəm.
Evdə-eşikdə heç həva görmürəm,
Andıra qalsın bu qara çarşabım.
Sovxanı gəzdirməyə yoxdur tabım.

## TƏMİZLİK

Qaçma, sözüm var sənə, bir dayan, ay təmizlik.
Biz tərəfə gələrsən bəs haçan, ay təmizlik?

Şəhrimizi səhmana salmalıyıq, deyirdin,
Zibilliyin qarşısın almalıyıq, deyirdin.
Baltanı lap kökündə çalmalıyıq, deyirdin,
Çox döşünə döyürdün, bir zaman, ay təmizlik.
Biz tərəfə gələrsən bəs haçan, ay təmizlik?

Yeşiklərdə zibillər qıcqırır, aşır-daşır,
Yemiş qabıqlarında qarışqalar qaynaşır.
Milçək əlindən adam büsbütün əqlin çaşır,
Canlı bir insan olur yarımcan, ay təmizlik.
Biz tərəfə gələrsən bəs haçan, ay təmizlik?

Zibiltrest qabaqca haqqın alır bir anbar,
Həyətlərdə üç ayla zibil qalır, bir anbar.
Bundan əlavə hələ qurd da salır, bir anbar,
İnanmasan, gəl elə imtahan, ay təmizlik.
Biz tərəfə gələrsən bəs haçan, ay təmizlik?

Gözdən itib gedirsən gələndə yay zamanı,
Qışda çəkirsən başa pərqu kimi yorğanı.
Fıshafısla çəkirsən öküz kimi xornanı,
Düz bir ildir yatıbsan, bir oyan, ay təmizlik,
Biz tərəfə gələrsən bəs haçan, ay təmizlik?

Zibiltrest müdiri təmiz itirmiş başın,
Hər bəhanə eləyib, deyir ki, yoxdur maşın.
Gözəl çalır zurnada Mahur-hindi, Bərdaşın,
Heyif ki, yoxdur ona züy tutan, ay təmizlik,
Biz tərəfə gələrsən bəs haçan, ay təmizlik?

# ƏL ÇƏK

Çox səhv edərək, rövzəxan olmuşsan əzəldən,
Saqqal pomidorlanmamış, əl çək bu əməldən.

El başqa elə bənzəməz, aləm dəyişibdir,
Hər gün yediyin dolma, mütəccəm dəyişibdir.
Keçdi o fırıldaqçılıq, ol dəm dəyişibdir,
Get, bir elə yer xamla ki, pul çıxmasın əldən.
Saqqal pomidorlanmamış, əl çək bu əməldən.

Vicdanı atıb, sən kimi tərki-vətən olsam,
Bir böylə zamanda, belə pis gündə mən olsam,
Qırxıb tökərəm saqqalı, bığları, mən olsam,
Ya ki, yığışıb tez qaçaram böylə məhəldən.
Saqqal pamidorlanmamış, əl çək bu əməldən.

Görmürsən hamı dini atıb, kafir olubdur?
İşçi böyüyüb, məmləkətə amir olubdur.
Kəndli başını əzmək üçün hazir olubdur,
Bu yerdə mahal əmrdi qurtarmaq əcəldən.
Saqqal pamidorlanmamış, əl çək bu əməldən.

# BAŞ AĞRIDAN ÇAX-ÇAXDIR

Ölkəmiz əleyhinə mürtəcelər hər yanda
Şayiələr yayırlar hər dəqiqə, hər anda.
Məşğuldurlar bu işlə Türkiyə də, İran da,
Azğınların məqsədi halvaya duz qatmaqdır.
Dəyirman öz işində, baş ağrıdan çax-çaxdır.

Çıxışlar təşkil edib radioda, qəzetdə,
Göstərmək istəyirlər bizi başqa sifətdə.
Guya gün keçirdirik çox ağır vəziyyətdə,
Aləm bilir bu bizə ancaq qara yaxmaqdır.
Dəyirman öz işində, baş ağörıdan çax-çaxdır.

Kapitalist nökərləri qab-qaşıq yalayanlar
Tapşırıqla yayırlar əsli olmayan şüar.
Deyirlər ki, olarda milyonca dilənçi var,
Bu sözə inananlar ya dəli, ya axmaqdır.
Dəyirman öz işində, baş ağrıdan çax-çaxdır.

Əhəmiyyət vermirik atılan hər böhtana,
Çünki inkişafımız bəllidir hər insana.
Hər il məhsul artımı qalxdıqca milyard tona,
Bunu görən boşboğaz biryolluq susacaqdır.
Dəyirman öz işində, baş ağrıdan çax-çaxdır.

Haqqımızda söylənən cürbəcür cəfəngiyyat
Heç də bizi etməyir zərrə qədər narahat.
Çünki xalqımız qurur yeni dünya, şən həyat,
Fikrimiz, xəyalımız bu məqsədə çatmaqdır.
Dəyirman öz işində, baş ağrıdan çax-çaxdır.

Biz ən yüksək texnika yarartmaq fikrindəyik,
Sənayeni ölkədə ucaltmaq fikrindəyik.
Xalqımızı dinc, rahat yaşatmaq fikrindəyik,
Qurmağa, yaratmağa xalqımız çox qoçaqdır.
Dəyirman öz işində, baş ağrıdan çax-çaxdır.

Kim nə deyir, qoy desin, biz sülhə tərəfdarıq,
Sülhsevər insanlara arxayıq, havadarıq.
Millətçi deyilik biz, hər cür insanla varıq,
Fikrimiz xalqlar ilə qardaşlıq yaratmaqdır.
Dəyirman öz işində, baş ağrıdan çax-çaxdır.

Texnikamız son illər Amerkayla ötüşür,
Peykimiz asimanda Ay-ulduzla öpüşür.
Böhtançılar bu işdən qəzəblənir, pörtüşür,
Hələ yeni peykimiz Günəşə uçacaqdır.
Dəyirman öz işində, baş ağrıdan çax-çaxdır.



## BƏNZƏTMƏ

Bütün dünyaya bəllidir xalqımızın qoçaqlığı,
Qoy kor olsun istəməyən bu varlığı, bu sağlığı.
Sən, ey bu varlığı görən, kor adam tək bataqlığı
Keçməyi kimdən öyrəndin?

Müdir qağa, nə işdir bu, fermamıza sən gələni,
Toyuqlar az yumurtlayır, bu iş düşündürür məni.
Yumurtalar bir tərəfə, həftədə on beş cücəni
Kəsməyi kimdən öyrəndin?

Ziyankarın işlərini gedib yoxladığın günü,
Öz cibinin xatirinə düz götürmürsən ölçünü.
Bəzi müfəttiş kimi sən, cinayət işin üstünü
Örtməyi kimdən öyrəndin?

Şəxsi tənqid üsulilə yazıb dedim həqiqəti,
Qoy indi hər yoldan azan utansın, alsın ibrəti.
Soruşsanız məndən əgər, qəsbkarlara töhməti
Etməyi kimdən öyrəndin? Bir söz ilə deyərdim ki,
Mirzə Ələkbər Sabirdən, Sabit Rəhmandan öyrəndim.

## ÜZBƏÜZ

Bircə dəfə, rövzəxan, sən də bizimlə ol oyaq,
Üzbəüz meydanda şəst ilə durub xəncər vuraq.

Sən də mərdanə bizim tək xəncəri al dəstinə,
Olgilən öz qatilin, tök qanını, dur qəsdinə.
Yar bizim tək başını, baxsın camaat şəstinə,
Valeh olsunlar sənə damlardakı arvad-uşaq.

Doğrudan Quranda baş yarmaq-filan varsa əgər,
Bəs niyə bu işdə yoxdur mollalardan bir nəfər?
Yoxsa hərgah, bəs niyə xalqa verirsən dərdi-sər?
Tutduğun işdən utanmazsan, çəkilməzsən qıraq?

Söyləyirsən ki, bu yolda kim edər canın nisar,
Ruzi-məhşərdə onun əcrin verər həşdü çahar.
Bu sizin öz əmrinizdir, kim ki, qövlündən qaçar,
Şəridə caiz deyil etmək onunla ittifaq.



# MƏŞƏDİ İBADIN HAMBALI

I

Deməyin ki, hambalam, anlayıram məsələni,
Lotular Məşdibada yaxşıca qurdu tələni.

Gəldi əvvəlcə kələk Məşdiyə Rüstəm bəy özü,
Aldı beş min manatı, sonra dəyişdirdi sözü.

İki min aldı Qoçu Əsgər ötürdü o yana,
Eşidib fit səsini, fövri tüpürdü dabana.

Düşdü fürsət adamaoxşamaz Həsənquluya,
Verdi beş yüz manatı, bax, bu lotu-bambuluya.

Rza bəy "şimdi, nasıl, söylə, əfəndim" deyərək,
O da bu dillər ilə Məşdibada gəldi kələk.

Bu Həsən "İştə-kakoy", Məşdiyə meymun da dedi,
Suda verməklə tutub əlli manat aldı, yedi.

Bivec oğlu Məşədi dikdi gözün abbasıma,
Hamıya payladı pul, salmadı bir şey tasıma.

II

Doğrudur ki, mən özüm də qəmiş oğlu qənişəm,
Amma heç Məşdi kimi zorba qəmiş görməmişəm.

Məni meymun kimi ardınca salıb şəhri gəzir,
Abbasım istəyirəm, əngimi yumruqla əzir.

Dədəm ilə nənəmin goruna yüz dəfə söyür,
Dinirəm, fövri qoyub altına eşşəkcə döyür.

Deyirəm, insafın olsun, Məşədi, bə niyə belə?
Deyir: hambal gərək hər tin başı bir yol döyülə.

Qaradavoy tutmaya, əl-an elə, bax, lap burada
Palan ilə nə çəkərdim beş-onun Məşdibada.

Saqqalından yapışıb zorla yolardım tükünü,
Dalına yüklər idim üçyaşar eşşək yükünü.

Gündə yüz dəfə salardım yoxuşa, həm enişə,
Hər görən söylər idi: Afərin, hambal Məmişə!



# BƏHRİ-TƏVİL

Möhtərəm kirpi lələ, ağrın alım, insaf elə, bağrımı çatlatdı mənim bir məsələ, yandı canım döndü külə, hər neçə il girsə belə, qəlbimi qəm, qüssə, kədər get-gedə şam tək əridir, ömrüm verər badə gedər, bir azacıq çıx, vəqtin əgər olsa bir az dinlə məni, işdən edim hali səni, mən biləni sən də bu günlərdə yəqin hiss eləyibsən, mənə minnət, sənə zəhmət, hələ-həlbət o mübarək qələmi al ələ, sarı, göy, çəhrayı paltar geyinən buni əml ilə suyuni, qurbağanı, yəni stilyaqanı yaz, şəklini də jurnala çək, bax, belə bir formada ki: pencəyi dizdən, iraq üzdən, bığını yarıdan enmiş, üzüni xət başı örtmüş, gözünə sürməni sürtmüş bu fırıldaqçıya kim baxsa, elə zənn eləsin ki, bala dərviş saçın çiyninə tökmüş, yeri gəlmiş buna timsal, deyə billəm belə bir hal görünüb bəzi qadın da ki, yolub qaşlarını yerli-dibindən yerə töksün, əvəzində duda çəksin. Bu da ondan ötəridir göbələk tək gözü şişsin, yekə şiş, baxanın gözləri düşsün. Fəqət ancaq qadın həqqində bu cüzi epizoddur, bu, qadınlarda çox ildən bəri moddur. Məni əfv eyləginən, haşiyə çıxıb söhbətimi xeyli uzatdım, bunu mən söz gəlişi ortaya atdım. Məsələ bunda deyildir. Məni təşvişə salan, min cürə xülyayə uyan xeyli zaman, sadə adamlar arasında gecə-gündüz sürünən, xəlqimizə yad görünən, uçuruma doğru yüyürən bax bu stilyaqa necə gör özüni xarici yad ölkələrin cildinə salmış, bu qara günlərə qalmış hərifin tərpənişindən, yerişindən, hər işindən, açıq-aydın görü-

nür ki, kişilikdən əl üzüb bəzi qadın şəklini almış. Hələ sən bu hərifin bir özünü mütrübə oxşatmasına, qaş-gözün oynatmasına, qız kimi naz satmasına yaxşı nəzər salsan əgər, əhlini ətraflı xəbər alsan əgər, onda görərsən ki, bu əql sahibi kimdir. Hamı bir səslə deyər ki: nə müəllim, nə mühəndis, nə həkimdir. Atası baqqal olubdur, anası rəmmal olubdur, xalası dəllal olubdur. Bu səbəbdən belə bir ailənin oğlu səfil abdal olubdur.



# ARZULARIMIZ

## BAKI

Bakı, Bakı, qızıl Bakı, nəhəng aslan vüqarında,
Yenilməz qaladır, möhkəm durub dərya kənarında.
İgid babəklərin yurdu, bizim odlar diyarında
Boy atmış elm, sənət durmadan hər ayda, hər ildə.
Əlli ildə, əlli ildə.

Bakı, sən qəsbkarlardan xilas oldun mətanətlə,
Yönəldin düz yola rəhbər verən düz istiqamətlə.
Yazıldı tarixə şanlı adın min bir şərafətlə,
Bütün dünyada şöhrətli adın əzbər olub dildə.
Əlli ildə, əlli ildə.

Amansız düşmənə qarşı dayandın, sinəni gərdin,
Qucub övladını, sonsuz məhəbbət, qayğı göstərdin.
Dəniz, dərya döşündən tiflinə qandan qida verdin,
Gümüş tək ağ saçından don geyindi qonşuda el də.
Əlli ildə, əlli ildə.

Sənin qoynunda bəsləndi, boy atdı qəhrəman neftçi,
Böyük, saysız-hesabsız sərvətə sahib olan neftçi.
Suvanmış baltasilə Kaspinin bağrın yaran neftçi
Buruqlardan meşə saldı Xəzər qoynunda, sahildə.
Əlli ildə, əlli ildə.

Sən hifz etdin əməkçi kütləni cövrü cəfalardan,
Söküb iz qoymadın çardan miras qalmış binalardan.
Çıxartdın ağ günə insanları zülmətsəralardan,
Yaşar minlərcə zəhmətkeş işıqlı, isti mənzildə.
Əlli ildə, əlli ildə.

Sənin düz tutduğun yoldan alıb ilham bizim ellər,
Yaratdı çox şəhər, çox kənd yorulmaq bilməyən ellər.
İçib Kürdən su, canlandı susuzluqdan yanan çöllər,
Dönüb bir laləzar oldu Muğan səhrası da, Mil də.
Əlli ildə, əlli ildə.

O gün ki, saxladın kəndlə əlaqə, qurdun ünsiyyət,
Sənə minlərcə kolxozçu ürəkdən bəslədi rəğbət.
O göndərdi sənə pambıq, sən isə şal, kətan, xələt
Geyindi əyninə Sara, Firəngiz də, Qərənfil də.
Əlli ildə, əlli ildə.

Bakı, səndən səfalandı tikanlı dağ, dərə, kollar,
Uzandı çöl boyu göz işlədikcə parlayan yollar.
Çölün qartalları daim sənə alqış, salam yollar,
Sənin sayəndə kütlə çox böyük işlər edib əldə.
Əlli ildə, əlli ildə.

Bakı, aləm bilir səndə dəyanət var, səxavət var,
Bütün xalqlarla dostluq niyyəti, möhkəm rəqabət var.
Sənin qəlbində hər bir insana qarşı məhəbbət var,
Bunu hər sülhsevər insan duyur xaricdə, daxildə.
Əlli ildə, əlli ildə.

# DƏLƏDUZ VƏ AVARALAR HAQQINDA

Alçaq, uçuq evlər qalxdı havaya,
Söykəndi damları mavi səmaya.
İnsanlar yol açdı ulduza, aya,
Şöhrətli adları söyləndi dildə.
Sən adam olmadın bu əlli ildə.

Laləzara döndü tikanlı çöllər,
Hər tərəfə saçdı ətrini güllər.
Açıldı qönçə tək solğun könüllər,
Azad oldu qəmdən oba da, el də.
Sən adam olmadın bu əlli ildə.

Şən həyatdan aldı çoxları təlim,
İşçi həkim oldu, kəndli müəllim.
Sənəm texnik oldu, Gülpəri alim,
İş başına keçdi Sona, Sevil də.
Sən adam olmadın bu əlli ildə.

Bataqlıq yollara asfalt döşəndi,
Qovuşdurdu yollar şəhərlə kəndi.
Yaşıl don geyindi çöllər, bəzəndi,
Çəmənqahlıq oldu Muğan da, Mil də.
Sən adam olmadın bu əlli ildə.

Quraqlıqlar yaşıl bir otlaq oldu,
Köhnə qəbristanlıq bağça-bağ oldu.
Aranlıqlar sərin bir yaylaq oldu,
Arzu çiçəkləndi hər bir könüldə.
Sən adam olmadın bu əlli ildə.

At-araba dönüb buldozer oldu,
Lapatkalar ekskovator oldu.
Xış, kotan dəyişib traktor oldu,
Məhsulumuz artdı hər bir fəsildə.
Sən adam olmadın bu əlli ildə.



# GÖRDÜYÜN DEYİL

Hər sülhsevər insanın səsində bir inam var,
Dünyanın hər yerindən bu səs gəlir aşikar.
Milyonların səsidir bu səs, eşit, qəsbkar,
Ömrünün sonu çatmış, birdəfəlik bunu bil,
Bu gün gördüyün ərəb dünən gördüyün deyil.

Sənin fitnən ucundan ərəb xalqı talandı,
Minlərcə insan qanı səhralara calandı.
Bəsdir, sənin zülmünə ərəb dözdü, dayandı,
O yaşamaq istəyir indi azad, müstəqil,
Bu gün gördüyün ərəb dünən gördüyün deyil.

Çək gözünü qurduğun təcavüzkar plandan,
Xeyrə çatan olmayıb oğurluqdan, talandan.
Bəsdir xalqı soyduğun, hələ köhnə zamandan,
İndi xalqın özünün olmalıdır mədaxil.
Bu gün gördüyün ərəb dünən gördüyün deyil.

Burnunu dinc ölkəyə soxma, Britaniya,
Donuz öz yatağını gərək yaxşı tanıya.
Yırtıcılar məskəni deyil İordaniya,
Çəkil get, öz yurduna, yolundan azmış səfil.
Bu gün gördüyün ərəb dünən gördüyün deyil.

Altı yüz milyon çinli, demokratik Koreya,
Misir, İraq, Suriya, Livan, İordaniya
Sülh uğrunda inamla durub arxa-arxaya.
Bu qüvvəyə heç qüvvə dura bilməz müqabil,
Bu gün gördüyün ərəb dünən gördüyün deyil.

Tutmuş ikən cahanı xalqın azadlıq səsi,
Sənin qəsbkarlığın düşündürür hər kəsi.
Qəti əmr edir sənə bütün ərəb ölkəsi
İordaniyadan tez yığış, Livandan çəkil.
Bu gün gördüyün ərəb dünən gördüyün deyil.

Yazıbdır qəti fərman sənin qətlinə zaman,
Məhv olub gedəcəksən, inan, qətidir fərman.
Bu əmri imzalamış bütün sülhsevər insan,
Cəzanı alacaqsan sən, ey yırtıcı qatil,
Bu gün gördüyün ərəb dünən gördüyün deyil.



## ŞƏN HƏYAT

Heyif ki, mən qocaldım belə bir şən zamanda,
Od tuturam, gəncliyim yada düşən zamanda.

Mən o zaman gənc ikən böylə həyat görmədim,
İndiki gənclər kimi xoş güzaran sürmədim.

Çar dövrünü keçirdim zillətlə gənc yaşımda,
Zülmün ağır yumruğu yer etmişdir başımda.

Yüzbaşının qamçısı, mollanın fırıldağı,
Məndə can qoymamışdı pristavın şallağı.

Mən bir qara mal idim qolçomağın gözündə,
İşlədərdilər məni mal-qara əvəzində.

Öz əkdiyim taxıldan düşməzdi mənə bir pay,
Hər il borclu qalardım mülkədara, qış, yay.

Köhnə uçuq komamda torpaq üstə yatardım,
Hər il töycü verməyə yorğanımı satardım.

Görünməzdi qapımda bircə baş qara malım,
Ayrana həsrət idi oğlum, qızım, əyalım.

Məni pis günə qoydu o keçmiş qara günlər,
Zaman gəldi yetişdi, ayıldı yatan ellər.

Azadlığın bayrağı günəş kimi parladı,
Zalım hökmdarları zülmətə yuvarladı.

Zülmün ağır zəncirin kökündən qopartdılar,
Yox etdilər xanları, bəyə qan ağlatdılar.

Müftəxor mülkədarlar ölkədən qovuldular,
Yerin əsl sahibi yerə sahib oldular.

İndi axan bulaqlar, axan sellər bizimdir,
Çəmənliklər bizimdir, açan güllər bizimdir.

İndi əkin, dağ, meşə, ilxı, heyvan bizimdir,
Məhsul bizim, mal bizim, uca eyvan bizimdir.

İndi kolxozumuzda traktorlar guruldar,
Indi çöllərimizdə ağqızıllar parıldar.

İndi bağım, bostanım, bollu yağım, ayranım,
Rahat nəfəs almağa var əlimdə imkanım.

Nə qorxum var yağışdan, nə qardan, nə borandan,
Nə qışdan, nə soyuqdan, nə bürkü, nə arandan.

Yay zamanı yaylağım, qış zamanı qışlağım,
Tarlalardır iş yerim, çəmənliklər ovlağım.

İndi bu saat mənim düz otuz beş yaşım var
Mənə öylə gəlir ki, sanki on beş yaşım var.

Qollarım polad kimi, damarlarım qan dolu,
Müdafiə etməyə hazıram bu haq yolu.

İgidlər cərgəsindən ayaq geri qoymaram,
Hansı bir cəbhə olsa, mən də olarla varam.

# ARZULARIMIZ

Gəl elə bir kuplet deyək,
Dost sevinib, düşmən yana.
Birinci sən başla görək,
Həqiqəti çək meydana.
Nə var könlündə, könlündə?

Söz böyüyün, yol böyüyün,
Söyləyiniz əvvəlcə siz.
Ricam budur olsa mümkün,
Mənə açıq söyləyiniz.
Nə var könlündə, könlündə?

Mən istərəm cümlə cahan
Zəhmətkeşi azad ola.
Hər bir ölkə hər bir zaman
Viranə yox, abad ola.
Bu var könlümdə, könlümdə.

Mən istərəm köhnə cahan
Qanunları məhv olunsun.
Əvəzində ürək açan
Yeni şən aləm qurulsun.
Bu var könlümdə, könlümdə.

Mən istərəm hər bir yerə
Saçsın azadlıq günəşi.
Şən yaşayıb, xoş gün görə
Bütün dünya zəhmətkeşi.
Bu var könlümdə, könlümdə.

Mən istərəm hər yer bahar,
Hər yerdə açsın gül-çiçək.
Dünyada olsun hökmdar
Azad dilək, azad əmək.
Bu var könlümdə, könlümdə.

Mən istərəm hər fitnəkar,
Hər bir araqarışdıran,
Müharibə qızışdıran
Tezliklə olsun tarü mar.
Bu var könlümdə, könlümdə.

Mən istərəm məhv edilsin
Toplar, tüfənglər, bombalar.
Bütün dünya sülhün səsin
Eşitsin, olsun bəxtiyar.
Bu var könlümdə, könlümdə.

Arzumuza yetmək üçün
Xəlqimizdə vardır hünər.
Tez zamanda vurar yekun
İstəkmizə böyük rəhbər.
Bu var könlümdə, könlümdə.

## SÜLH VƏ MÜHARİBƏ

Sülh şən yaşayışdır, sülh şən həyatdır,
İnsanın ömrünə dayaq sülhdür.
Qaranlıq məhbəsdə məhkum insana
Ziyalar bəxş edən mayaq sülhdür.

Müharibə aclıq, dilənçilikdir,
Xəlqi müflis, zəlil, xar eləyəndir.
Müharibə zəncir, qara zindandır,
Gen dünyanı xalqa dar eləyəndir.

Xalqların dostluğun möhkəmləndirən,
Qardaşı qardaşa sevdirən sülhdür.
Məzlum insanların, günahsızların
Gözlərinə gün tək nur verən sülhdür.

Müharibə dostu dostuna qarşı,
Qardaşı qardaşa düşmən edəndir.
Günahsız insana, məzlum insana
Zülmət xərabəni məskən edəndir.

Hər ananın oğula, vətən uğrunda
Etdiyi söhbəti, sözü sülhdür.
Hər vətənin sevən mərd oğulun da
Ömrünün baharı, yazı sülhdür.

Müharibə hər bir məsum ananın
Sinəsinə oğul dağı çəkəndir.
İllər boyu bala yolun gözləyən
Ananın gözündən qan-yaş tökəndir.

Hər qoca atanı fərəhləndirən,
Arzuya çatdıran onu, sülhdür.
Toy-büsatda hər ananın oğluna
Geydirdiyi əlvan donu sülhdür.

Müharibə hər bir qoca atanın
Arzusunu qıran, qəlbin qırandır.
Müharibə şadlıq-sevincə ziddir,
Toy-büsat yerində yas qurdurandır.

Südəmər körpəni rahatlandıran
Mehriban analar laylası sülhdür.
Övlad məhəbbəti, ana qayğısı
Bu müsbət duyğunun mənası sülhdür.

Müharibə hər bir körpə balanı
Anadan ayıran vəhşi qartaldır.
Yurdsuz, yetim qoymaq insan övladın,
Kapitalistlərdə bu sınanmış haldır.

Məhsulun artması, varlı həyatın,
Bolluğun, toxluğun əsası sülhdür.
Hər zəhmətkeş bilir, gözəl anlayır
Əmək dünyasının səfası sülhdür.

Müharibə məhsul verən torpağa
Zəhərlər səpdirən qara buluddur.
Görmüşük dağılan kənd-şəhərləri,
Yaxın keçmiş bizə canlı sübutdur.

Təmiz vicdanlılar buna sübutdur,
Qalibiyyət, zəfər, qüdrət sülhdür.
O mənfur kapitalist dünyasın bu gün
Kökündən sarsıdan qüvvət sülhdür.

Sülhsevənlər məndən yaxşı bilirlər,
Fəqət mənim borcum qeyd eləməkdir.
Müharibə ancaq və yenə ancaq
Kapitalistlər, kapitalistlər deməkdir.



## HƏR DƏQİQƏ, HƏR SANİYƏ

Biz artistlər daim gərək
Kütləyə xidmət göstərək.
Layiqincə konsert verək
Hər dəqiqə, hər saniyə.

Kütlə sevir sənətmizi,
Saxlayırlar hörmətmizi.
Dinləyirlər söhbətmizi
Hər dəqiqə, hər saniyə.

Qırx-əlli il bundan qabaq
Tarixə diqqətlə baxaq.
Müsbət nəticə çıxaraq
Hər dəqiqə, hər saniyə.

Ölkəmizə salın nəzər,
Qalmamış keçmişdən əsər.
Salınır bağlar, meşələr
Hər dəqiqə, hər saniyə.

Bunu bütün aləm bilir,
Köhnə binalar sökülür.
Möhtəşəm evlər tikilir
Hər dəqiqə, hər saniyə.

Keçmişdə kəndli yoldaşın
Əzərdi yoxsulluq başın.
İndi alır avtomaşın
Hər dəqiqə, hər saniyə.

Bununla bitmir məsələ,
Söhbətin var ardı hələ.
Görüşərik bundan belə
Hər dəqiqə, hər saniyə.



## İNSAN ÖZÜDÜR

Deyirlər Allah var, şeytan da vardır,
Bu olmayan varlıq insan özüdür.
Pis işi insanlar şeytandan bilir,
Pisliyin binasın qoyan özüdür.

Təəccüb edirəm bəzi insana,
Lənətlər yağdırır daim şeytana.
Dünyanı sərbəsər batıran qana,
Bütün ziddiyyəti salan özüdür.

Namusu, qeyrəti şöhrətə satan,
Zorluqla rütbəyə, mənsəbə çatan,
Təqsiri şeytanın boynuna atan,
Hər yerdə vicdanı satan özüdür.

Adam var ki, sakit tutur özünü,
O sanki rüşvətə dikmir gözünü.
Dərindən yoxlasan astar üzünü,
Görərsən ki, rüşvət alan özüdür.

Bir para övladdan şikayət edən
Deyir ki, ay Allah, nə bədbəxtəm mən.
Qanmır ki, tərbiyə, öyüd verməyən,
Övladı pis günə qoyan özüdür.

Bəzini sərxoşluq, qumar oynamaq,
Evindən, külfətdən çox salır uzaq.
Külfəti dolanar, böyüyər uşaq,
Ortada biabır olan özüdür.

Mən istərdim bu gün bura toplaşan
Qoy tanısın məni qoca, həm cavan.
Bu sözləri xalqın xeyrinə yazan
Sizinlə üzbəüz duran özüdür.



## ÇOBAN QARA

Gözəl olur kənd səhəri
Gün üfüqdən doğan zaman,
Duman tərk edir göyləri,
Günəş ziya saçan zaman.
Lalələr geyir al məxmər,
Çoban Qara səhər-səhər
Çalır nəşəli nəğmələr.

Adlı-sanlı Çoban Qara,
Döşündə parlaq ulduzu.
Dumanları yara-yara
Dağdan enir qoyun-quzu.
Bu aləmə sal bir nəzər,
Çoban Qara səhər-səhər
Çalır nəşəli nəğmələr.

Əlvan çiçəkli çöllərin
Bəzəyidir Çoban Qara.
Bizim azad şən ellərin
Ürəyidir Çoban Qara.
Bilməz nədir ələm, kədər,
Çoban Qara səhər-səhər
Çalır nəşəli nəğmələr.

## ÜÇ GÖZƏL

İlin gözəl fəsli bahar çağında,
Üç gözəl görmüşəm həyat bağında.
Hər üçünün qara xal yanağında,
Biri Bakı, biri Şəki, biri Şirvan gözəli.
Maral gözlü, gülər üzlü, sözü şirin, məzəli.

Al yanaqlar qara tellər içində,
Güldən seçilməyir güllər içində.
Hər üçü məşhurdir ellər içində,
Biri Bakı, biri Şəki, biri Şirvan gözəli.
Maral gözlü, gülər üzlü, sözü şirin, məzəli.

Gözəllər çox olur bizim ellərdə,
Xumar gözlülər də, incəbellər də.
Hər üçünün adı gəzir dillərdə,
Biri Bakı, biri Şəki, biri Şirvan gözəli.
Maral gözlü, gülər üzlü, sözü şirin, məzəli.

## ÜÇ GÖZƏL

Musiqisi: Hüseynli
Sözləri:Anatollu Əhməd

İlin gözəl fəsli bahar çağında,
Şehdən inci parlar gül budağında.
Üç nazənin gəzər ellər bağında:
Biri Şuşa, biri Şəki, biri Şirvan gözəli.

Şux camalı qara tellər içində,
O, güldən seçilmir güllər içində.
Üçü də məşhurdur ellər içində:
Biri Şuşa, biri Şəki, biri Şirvan gözəli.

Gözəllər çox olur bizim ellərdə,
İncədodaqlar da, incəbellər də.
Üç gözəl var adı gəzir dillərdə:
Biri Şuşa, biri Şəki, biri Şirvan gözəli.

*15.04.60.*



# QOCA İŞÇİ

Çar zamanında bir qoca qırx il
İşləyib bir zavodda, oldu əlil.

Çarəsiz qaldı, həm buraxdı işin,
Oturub evdə, oldu guşənişin.

Qocalıq, xəstəlik bir yandan,
Tabdan düşdü bu fəqir insan.

Qocanın halını soran yox idi,
Çünki ac onda acdı, tox tox idi.

Bir zaman sürdü xəstəlik dövrün,
Qoca gördü zəmanənin cövrün.

Aclığın pəncəsində çırpınaraq,
Gördü müşküldür ac, susuz yaşamaq.

Yatağından durub dedi gedərəm,
Yenə də istanokda işləyərəm.

Zavoda gəldi, işləmək dilədi,
Xozeyin hiddətilə böylə dedi:
-Rədd ol, rədd ol!

Qocanın var idi tək övladı,
İncə bir qız, Ədilə idi adı.

Atanın müdhiş halını görcək,
İstəyirdi ona kömək eləmək.

Varlıya getdi durdu xidmətçi,
Gecə, həm gündüz oldu növbətçi.

Ağanın vardı ərköyün oğlu,
Uxozorluq idi daima şuğlu.

Zorla, qorxutmaqla qızcığazı
Bir rəna iş üçün eyləmiş razı.

Bu fəlakətdən altı ay keçmiş,
Ağaya məlum oldu hər bir iş.

Coşdu-daşdı, alışdı-odlandı,
Başına sanki ölkə fırlandı.

Dedi, ey yoldan azmış alçaq qız,
Get evimdən, şərəfsiz, əxlaqsız.
Rədd ol, rədd ol!

Ağalardan buzurgüvarlardan
Bundan artıq nə gözləyər insan?

Varlı sinfində mərhəmətmi olar?
Yoxsula rəhm edərmi heç ağalar?

Bu günahsız, bu kimsəsiz, miskin
Atası yurduna dönüb qəmgin.

Az zaman keçdi, doğdu bir övlad,
Artdı qəm, artdı naləvü fəryad.

Əli qoynunda qaldı sərgərdan,
Sinəsi dağlı, gözləri giryan.

İşləməkçün Ədilə hazır idi,
Qəhrəmanlıq üzündə zahir idi.

Təmin etmək üçün oğlun, atasın,
Şəhərə çıxdı, özünə iş arasın.

Kimə üz döndərib kömək dilədi,
Hara getdi, hamısı böylə dedi:
-Rədd ol, rədd ol!

Yoxsula kim salardı onda nəzər?
Hamı yoxsuldan eyləyərdi həzər.

Bir köpək olsaydı sərvətli,
Sanılırdı o həm şərafətli.

Qucağında çocuq, bu məsum qız,
Küçələrdə gəzərdi tək, yalnız.

İstəyirdi dilənçilik eyləsin,
Bilməyirdi nə söyləsin, nə desin.

Aclığından əsirdi əl-ayağı,
Gül kimi solmuş idi dil-dodağı.

Zəfdən verdi arxasın divara,
Buna yaxlaşdı bir səfil avara.

Haman əl atdı yoxlasın sinəsin,
Qızcığaz hirslə ucaltdı səsin.

-Həyasız, dur, mənə uzatma əlin,
Zənn edərsən gözün var, həm də dilin.
Rədd ol, rədd ol!

Günü-gündən ağırlaşırdı həyat,
Qoca aclıq ucundan etdi vəfat.

Qaldı təkcə Ədilə, bir çocuq,
Aclıq, işsizlik, həm də bərk soyuq.

Əli qoynunda fikrə dalmış qız,
Düşünürdü solub-saralmış qız.

Eşidib duydu səslənir şeypur,
Səslənirkən deyirdi: dur-dur-dur!

Yetər artıq, yetər bu küsgün hal,
Dur, bizim ordunu et istiqbal.

Sanki yatmışdı, birdən açdı gözün,
Güldü gülməz üzü Ədiləmizin.

Şadlığından atıldı çıxdı çölə,
Özü, həm yavrusu qoşuldu elə.

Yüyürürdü çocuq qabaq sırada,
Söyləyirdi bu sözləri orada:

Bir-iki.......bir-iki.......sağ......sol....
Məhv ol, ey çar hökuməti, rədd ol!

## SUAL-CAVAB

Ömər Xəyyam:
Lalələr bitirən hər laləzarın
Laləsi qanıdır bir şəhriyarın.
Torpaqdan göyərən incə bənövşə
Xalıdır bir gözəl dilbər nigarın.

Anatollu:
Ağ qızıl becərən hər gülüzarın
Zəhməti, fəxridir bizim diyarın.
Tarlada açılan hər bir ağ çiçək
Alnının təridir min bəxtiyarın.

Ömər Xəyyam:
Bizdən əvvəl varmış bu axşam-səhər,
Bir məqsəd uğrunda dönərmiş göylər.
Asta gəz çəməndə, gözəl bir qızın
Xumar gözləridir bu gəzdiyin yer.

Anatollu:
Düzdür, varmış əvvəl bu axşam-səhər,
Kədərlə yaşarmış zəhmətkeş bəşər.
Bir məqsəd uğrunda indi bu yerdə
Yeni dünya qurur qəhrəman ellər.

Ömər Xəyyam:
Çiçəkli mövsümdür, çıx çəmənzara,
Yoldaş ol iki-üç gözəl dildara.
Şərab iç, keyf elə, badə içənlər
Uymaz məscidlərə, kəlisalara.

Anatollu:
Günəş doğmamışkən çıx çəmənzara,
Sür dəmir atını xam torpaqlara.
Bol məhsul hasil et, firavan yaşa,
Zəhmət çəkən insan heç düşməz dara.

Ömər Xəyyam:
Səadət axtarma, həyat bir andır,
Hər zərrə Cəmşiddən, Keydən nişandır.
Ömrün mahiyyəti, dünyanın halı
Röyadır, xəyaldır, quru yalandır.

Anatollu:
Səadəti axtar, gözəl zamandır,
Gözəl həyat quran böyük insandır.
Əkiblər yemişik, ək, qoy yesinlər,
Allahım yetirər, quru yalandır.

Ömər Xəyyam:
Gəlişin dünyaya nə fayda verdi?
Ömrün ümid kökü harda göyərdi?
Fələyin oduna yanan canları,
Yüksələn tüstünü, söylə, kim gördü?

Anatollu:
Kapitalizm insana nə fayda verdi?
Səpdiyi dollardan bomba göyərdi.
Misirdə yüzlərcə yanan evlərdən
Çıxan tüstüləri insanlar gördü.

Ömər Xəyyam:
Bulud lalələrə səpir jaləni,
Qalx, içməyə, al ələ piyaləni.

Bu gün seyrəngahın olan çəmənlər,
Qəbrində bitirər sabah laləni.

Anatollu:
Kapitalist göydən səpir bombanı,
Məhv etmək istəyir məzlum insanı.
Bu gün seyrəngahın olan çəmənlər,
Sabah, qoyma, olsun düşmən məkanı.

Ömər Xəyyam:
İnsan oyuncaqdır, fələk oyunbaz,
Bu bir həqiqətdir, deyildir məcaz.
Vücud səhnəsində oynayan insan
Ədəm sandığına girməsə, olmaz.

Anatollu:
Bilir bunu Misir, Suriya, Hicaz,
Dollar oyuncaqdır, Dalles oyunbaz.
Faşistin rolunu oynayan alçaq
Hitler kimi məğlub olmasa, olmaz.

Ömər Xəyyam:
Bu fələk bənzəyir çevrilmiş tasa,
Zirək insanları batırır yasa.
Qədəhlə şişənin dostluğu qandır,
Dodaq-dodağa da öpüşmüş olsa.

Anatollu:
Kapitalizm oxşar qanlı bir tasa,
Batırmaq istəyir dünyanı yasa.
Gecə-gündüz fikri, xəyalı qandır,
Su içməz, qan içər dəryaca olsa.

Ömər Xəyyam:
Bilinməz nə vaxtdan hərlənir bu tas,
Nə zaman pozular bu gözəl əsas.
Belə nazik fikri, incə xəyalı
Ağıl ölçüsüylə dərk etmək olmaz.

Anatollu:
Bilirik nə vaxtdan hərlənir bu tas,
İstəyirsən deyim, Xəyyam, qulaq as:
Bombalar məhv olub silinər izi,
Sülh ilə qurular gözəl bir əsas.



## QƏZƏLLƏR

***

Dərd əhlini mən guşeyi-meyxanədə gördüm,
Bir gövhəri-pürqiyməti viranədə gördüm.

Qəm bəhrinə qərq olduğunu sordum o ləlin,
Susdu, səbəbin ləbləri dürdanədə gördüm.

Hicranə nə aşiq, nə də məşuqə səbəbdir,
Bu işdə müqəssirliyi biganədə gördüm.

Aşiqlərə bu dəhrdə divanə deyirlər,
Fərzanəliyin əksini divanədə gördüm.

Bir çoxları olmuş o qara zülfün əsiri,
Zülfün də əsir olduğunu şanədə, gördüm.

Bu səhldir, aşiq gərək atəşlərə yansın,
Mən eşq oduna yanmağı pərvanədə gördüm.

Naseh kimi yüz maili-gülrüxləri daim
Dillərdə gəzən bir neçə əfsanədə gördüm.



***

Az yaşımda çox gəzib, əhli-səxa çox görmüşəm.
Canü dildən eyləyən əhdə vəfa çox görmüşəm.

Mübtəlayi-dərd olan şəxsə şəfalər bəxş edən,
Qayğıkeş insanları dərdə dəva çox görmüşəm.

Öz sözündə mərd-mərdanə duranlar az deyil,
Dost yolunda can qoyan dost-aşina çox görmüşəm.

Öz həqiqi yarına mehrü məhəbbət göstərən,
Etibarlı, pürdəyanət məhliqa çox görmüşəm.

Sevgini cismən təsəvvür eyləyən aşiqləri
Möhnətü dərdü bəlayə mübtəla çox görmüşəm.

Acizə, məzluma divan eyləyən zalımların
Eyş-işrət xanəsin matəmsəra çox görmüşəm.

Keçmişin cövrü cəfasına dözən Naseh deyir:
Bu azad ölkəmdə mən zövqü səfa çox görmüşəm.



***

Saqi, dəmi fövt etmə, gətir badeyi-gülgun,
Keçsin bu gecəm xoş, sabah ömrüm sənin olsun.

Ver badə dəmadəm, belə fürsət ələ düşməz,
Hansı anadır ki, o dübarə məni doğsun.

Beş günlük ömür dövrünü qoy xoş keçirim mən,
Torpağə gömüldükdə könül olmaya məhzun.

Dünyaya gələn qalmayacaq, qoy hamı bilsin,
Bir dəfə təbiətdə yazılmış belə qanun.

Bilsin bunu sərvətlə həyatı düşünənlər,
Cəmşidi həyatə geri qaytarmayıb altun.

Dünya malına rəğbət edən şadlığı duymaz,
Öz arzusu ilə gedəcək qəbrə ciyərxun.

Naseh belə bir dövlətin avarəsidir ki,
Yarı ona məftun ola, ol yarına məftun.



***

Bəh-bəh, əcəb zəmanə, əcəb ruzigardır,
Hər yer səfalı mənzərədir, laləzardır.

Gündən-günə çiçəklər açan şanlı ölkəmiz
Beynəlmiləl bir ölkədi, azad diyardır.

Burda sevib-sevilməyə insanın həqqi var,
Hər kəs öz istəyində özü ixtiyardır.

Tarixdə görməyib bəşəriyyət bu aləmi,
Dörd fəslimiz hər il gecə-gündüz bəhardır.

Zəhmət çəkən, qurub-yaradan çox gözəl bilir,
Möhkəm binaların özəyi etibardır.

Keçmiş zəmanənin ələmin, möhnətin görən
Bu ruzigardə nə qədər bəxtiyardır.

Naseh, unutma gördüyümüz bu gözəl həyat
Bizim gələn nəsillərə bir yadigardır.



## NƏSİHƏT QƏZƏLİ

Ey insan oğlu, insanı narahat elyəmə,
Ev yıxmağı, qan eyləməyi adət eyləmə.

Son qoy cəhalətə, daşını at səfalətin,
Keçmiş zaman deyil, əzizim, qəflət eyləmə.

Hal əhli ol, həmişə otur əhli-hal ilə,
Naəhl ilə gəzib-dolanıb, ülfət eyləmə.

Dalda danışmaq insanı bihörmət eyləyər,
Mərd ol, həmişə üzdə danış, qeybət eyləmə.

Öz tutduğun əməlləri, öz eybini düşün,
Bir başqasında eyb görüb, töhmət eyləmə.

Uyma şərabə, çünki o ümmül-fəsaddır,
Başdan-ayağə şərdir, ona rəğbət eyləmə.

Soyğunçuluqla varlı olan kimsə olmayıb,
Yıxma, dağıtma, xəlqin evin qarət eyləmə.

Göz dikmə özgənin malına, bil cəzası var,
Parlaq həyatını çevirib zülmət eyləmə.

Öz zəhmətinlə kəsb elə, mərdanə gəz-dolan,
Namərdə yalvarıb, əl açıb minnət eyləmə.

Naseh, nəsihəti buraxıb, eşqdən danış,
Nadan üçün zəruri olan söhbət eyləmə.

# TOY QƏZƏLİ

Bu gün ən cazibəli, şanlı ziyafət günüdür,
İki gül butəsinin sevgi-məhəbbət günüdür.

Həm sevən, həm sevilən gəncləri təbrik eləyək,
Bir-birilə onların etdiyi ülfət günüdür.

Doğma övladına hər bir ananın şadlıq ilə
Etdiyi xeyir-dua, eyni səadət günüdür.

Bu günün qiymətini arif olan yaxşı bilir,
Lütfkarlıq, əlaçıq, əhli-səxavət günüdür.

İnsana zövqü səfa bəxş eləyən, nəşə verən
Xoş təbəssümlə, gülər üzlə, nəzakət günüdür.

Təxti-şahanəyə əyləşdiyi gün hər bəy üçün
Öz müğənnisinə bəxş etdiyi xələt günüdür.



# MÜNDƏRİCAT

**Ustadım Sabir demişkən**.................. 3

***KUPLETLƏR*** .................. 13
Köhnələr orda-burda pıçıldaşırlar .................. 13
Naxçıvanda şura süpürgəsi.................. 14
Saldom vada.................. 15
Sinəzən.................. 16
Parıldar.................. 17
Gülmək olmaz.................. 18
Kamunxoz.................. 19
Kərbəlayi öz övrətini tərifləyir.................. 20
Ayıq olun .................. 21
Tovariş .................. 23
Latı.................. 25
Gəlir və çıxar.................. 26

***ACI HƏQİQƏT*** .................. 29
Kislovodski .................. 29
Şorba .................. 30
Baksayuz.................. 31
Sinəzən.................. 32
Məəttəl olma .................. 34
İranda möcüz.................. 36
Dedinka.................. 37
Kül başımıza .................. 38
Bizə nə var .................. 39
Hambalın şikayəti .................. 40
Malini malmalat.................. 41
Şümri-dəğa faytonçular.................. 43
Plaxoylaşır.................. 44
Məşədi İbadin hambalı.................. 45
Partfellilərə.................. 46
Eşitdin, inanma .................. 48
Hərədən bir.................. 50
Qadınlar iş başında.................. 52
Tapmaca.................. 53
Baraşkacan .................. 55
Baraşqacan .................. 57
Latı.................. 59
Olsaydı, olmazdı .................. 60
Dövlətlilərin söhbəti.................. 62

***“ŞAPALAQ”*** ... 65
En qədərü en qədər ... 65
Portfelin tərifi ... 67
Jenatdel ... 69
Bax, belə-belə ... 71
Onda elə idi, indi belədir ... 73
Qəzet yazanlar deyir ... 75
Yatmayın ... 76
Arvad həkimləri ... 78
Orucluq bayramı ... 80
Qurban bayramında ... 81
Sinəzən ... 83

***ÇUVALDUZ*** ... 85
Qovladılar ... 85
Onda necə olar ... 87
Köhnələr deyir ... 89
Xoruz ... 90
Bakının keçmiş həkimləri ... 91
Dana ... 92
Cürbəcür adamlar ... 94
Çadra daloy ... 96
Aristovat ... 97
Posta müdirlərinə ... 98
Qolçomaqların quyruğu ... 99
Tazəbətazə, növbənöv ... 100
Ata oğula nəsihət verir ... 102
Pişik ... 104
Zəmanə Leyli-Məcnunları ... 105

**QEYRİ-MƏTBU ŞEIRLƏR** ... 107
***USTADIM SABİR DEMİŞKƏN*** ... 108
Zəhər qatdı aşıma ... 108
Mən deyən oldu ... 110
Avtomatdır ... 112
Sən də, mən də ... 114
Dayım var ... 116
Beləsi də var ... 118
Çarliston ... 119
Kim bacarırsa, gülməsin ... 120
Bir neçə sual ... 122
Uçaq aya ... 124
Sən-sən ... 125
Bizdədir ... 127
Mövhumat qəhrəmanları ... 128

Vətən müharibəsi günlərində əsgərlikdən qaçıb gizlənənlərə ....... 129
Get, ay batandan sonra gəl ........ 131
Boylana-boylana ........ 132
Ay haray ........ 134
Yeri gələndə ........ 136
Xalis şiələr ........ 138
Vurur ........ 139
Tərif ........ 141
Bax, bu qədər, bax, bu qədər ........ 142
On beş gün ........ 144
Keçər gedər ........ 146
Arvadların Molla Nəsrəddin aeropalanına ianə göndərmələri ...... 147
Qızım var ........ 148
Öz aramızda qalsın ........ 150
Get işinin dalınca ........ 152
Dua yazan məktəb müdiri ........ 154
Aşiq mahnısına bənzətmə ........ 155
Həyasız it ........ 157
İmtahandan-imtahana ........ 159
İmtahanqabağı ........ 160
Cibin düymələ, düymələ ........ 161
Satdılar ........ 162
Gec-tezliyi var ........ 163
Atalar sözü ........ 164
Novruz bayramının ........ 166
Orucluq ayına düşməsi ........ 166
Şeydir, zaddır ........ 167
Ağlayan kişi ........ 168
Bir olar, ya iki ........ 170
Boşboğazlar ........ 171
Beləsi də var ........ 173
Molla müəllim ........ 174
Evdar qadının şikayəti ........ 175
Kürdəmir sövxozu ........ 176
Xıllı ........ 176
Vartaşen ........ 176
Salyan ........ 177
Maymaq ........ 178
Hərəsindən bir az ........ 180
Cəbhədən məktub ........ 182
Az. SSR naz. sov. sədri Rəhimov yoldaşa ........ 183
Müharibə qızışdıranların ürək sözü ........ 184
Əkildi ........ 186
Trumenin makartura töhməti ........ 188
Makartur ........ 189

Namazqılan sədr ........ 191
"Aşiq Qərib" operasından ........ 192
Ötrü əlavələr ........ 192
Cırırlar ........ 195
Nə səndədir, nə məndə ........ 197
Yatmayın ........ 200
Qohumlar ........ 201
Nə hə deyir, nə yox deyir ........ 203
Gəlhagəlidir ........ 205
Rövzəxan ........ 206
Tüfeylilər ........ 207
Qadının şikayəti ........ 208
Təmizlik ........ 209
Əl çək ........ 210
Baş ağrıdan çax-çaxdır ........ 211
Bənzətmə ........ 213
Üzbəüz ........ 214
Məşədi İbadın Hambalı ........ 215
Bəhri-təvil ........ 217

***ARZULARIMIZ*** ........ 219
Bakı ........ 219
Dələduz və avaralar haqqında ........ 221
Gördüyün deyil ........ 223
Şən həyat ........ 225
Arzularımız ........ 227
Sülh və müharibə ........ 229
Hər dəqiqə, hər saniyə ........ 232
İnsan özüdür ........ 234
Çoban Qara ........ 236
Üç gözəl ........ 237
Üç gözəl ........ 237
Qoca işçi ........ 239
Sual-cavab ........ 242

**QƏZƏLLƏR** ........ 246
Dərd əhlini mən guşeyi-meyxanədə gördüm ........ 246
Az yaşımda çox gəzib, əhli-səxa çox görmüşəm ........ 247
Saqi, dəmi fövt etmə, gətir badeyi-gülgun ........ 248
Bəh-bəh, əcəb zəmanə, əcəb ruzigardır ........ 249
Nəsihət qəzəli ........ 250
Toy qəzəli ........ 251

Əhməd Anatollu

Öz aramızda qalsın

Bakı-“MBM”-2015, 256 səh.

Naşir: Afər Fəttahova
Korrektor: Aytən Quliyeva
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Zərifə Bağırova, Tərlan Quliyeva

---

Yığılmağa verilib: 05.07.2015
Çapa imzalanıb: 01.08.2015
Kağız formatı: 60/84
Tiraj 300, şərti çap vərəqi 16
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06